MUSA QASIMLI
ELMİRA HÜSEYNOVA

# AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ

- 14165 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

MÜTƏRCİM
Bakı – 2013

Elmi redaktor və rəyçi: **Həsən Əlibəyli,**
*tarix elmləri doktoru, professor*

**M. Qasımlı, E. Hüseynova. Azərbaycanın xarici işlər nazirləri.**
*Yenidən işlənilmiş ikinci nəşr.* – Bakı: Mütərcim, 2013. – 144 səh.

Əsərdə Azərbaycan, Rusiya, Gürcüstan və Böyük Britaniya arxiv materialları, rəsmi dövlət və hökumət sənədləri, dövri mətbuat əsasında 1918-ci ildən sonrakı tarixi dövrdə Azərbaycanın xarici işlər nazirlərinin bioqrafiyası verilmişdir.

Kitab diplomatlar və Azərbaycan diplomatiya tarixi ilə maraqlanan şəxslər üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-28-131-6

©M.Qasımlı, E.Hüseynova, 2013

# Kitabın içindəkilər

Ön söz ........ 4

Məmmədhəsən Hacınski ........ 7
Əlimərdan bəy Topçubaşov ........ 16
Fətəli xan Xoyski ........ 41
Məmmədyusif Cəfərov ........ 54
Nəriman Nərimanov ........ 62
Mirzədavud Hüseynov ........ 80
Mahmud Əliyev ........ 88
Tahirə Tahirova ........ 91
Elmira Qafarova ........ 96
Hüseynağa Sadıqov ........ 101
Tofiq Qasımov ........ 104
Həsən Həsənov ........ 111
Tofiq Zülfüqarov ........ 122
Vilayət Quliyev ........ 129
Elmar Məmmədyarov ........ 138

## ÖN SÖZ

Hörmətli oxucu! Xalqımızın qədim və zəngin dövlətçilik tarixinin səhifələrindən biri diplomatiya tarixidir. Dünya siyasətində mühüm yer tutmuş diplomatiyamızın tarixində XX əsrdə ilk dəfə olaraq xalqımızın Dövlət Millətinə çevrildiyi 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövrü xüsusi önəm daşıyır. Müsəlman Şərqində ilk dəfə olaraq ölkəmizdə respublika idarə-üsulu yaradıldı, Azərbaycan parlamentli respublika oldu. Cümhuriyyət ideyasını və idarə üsulunu müsəlman xalqları arasına ilk gətirən Azərbaycan xalqı onlara müstəmləkəçilikdən xilas olmaq yolunu göstərərək, müstəsna tarixi rol oynadı. 1919-cu ildə qurulan Xarici İşlər Nazirliyi (XİN) dövlətimizin müstəqil xarici siyasətini həyata keçirərək, fəaliyyəti ilə tariximizə qızıl hərflərlə yazıldı. Cümhuriyyət dövründə Azərbaycan diplomatiya idarəsinin başçıları olmuş Məmmədhəsən Hacınski, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Məmmədyusif Cəfərov böyük dövlət xadimləri və diplomatlar kimi tariximizdə layiqli mövqe qazanmışlar.

1920-ci ilin aprel ayında Azərbaycan Xalq Cümhuriyyətinin bolşevik Rusiyasının təcavüzünə məruz qalması nəticəsində Vətənimizin işğal edilməsi ilə dövlət müstəqilliyinə son qoyuldu. Azərbaycan SSR yaradıldı. Dövlət müstəqilliyimiz itirildikdən sonra ləğv edilən Xarici İşlər Nazirliyinin yerində Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığı (XXİK) yaradıldı. Geniş səlahiyyətlərinin olmamasına baxmayaraq, Xalq Xarici İşlər Komissarlığı 1920-1922-ci illərdə xarici ölkələrlə müəyyən səviyyəli ikitərəfli münasibətlər saxlayırdı. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanın xalq xarici işlər komissarları Nəriman Nərimanov və Mirzədavud Hüseynov olmuşlar. Həmin illərdə Azərbaycan SSR sovet Rusiyasının Şərq siyasətində müstəsna rol oynayırdı. Lakin az sonra XXİK də ləğv edildi. SSRİ yaradıldıqdan sonra isə Azərbaycanın müstəqil xarici siyasəti tamamilə dayandırıldı. Xarici siyasət məsələləri mərkəzi hakimiyyətin əlində cəmləşdirildi.



Yalnız İkinci Dünya müharibəsinin sonlarına yaxın yaranmış beynəlxalq şəraitdə sovet dövləti öz maraqlarına uyğun olaraq, xüsusən, müttəfiq respublikaları BMT-yə üzv edib, üstünlük qazanmaq niyyətlərini gerçəkləşdirmək üçün 1944-cü ildə digər müttəfiq respublikalarla yanaşı Azərbaycan SSR XXİK-i də bərpa etdi. 1946-cı ildən etibarən isə XXİK Xarici İşlər Nazirliyinə çevrildi. Lakin XİN yenə də səlahiyyətsiz bir rəsmi qurum olaraq qalırdı. Bu dövrdən başlayaraq Azərbaycanın xarici siyasət idarəsinə Mahmud Əliyev, Tahirə Tahirova, Elmira Qafarova, Hüseynağa Sadıqov (həm də dövlət müstəqilliyinin ilk yeddi ayında) başçılıq etmişlər. Bütün mürəkkəb və ziddiyyətli məqamlara baxmayaraq, heç şübhəsiz, tariximizin maraqlı səhifələrindən biri olan sovet dövründə də Azərbaycan mərkəzi hakimiyyət vasitəsi ilə ölkənin beynəlxalq əlaqələrində bu və ya başqa dərəcədə iştirak edirdi. 50-ci illərin ortalarından etibarən respublikanın beynəlxalq əlaqələrində canlanma yarandı. Azərbaycan sovet dövlətinin əsasən mədəniyyət sahəsindəki əlaqələrində iştirak etməyə başladı. Mərkəzin nəzarəti və rəhbərliyi altında Asiya, Afrika və Latın Amerikası ölkələri ilə əlaqələr quruldu.

70-80-ci illərdə Azərbaycanın beynəlxalq əlaqələri əvvəlki illərə nisbətən genişləndi. 1978-1979-cu illər İran inqilabı və 1979-cu ildə SSRİ-nin Əfqanıstana müdaxiləsindən sonra Azərbaycan sovet dövlətinin Şərq siyasətində yenidən mühüm rol oynamağa başladı. Azərbaycanın əhəmiyyəti artdı. Respublikanın paytaxtı bir çox beynəlxalq toplantıların keçirildiyi yerə çevrildi. Azərbaycan 70-ci illərdə Müsəlman Şərqinə təsir edən respublika oldu.

Uzun illər boyu müxtəlif formalarla sovet rejiminə qarşı apardığı mübarizə və 80-ci illərin sonu-90-cı illərin əvvəllərində beynəlxalq aləmdə yaranmış əlverişli şərait nəticəsində XX əsrdə ikinci dəfə dövlət müstəqilliyini bərpa edən Azərbaycan xalqı ikitərəfli və çoxtərəfli beynəlxalq əlaqələr qurmağa başladı. Müstəqillik illərində Azərbaycan Respublikası diplomatiyasının qarşısında duran başlıca vəzifə dövlət mustəqilliyini tanıtmaq, möhkəmləndirmək, Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsini həll, ölkə daxilində bütün sahələrdə dövlət quruculuğu

üçün əlverişli beynəlxalq şəraiti təmin etmək idi. Qısa müdət ərzində Azərbaycan Respublikasının dövlət müstəqilliyi dünyanın əksər dövlətləri tərəfindən tanındı və diplomatik münasibətlər quruldu. Azərbaycan beynəlxalq və regional təşkilatların üzvü və ya yaradıcılarından biri oldu. 1992-ci ildən sonrakı dövrdə Azərbaycan Respublikasının xarici işlər nazirləri vəzifəsində Tofiq Qasımov, Həsən Həsənov, Tofiq Zülfüqarov, Vilayət Quliyev və Elmar Məmmədyarov işləmişlər.

Azərbaycanın xarici işlər nazirlərinin tərcümeyi-halı və fəaliyyətini araşdırmaq həm tarixilik, həm müasirlik, həm də diplomatiyamızın gələcək inkişafında varislik baxımından əhəmiyyətlidir. Ancaq indiyədək ölkəmizdə bu barədə ayrıca əsər yazılmamışdır. Ona görə də müəlliflər müxtəlif ölkələrin arxiv materialları, dövri mətbuat və rəsmi sənədlər əsasında xarici işlər nazirlərinin bioqrafiyasını yazmışlar. Əsərdə istifadə olunan şəkillər Azərbaycandakı arxiv fondlarından, kitab, qəzet və jurnallardan, internet saytlarından götürülmüşdür.

Təqdim olunan bu əsər ilk dəfə 2003-cü ildə nəşr edilmişdir. Həmin vaxtdan ötən müddət ərzində ona yenidən nəzər yetirilmiş, bəzi əlavə və düzəlişlər edilmiş, təkrar nəşrinə ehtiyac duyulmuşdur.

Heç şübhəsiz, yüz illər bundan sonra da dövlətimizin möhkəmlənməsində, region və dünya siyasətinə əsaslı təsir edəcək gücə çevrilməsində diplomatiyamız xüsusi rol oynayacaq və deməli, bu əsərin səhifələrinə yeni-yeni xarici işlər nazirlərimizin tərcümeyi-halı da əlavə ediləcəkdir.

Əsərin faydalı olacağına inanır və xeyirxah qeydlərini söyləyəcək şəxslərə əvvəlcədən təşəkkür edirik.



## Məmmədhəsən Hacınski

***28 may – 6 oktyabr 1918***



Azərbaycanın görkəmli siyasi və ictimai xadimlərindən, xalqımızın azadlığı və müstəqilliyi uğrunda mübarizəsinin fəal iştirakçılarından biri, Azərbaycan Xalq Cümhuriyyətinin ilk xarici işlər naziri Məmmədhəsən Cəfərqulu oğlu Hacınski olmuşdur.

M.Hacınski 1875-ci il martın 3-də Bakı şəhərində varlı bir ailədə anadan olmuşdur. O, XIX əsrin 80-90-cı illərində Bakı realnı məktəbini bitirərək təhsilini davam etdirmək məqsədi ilə 1897-ci ildə Rusiya imperiyasının mərkəzi Sankt Peterburq şəhərinə getmişdir. O, Peterburq Texnoloji İnstitutuna daxil olmuş və tezliklə qaynar tələbə həyatına atılmış, qabaqcıl tələbələrə yaxınlaşmış, Rusiyanın siyasi, ictimai və mədəni həyatı ilə tanış olmuşdur. 1902-ci ildə Peterburq Texnoloji İnstitutunu bitirən Məmmədhəsən mühəndis kimi Azərbaycan sənayeçilərindən Şəmsi Əsədullayevin Moskvada tikdirdiyi neftayırma zavodunda bir müddət çalışmışdır. Moskva mühiti onun ictimai həyatında və gələcək siyasi fəaliyyətində müstəsna rol oynamışdır.

1902-ci ilin sonralarında Bakıya qayıdan Məmmədhəsən Bakı şəhər upravasının tikinti şöbəsinin rəisi təyin olunmuşdur. M.Hacınski ilk gündən bu vəzifədə Bakı şəhərinin baş planının hazırlanıb həyata keçirilməsində, bağ və bağçaların, bulvarın, yolların və meydanların genişləndirilməsində, yeni binaların tikintisində yaxından iştirak etmiş, Bakının ən məşhur abidələrindən biri olan Şirvanşahlar sarayı tarixi abidəsinin qorunması və bərpası, bulvarın genişləndirməsi üçün dəniz sahilinin torpaq tökülüb qurudulması və s. barədə Bakı Duması qarşısında məsələ qaldırmışdır. O, 1902-1917-

ci illərdə Bakı Dumasının üzvü olmuş və onun bir çox iclaslarına sədrlik etmişdir. Bu illər ərzində o, görkəmli ictimai xadim kimi formalaşmışdır.

M.Hacınski Bakının siyasi və ictimai həyatında da yaxından iştirak etmişdir. 1904-cü ilin payızında Bakıda əsasən sosial-demokrat meylli gənclərdən ibarət bir qrup meydana çıxdı. 1904-cü ilin oktyabr ayından etibarən Azərbaycan dilində qeyri-leqal "Hümmət" qəzetini dərc edən, getdikcə formalaşmağa və təşkilatlanmağa başlayan bu gənclər müsəlman əhalisi arasında inqilabi iş aparırdılar. "Hümmət"in yaranması və fəaliyyətində M.Rəsulzadə, M.Əfəndiyev, M.Mövsümov və b. ilə yanaşı M.Hacınski də iştirak etmişdir.

M.Hacınski 1911-ci ildə Bakıda yaradılan Müsavat Partiyasının ilk üzvlərindən biri olmuşdur. Birinci Dünya müharibəsinin gedişində, 1917-ci il fevral inqilabından sonra Rusiyada Romanovlar sülaləsinin devrilməsi ilə ölkədə yeni şərait yarandı. Müstəqillikdən məhrum olmuş Rusiyanın müsəlman xalqlarına yardım etmək və azadlıq uğrunda gizli mübarizə aparan Müsavat Partiyası açıq fəaliyyətə keçdi.

Sosial-demokrat və millətçi partiyaların qurulması və fəaliyyəti Azərbaycan siyasi həyatının zənginliyinin, xalqının geniş dünyagörüşünün göstəricilərindən biri idi. Bu partiyalar Azərbaycan ictimai-siyasi həyatındakı müxtəlif baxışları əks etdirirdi.

1917-1920-ci illər M.Hacınskinin siyasi, ictimai fəaliyyətinin ən qızğın və gərgin dövrü olmuşdur. Bu aşağıdakı faktlarda özünü açıq-aydın göstərirdi: 1917-ci il martın 5-də Bakıda İctimai Təşkilatlar Şurası və onun İcraiyyə Komitəsi yaradıldı. M.Hacınski, İ.Frolov, İ.Heydərov və b. komitənin heyətinə daxil olmuşlar. Martın 29-da Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi təşkil edildi. Komitənin sədri M.Hacınski, müavini isə M.Rəsulzadə seçilmişlər. Komitə 1917-ci il aprelin 15-20-də Bakıda Qafqaz müsəlmanlarının qurultayını keçirdi. M.Hacınski qurultayı təbrik nitqi ilə açaraq demişdir ki, Rusiyada çar mütləqiyyətinin devrilməsi Qafqaz müsəlmanları üçün imkanlar açmışdır, bu ümumi milli, o cümlədən, ümumi dövlət məsələlərində müsəlmanların milli-siyasi məsələsidir, sinfi və sosial məsələ hələ kənara qoyulmalıdır, çünki milli-siyasi məsələ həll edildikdən sonra onlar həll oluna bilər. M.Hacınski mayın 11-17-də Moskvada keçirilmiş Ümumrusiya müsəlmanları qurultayında da fəal iştirak etmişdir.

1917-ci il oktyabrın 26-31-də Bakıda keçirilən Türk Ədəmi Mərkəzi Partiyası - Müsavat Partiyasının I qurultayında Mərkəzi Komitə seçildi. Onun tərkibinə M.Rəsulzadə, N.Usubbəyli, R.Vəkilov, X.Rəfiyev və b. ilə yanaşı M.Hacınski də daxil olmuşlar. Bolşeviklər Müvəqqəti hökuməti devirib, Petroqrada hakimiyyətə gəldilər. Ölkədə üçhakimiyyətlilik yarandı: bolşeviklərin rəhbərlik etdiyi sovetlər; müvəqqəti hökumətin orqanları; milli şuralar. 1917-ci ilin oktyabr-noyabr aylarında Bakı Şəhər Dumasına keçirilən seçkilərdə iştirak edən M.Hacınski Dumaya üzv seçilmişdir. M.Hacınski 1917-ci il noyabrın 15-də yaradılmış Zaqafqaziya (Transqafqaz) Komissarlığının ticarət və sənaye komissarının müavini vəzifəsində çalışmışdır.

Bolşeviklər 1918-ci ilin yanvar ayında Müəssislər Məclisini qovduqdan az sonra, fevralın 23-də Tiflis şəhərində Azərbaycan gürcü və erməni nümayəndələrindən ibarət Zaqafqaziya Seymi işə başladı. Onun işində Azərbaycandan Müsavat Partiyasından və bitərəf demokratik qruplardan 30 nəfər, o cümlədən, M.Hacınski də iştirak etmişdir. Bu partiya və təşkilatlardan əlavə Müsəlman Sosialist Partiyasından 7, İttihad Partiyasından 3, Hümmət Partiyasından 4 nümayəndə var idi. Ümumiyyətlə, Zaqafqaziya Seymində Azərbaycandan 44 deputat var idi. Seymdə Osmanlı dövləti ilə Cənubi Qafqaz arasında sülh danışıqları aparmaq üçün gürcü, erməni və azərbaycanlıları təmsil edən nümayəndə heyəti seçildi. Nümayəndə heyətinin tərkibinə Seymdəki Azərbaycan fraksiyasından M.Hacınski, X.Xasməmmədov, M.Mehdiyev, İ.Heydərov, Ə.Şeyxülislamov daxil edilmişlər. 1918-ci il martın 14-də Trabzonda başlayan danışıqlar aprelin 14-də dayandırdığından və nümayəndələr geri çağrıldığından onun işində fasilə elan olundu. Trabzonda bu xəbəri eşidən M.Hacınski Seymin qərarını sülhü pozmaq kimi qiymətləndirərək, "beynəlxalq münasibətlər tarixində tayı-bərabəri olmayan bir təxribat" adlandırmışdır.

1918-ci il aprelin 22-də Seym səs çoxluğu ilə Zaqafqaziya Demokratik Federativ Respublikası yaradıldığını elan etdi. Aprelin 26-da isə Zaqafqaziyanın yeni hökuməti təşkil olundu. M.Hacınski bu hökumətdə ticarət və sənaye naziri vəzifəsini tutmuşdur.

Seymdəki Azərbaycan nümayəndələrinin gərgin səyləri nəticəsində Osmanlı dövləti ilə Batumda sülh danışıqlarına başlamaq haqqında razılıq əldə edildi və nümayəndə heyəti yaradıldı. Nümayəndə heyətinin tərkibinə 6 nəfər, o cümlədən, M.Hacınski daxil olmuşdur. Mayın 11-də açılan konfransın cəmi bir iclası oldu. Burada M.Rəsulzadə ilə birlikdə M.Hacınski azərbaycanlıların mənafeyini fəal müdafiə etmişdir.

Zaqafqaziya Demokratik Federativ Respublikası həm daxili, həm xarici siyasət məsələlərini, həm də millətlər arasındakı ziddiyyətləri həll edə bilməyərək üç müstəqil dövlətə ayrıldı. 1918-ci il mayın 27-də Seymin azərbaycanlı deputatları fövqəladə iclas çağırıb Azərbaycan Müvəqqəti Milli Şurası yaradıldığını elan etdilər. Onun sədri Batum danışıqlarında iştirak edən M.Rəsulzadə seçildi. Mayın 28-də Milli Şuranın ilk iclasında Azərbaycan Xalq Cümhuriyyəti elan edlidi. Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti-Nazirlər Şurası yaradıldı. Azərbaycanın xarici siyasətinin qarşısında duran başlıca vəzifə dövlət müstəqilliyini tanıtmaq, Ermənistanın əsassız ərazi iddialarının qarşısını almaq və ölkənin ərazi bütövlüyünü qorumaq idi. Batumda olmasına baxmayaraq, M.Hacınski Azərbaycanın ilk xarici işlər naziri vəzifəsinə seçilmişdir. O, bu xəbəri eşidən kimi Osmanlı dövləti Xarici İşlər Nazirliyinə Azərbaycanın müstəqilliyinin Rusiya və Avropa ölkələri tərəfindən tanınmasında vasitəçilik etməsini xahiş etmiş, keçirdiyi danışıqlarla türk diplomatlarından kömək istəmişdir.

1918-ci il iyunun 4-də Batum şəhərində "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi" imzalandı. Azərbaycanın xarici ölkələrdə və bağladığı bu ilk müqaviləni Osmanlı dövləti tərəfindən ədliyyə naziri, Senatın sədri Xəlil bəy və Qafqaz cəbhəsinin Baş komandanı Vehib Paşa, Azərbaycan tərəfindən isə Milli Şuranın sədri M.Rəsulzadə, xarici işlər naziri M.Hacınski imzalamışlar. Müqavilənin dördüncü bəndinə əsaslanan M.Rəsulzadə və M.Hacınski türk hökumətindən bolşevik və daşnaklar tərəfindən soyqırıma məruz qalan, ağır və çətin vəziyyətdə olan Azərbaycan xalqına hərbi yardım üçün müraciət etmişlər. Həmin müraciət əsasında Osmanlı dövləti Azərbaycana kömək etdi. Bu yardımın hüquqi-siyasi, mənəvi və b. əsasları var idi. Hüquqi-siyasi əsas Batum müqaviləsi ilə tənzimlənirdi. Mənəvi əsas isə Osmanlı dövlətinin türklüyün və islamın mərkəzi olması bağlı idi. Azərbaycan hökuməti Tiflisdən müvəqqəti paytaxt olan Gəncəyə köçdü. Qafqaz İslam Ordusunun fəaliyyəti nəticəsində Azərbaycan ərazisi yadelli qüvvələrdən təmizləndi. Bakı azad edildi. Paytaxt şəhərinin azad edilməsi Azərbaycan tarixinin şanlı səhifələrindən biridir. Bundan sonra milli hökumət Gəncədən ölkənin təbii paytaxtı olan Bakıya köçdü.

M.Hacınski 1918-ci ilin may-oktyabr aylarında Azərbaycan Xalq Cümhuriyyəti xarici işlər naziri olduğu dövrdə qonşu ölkələrlə sərhəd, dəmiryolu, Bakı-Batum neft kəmərindən birlikdə istifadə etmək və s. məsələlərin həllində gərgin fəaliyyət göstərmişdir.

Osmanlı dövlətinin müharibədə məğlub olub, Mondros barışığını imzalaması Azərbaycan taleyinə təsir etdi. Barışığın şərtlərinə görə, Osmanlı hərbi hissələri Azərbaycandan çıxarıldı, müttəfiqlər adından noyabrın 17-də ingilis qüvvələri Bakıya gəldi. Bundan sonra Azərbaycan dövləti böyük dövlətlərlə əlaqələr qurmaq üçün fəaliyyətini genişləndirdi.

1918-ci il dekabrın 7-də fəaliyyətə başlayan Azərbaycan parlamentinin üzvləri arasında M.Hacınski də olmuşdur. Azərbaycan parlamentinin dekabrın 28-də keçirilmiş iclasında qalib ölkələrin dövlət başçılarının Paris sülh danışıqlarında iştirak edəcək nümayəndə heyətinin tərkibinə Ə.Topçubaşov (sədr), M.Hacınski (sədr müavini), Ə.Ağayev, C.Hacıbəyli, M.Mehdiyev və b. daxil edildilər. Ə.Topçubaşov İstanbulda olduğu üçün M.Hacınski oraya qədər nümayəndə heyətinə başçılıq etmiş və nümayəndə heyətinin qarşısında duran məsələlərin həllinə çalışmışdır.

M.Hacınski 1919-cu ildə Ə.Topçubaşov ilə birlikdə Paris sülh danışıqları zamanı ABŞ, Böyük Britaniya, Almaniya, İtaliya, Osmanlı dövləti, İran və s. ölkələrin başçıları, dövlət nümayəndələri, diplomatları ilə görüşərək Azərbaycanın azadlığa çıxması uğrunda xalqımızın apardığı mübarizə, ağır iqtisadi vəziyyət, zəngin neft ölkəsi olması haqqında məlumat vermişdir. Məhz onların ardıcıl və gərgin əməyi nəticəsində 1920-ci il yanvarın 11-də Antanta Ali Şurası tərəfindən Azərbaycanın dövlət müstəqilliyinin de-fakto tanınması haqqında qərar qəbul edildi. Bu, Azərbaycan tarixinin ən əlamətdar hadisələrindən biridir.

1919-cu il dekabrın 2-11-də Bakıda keçirilən Türk Demokratik Federalist Müsavat Partiyasının II qurultayında partiyanın siyasi komissiyası və yeni Mərkəzi Komitəsi seçildi. Buraya M.Rəsulzadə, N.Usubbəyli, M.Hacınski, M.Vəkilov və b. seçilmişlər.

1919-cu il dekabrın 14-21-də Bakıda Azərbaycan-erməni konfransı keçirildi. Konfransda Azərbaycandan F.Xoyski, M.Cəfərov və R.Vəkilovla yanaşı M.Hacınski də iştirak etmişdir. O, konfransda çıxış edərək bildirmişdir ki, Azərbaycan və Ermənistan respublikaları arasında dostluq münasibətlərinin yaranmasına əsas maneə mübahisəli ərazi məsələsidir. Qafqaz respublikaları müstəqil dövlət kimi ittifaqda-konfederasiyada birləşsələr, həmin mübahisəli məsələlər öz-özünə həll ediləcəkdir. Lakin daşnak Ermənistanının əsassız ərazi iddiaları və mürəkəb beynəlxalq şərait səbəbindən bu niyyəti həyata keçirmək mümkün olmadı.

1919-cu il dekabr ayının axırlarında ağır siyasi və iqtisadi vəziyyətlə əlaqədar olaraq Azərbaycan hökumətində böhran baş verdiyindən hökumət dəyişikliyi oldu. Dekabrın 24-də N.Usubbəylinin təşkil etdiyi V kabinədə M.Hacınski daxili işlər naziri, fevralın 18-dən isə ticarət, sənaye və ərzaq naziri vəzifəsini daşımışdır. Lakin bu hökumət dəyişikliyi də bir nəticə vermədi. Qarabağda ermənilərin dövlət əleyhinə qaldırdığı qiyam və dinc azərbaycanlı əhalini kütləvi şəkildə qırılması hökumət böhranını daha da dərinləşdirdi. Rusiya tərəfdarı olanlar N.Usubbəyli hökumətini ölkədə qayda-qanunu bərpa edə bilməməkdə günahlandırır və istefa verməsini tələb edirdilər. Belə şəraitdə, 1920-ci il martın 30-da hökumət istefa verdi.

Azərbaycan parlamenti yeni hökumətin təşkilini M.Hacınskiyə tapşırdı. M.Hacınski parlamentdə fəaliyyət göstərən partiya və fraksiyalarla danışıqlar aparmışdır. Hətta kommunistlərlə də görüşərək onlara hökumətdə nazir vəzifələri təklif etmişdir. Bolşeviklər isə belə bir hökumətdə iştirakdan imtina etmişlər. Onlardan müsbət cavab almayan M.Hacınski aprelin 22-də Azərbaycan parlamentinin sədrini əvəz edən M.Cəfərova yeni hökumət təşkil etməkdən əl çəkdiyini bildirmişdir. Parlamentdə siyasi partiyalar arasında ixtilaflar daha da dərinləşmişdir.

1920-ci ilin aprel ayında sovet Rusiyası tərəfindən Şərqin ilk demokratik respublikası Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra M.Hacınski Azərbaycan SSR Ali Xalq Təsərrüfatı Şurasında, Zaqafqaziya Dövlət Plan Komitəsində müxtəlif vəzifələrdə çalışmış, Azərbaycan şəhərlərinin abadlaşdırılması, yeni sənaye şəhərlərinin salınması və tikintisində iştirak etmişdir.

Azərbaycanın digər görkəmli siyasi və ictimai xadimləri kimi M.Hacınskinin də taleyi acınacaqlı olmuş, repressiyaya məruz qalmışdır. 1930-cu il dekabrın 3-də Tiflisdə Zaqafqaziya Dövlət Siyasi İdarəsi (DSİ) tərəfindən həbs edilərək dustaqxanaya salınmışdır. Ona ağır işgəncələr verilmişdir. M.Hacınski əvvəlcə "İctimaiyyətçi" ləqəbli agent ilə 31 №-li kamerada bir yerdə saxlanmışdır. O, hər dəfə müstəntiqin yanından qayıdan M.Hacınski ilə nə haqda danışdıqlarını soruşmuş, sorğu-sualdan sonra özünü necə aparması və əhval-ruhiyyəsi barədə fikirlərini L.Beriyaya çatdırmışdır. L.Beriya 1930-cu il 6 dekabr tarixdə cinayət işinə yazdığı dərkənarda onu "həyəcanlı və zəif inkişaf etmiş adam" kimi xarakterizə etmişdir.

Ağır həbsxana həyatına dözməyərək ürək xəstəliyinə və vərəmə tutulan M.Hacınski rəsmi məlumata görə, 1931-ci il fevralın 9-da səhər saat $8^{00}$-da Tiflisdə DSİ-nin 26 №-li kamerasında 56 yaşında "özünü asaraq" öldürmüşdür.

***

– Адрес-календаръ Азербайджанской Республики на 1920 г. Баку, 1920.

– Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin arxivi. Arx.№ PS 7525. M.Hacınskinin işinə dair istintaq materialları.

– Azərbaycan tarixi. C.2. Bakı,1964.

– Azərbaycan tarixi. C.3. H.1. Bakı,1973.

– Azərbaycan Sovet Ensiklopediyası. X c. Bakı, 1987.

– Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti. 1918-1920. Bakı,1990.

– Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, 1998.

– Азербайджанская Демократическая Республика (1918-1920). Парламент (стенографические отчеты). Баку, 1998.

– Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). Баку, 1998.

– Балаев А. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку, 1990.

– Фатуллаев Ш. Градостроительство и архитектура Азербайджана XIX-нач. XX века. Ленинград, 1986.

– Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı,1993.

– İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər). Bakı,1957.

– “Kaspi” qəzeti, 1917, 18 aprel, № 85.

– Qasımlı M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. 2-ci hissə (1917-ci il noyabr-1918-ci il noyabr). Bakı, 2001.

– Qasımlı M. Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin şəxsi heyəti. Bakı, 2002.

– Qasımlı M. Azərbaycan türklərinin mili mücadele tarihi. 1920-1945. İstanbul, 2006.



– Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər). Bakı, 1990.

– Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.

– Закавказский сейм. Стенографический отчет. I сессия. Тифлис, 1918.

## Əlimərdan bəy Topçubaşov

*6 oktyabr - 26 dekabr 1918*



Azərbaycanın görkəmli siyasi xadim, diplomat və hüquqşünaslarından biri olan Əlimərdan bəy Ələkbər oğlu Topçubaşov 1865-ci il may ayının 4-də Tiflis şəhərində qulluqçu ailəsində dünyaya gəlmişdir. İlk təhsilini I Tiflis gimnaziyasında almışdır. 1884-cü ildə oranı müvəffəqiyyətlə bitirərək Peterburq Universitetinin tarix-filologiya fakültəsinə daxil olmuşdur. Lakin birinci semestrdən sonra hüquq fakültəsinə keçmişdir. 1888-ci ildə oranı müvəffəqiyyətlə bitirərək hüquq elmləri namizədi adını almışdır.

Topçubaşovlar tanınmış və böyük bir nəsil idi. Əlimərdan bəy Topçubaşovun babası Mirzə Cəfər Əlimərdan bəy oğlu Topçubaşov təkcə Rusiyada deyil, onun hüdudlarından kənarda yaxşı tanınmış şərqşünas olmuşdu.

Peterburq Universitetinin hüquq fakültəsinin Elmi Şurası Ə.Topçubaşovun mülki hüquq kafedrasında saxlanması və professor vəzifəsi almaq üçün hazırlaşması haqqında qərar qəbul etmişdir. Lakin 1889-cu ildə qəbul edilmiş universitet haqqında çar qanunu xristian olmayan Ə.Topçubaşova müvafiq vəzifəni tutmağa icazə verməmişdir. Ə.Topçubaşov həmin hadisədən sonra Tiflisə gələrək məhkəmədə vəkil vəzifəsində çalışmış, Tiflis geodeziya məktəbində hüquqdan dərs vermişdir.

1896-cı ildə Bakıya gələn Ə.Topçubaşov vəkilliklə məşğul olmuş və bir sıra mürəkkəb məhkəmə proseslərini udmuşdur. Bu işləri şəhər əhalisi içərisində ona böyük nüfuz və hörmət qazandırmışdır.



Bakıda Ə.Topçubaçov dövrünün görkəmli ziyalıları ilə yaxınlaşmışdır. O, Azərbaycan mili mətbuatının banisi, görkəmli ziyalı Həsən bəy Zərdabinin qizi Pəri xanımla ailə həyatı qurmuşdur.

Böyük xeyriyyəçi və maarifpərvər Hacı Zeynalabdin Tağıyev "Kaspi" mətbəəsini və eyni adlı qəzeti satın alaraq Ə.Topçubaşov və Əhməd bəy Ağayevə həvalə etmişdir. Ə.Topçubaşov 1898-ci ildən 1917-ci ilin axırlarına kimi "Kaspi" qəzetinin yaradıcılarından və redaktorlarından biri olmuşdur. Bu illərdə qəzetdə onun yuzlərlə məqaləsi dərc edilmişdir. Həmin məqalələrdə Ə.Topçubaşov Azərbaycanın bir neçə şair, yazıçı, dramaturq, görkəmli ziyalıları və şəxsləri haqqında elmi əhəmiyyətli, nəzəri, Rusiya imperiyasında yaşayan müsəlmanların vəziyyəti, çarizmin ayrı-seçkilik siyasəti ilə bağlı publisistik məqalələrlə çıxış etmişdir.

Ə.Topçubaşov Azərbaycan ədəbiyyatına və dramaturgiyasına həsr edilmiş məqalələr yazmışdır. O, Azərbaycan mili dramaturgiyasının banisi M.F.Axundov haqqında məqalə, görkəmli Azərbaycan ədəbiyyatşünası Firudin bəy Köçərlinin 1903-cü ildə rus dilində nəşr edilmiş "Azərbaycan ədəbiyyatı" kitabına rəy yazmışdır. Ə.Topçubaşov həmçinin, rus dilində nəşr olunan "Bakinskiy torqovo-promışlennıy listok" qəzetinin də redaktoru olmuşdur.

14165

Ə.Topçubaşov jurnalistliyə başladığı dövrdən Bakının siyasi və ictimai mübarizə səhnəsinə daxil olmuş, ömrünün sonuna kimi bu mübarizənin ön sıralarında getmiş və onun rəhbərlərindən birinə çevrilmişdir.

1905-1907-ci illər rus inqilabı dövründə Azərbaycanın bir çox ziyalısı, o cümlədən Ə.Topçubaşov xalqın azadlıq mübarizəsinə qoşulmuşdur. O, bu dövrdə çar hökumətinə zəhmətkeşlərin mənafeyini müdafiə edən bir sıra petisiyalar yazmış, iclas, yığıncaq, mitinqlərdə çıxış etmiş, Bakı Dumasının üzvü, sonralar sədri olmuş, Rusiyada yaşayan müsəlmanların vahid təşkilatının – "İttifaqi müslümün" yaradılması və fəaliyyətində iştirak etmiş, onun proqram sənədlərini tərtib etmiş, Nijni-Novqorod və Sankt Peterburqda keçirilmiş I-IV qurultaylar demək olar, onun sədrliyi ilə keçmiş, "İttifaqi müslümün"qurultaylar tərəfindən seçilmiş MK-nın daimi bürosu-

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

nun üzvü olmuşdur. İttifaqın mərkəzi Bakı şəhərində yaradılmışdır.

1905-ci ilin sentyabr ayında çarizm Bakı proletariatını inqilabi mübarizədən çəkindirmək məqsədi ilə neft sənayeçiləri ilə fəhlə nümayəndələrinin müşavirəsini keçirməyə icazə verdi. Müşavirəyə nümayəndələr göndərmək üçün seçkilər keçirildi. Seçilən nümayəndələr arasında Ə.Topçubaşov da olmuşdur. Müşavirə sentyabrın 30-da Sankt Peterburqda açılmış və Ə.Topçubaşov müşavirədə Bakı fəhlələrinin acınacaqlı vəziyyəti haqqında məlumat verərək onların mənafeyini müdafiə etmişdir.

Rusiyada zəhmətkeşlərin inqilabi mübarizəsinin getdikcə qüvvətləndiyindən qorxan çarizm 1905-ci ilin dekabr ayında Dövlət Dumasına seçkilər haqqında qanun verdi. 1906-cı ilin mart-aprel aylarında Bakı və Yelizavetpol (indiki Gəncə) quberniyalarında ilk dəfə olaraq Dövlət Dumasına seçkilər keçirildi. Azərbaycandan Birinci Dövlət Dumasına Z.Ziyadxanov, M.Əliyev, Ə.Xasməmmədov və b. yanaşı Ə.Topçubaşov da seçilmişdir.

1906-cı il aprelin 27-dən iyulun 8-nə qədər Sankt Peterburqda Birinci Dövlət Duması fəaliyyət göstərmişdir. Ə.Topçubaşov Dumada müzakirə edilən bir sıra məsələlərin müzakirəsində iştirak etmiş, hökumətin aqrar və köçürmə siyasətini pisləmiş, Rusiyadakı azsaylı xalqlara, əsasən müsəlmanlara muxtariyyət verilməsi tələbinin tərəfdarı olmuşdur. Dövlət Dumasında Rusiyanın müsəlman əyalətlərinin deputatları bilavasitə Ə.Topçubaşovun başçılığı ilə Müsəlman fraksiyası yaratmışlar. O, Xalq Azadlığı Partiyasının sol cinahına mənsub olmuşdur.

Çar hökuməti onun fəaliyyətini tənqid edən inqilabi mövqeli Dumanı 72 gündən sonra qovdu. 200-ə yaxın deputat Dumanın qovulmasına etiraz edərək 1906-cı il iyulun 9-10-da Vıborqda iclas keçirərək "Vıborq müraciətnaməsi"ni qəbul etdilər. Bu müraciətnaməni imzalayanlardan biri də Ə.Topçubaşov olmuşdur.

Ə.Topçubaşov Birinci Dünya müharibəsi illərində Qafqaz cəhbəsində əzab-əziyyətə düçar olmuş azərbaycanlılara yardım göstərilməsində yaxından iştirak etmişdir. O, Bakı milyonçusu Ağabala Quliyev ilə birlikdə Karsda ev-eşiklərini itirmiş azərbaycanlılara baş çəkmiş, onların vəziyyətini öyrənmiş və yardım göstərilməsi barədə məsələ qaldırmışdır. Bu fəaliyyətlərinə görə onlar çarizm xüsusi xidmət orqanları tərəfindən izlənilmiş və müvafiq dosyelər hazırlanmışdır. Bakı quberniya jandarma idarəsinin axtarış üzrə rəisi polkovnik Leontyev və rotmistr Keller 1915-ci il 26 yanvar tarixli 640 №-li tamamilə məxfi məktublarında Qafqaz canişinliyinin mülkü işlər üzrə müavininə yazırdılar: "Agentura məlumatına görə, yanvarın 22-də vəkil Ə.Topçubaşov və yerli tacir Ağabala Quliyev Bakıdan Tiflisə, oradan da Kars vilayətinə getmişlər. Bu şəxslərin səfərində məqsəd Kars vilayətində ermənilərlə müsəlmanlar arasında qırğın hadisəsi haqqında əlahəzrət Qafqaz canişinindən məlumatlar almaq və bu məlumatları yerində yoxlamaqdır. Bununla əlaqədar olaraq müsəlmanlar arasında şayiə gəzir ki, guya tezliklə tatar (Azərbaycan) dilində ermənilərin hərəkətlərinə etiraz bildirən çağırışlar dərc ediləcək və ola bilsin bu münasibətlə bir sıra şəhərlərində küçə nümayişləri təşkil ediləcəkdir. Həmin məlumata görə, çağırışların dərc edilməsi və nümayişlərin təşkili Tiflisə gedən bu iki şəxsin verəcəyi məlumatlardan asılı olacaqdır. Bu məsələnin işıqlandırılması üçün idarə tərəfindən tədbirlər görülmüşdür. Karsın müvəqqəti general-qubernatoruna, Bakı şəhər polis idarəsinə, Bakı qubernatoruna və Dağıstan vilayətinin general-qubernatoruna 642, 646, 648, 650 №-li məktublarda bu barədə məlumat verilmişdir." Jandarma idarəsi Topçubaşovun və Quliyevin fəaliyyətlərini əks etdirən iki arayışı da həmin məktuba əlavə etmişdir.

Ə.Topçubaşov və A.Quliyev səfərdən qayıtdıqdan sonra da izlənilmişlər. Səfər barədə onların təəssüratlarını Bakı quberniya jandarma idarəsi agentura yolu ilə öyrənmişdir. Jandarma idarəsinin axtarış üzrə rəisi Leontyev 1915-ci il 31 yanvar tarixli 816 №-li növbəti məxfi məktubunda yazırdı ki, Topçubaşov və Quliyev Tiflisə səfər etməkdən, Qafqaz canişinindən müsəlmanlar üçün pul ianəsi toplamaq üçün aldıqları icazədən razı qalmışlar, buna görə də yerli müsəlmanlar tərəfindən çağırışlar və nümayişlər gözlənilmir. Axtarış üzrə rəis qeyd edirdi: "Bu predmet sonralar da müşahidə ediləcəkdir. Bu barədə polis departamentinin direktoruna bildiril-

miş, Karsın müvəqqəti general-qubernatoruna, Bakı şəhər polis rəisinə, Bakı qubernatoruna və Dağıstan vilayətinin müvəqqəti general-qubernatoruna 818, 820, 822, 824 və 826 №-li məktublarda məlumat verilmişdir."

Ə.Topçubaşovun və A.Quliyevin izlənilməsi 1916-cı ildə də davam etdirilmişdir. Bakı şəhər rəisi vəzifəsini icra edən Mixaylovski və dəftərxana müdiri Davıdov 1916-cı il 4 may tarixli 2434 №-li təcili və məxfi məktublarında Qafqaz canişinliyinin xüsusi şöbəsinə yazırdılar ki, agentura məlumatına görə, 1911-ci ildə Kazanda müsəlmanların türk donanması üçün topladıqları pullar Bakıya Topçubaşova göndərilmişdir. Agentura məlumatlarında Topçubaşov panislamçıların görkəmli nümayəndələrindən biri kimi təqdim edilmişdir.

Ə.Topçubaşovun siyasi və ictimai fəaliyyəti 1917-ci illər fevral inqilabından və oktyabr çevrilişindən sonra daha da genişlənmişdir. O, Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizəyə var qüvvəsi ilə qatılmışdır. Fevral inqilabından sonra Ə.Topçubaşov heç bir partiyanı təmsil etməmişdir.

1917-ci il martın 5-də Bakıda İctimai Təşkilatların Şurası və onun İcraiyyə Komitəsi yaradılmışdır. M.Hacınski, İ.Frolov, İ.Heydərov və b. ilə yanaşı Ə.Topçubaşov da komitənin tərkibinə daxil olmuşdur. İyul ayında isə komitənin 33 nəfərdən ibarət yeni heyət təşkil olunmuşdur. Ə.Topçubaşov yeni komitənin sədri seçilmişdir.

1917-ci il martın 29-da Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi təşkil edilmişdir. Onun tərkibinə M.Rəsulzadə, M.Hacınski, Ə.Topçubaşov və b. seçilmişdir. Onların gərgin əməyi və fəaliyyəti nəticəsində 1917-ci il aprelin 15-20-də Bakıda Ümumqafqaz müsəlmanlarının qurultayı çağırılmışdır. Qurultay Ə.Topçubaşovun sədrliyi altında keçmişdir. O, sədr kimi ilk çıxışında çar hökumətinin xalqlara qarşı apardığı zidd siyasəti pisləyərək demişdir ki, köhnə rus hökumətinin Rusiyada yaşayan qeyri-rus xalqlara münasibətdə yürütdüyü siyasət parçalamaq və hökm sürmək siyasəti olmuşdur, bu vaxtilə ermənilər və müsəlmanlar arasında özünü göstərmişdir.

1917-ci il avqustun 12-15-də Moskvada Dövlət müşavirəsi çağırılmışdır. Müvəqqəti hökumətin çağırdığı bu müşavirəyə Rusiyanın müxtəlif yerlərindən gəlmiş 34 müsəlman nümayəndə arasında Azərbaycan nümayəndəsi Ə.Topçubaşov da olmuşdur. Avqustun 13-də Moskva müşavirəsinin müsəlman nümayəndələrinin iclası keçirilmişdir. İclasda müşavirədə çıxış edəcək nümayəndənin məruzəsini hazırlayacaq komissiya təşkil edilmişdir. Komissiya məruzəni hazırlamağı və nitq söyləməyi Ə.Topçubaşova tapşırmışdır. Ə.Topçubaşov müşavirədəki nitqində qeyd etmişdir ki, Rusiyada yaşayan müsəlmanlar çarizmin devrilməsini alqışlayır, hər yerdə demokratik əsaslarla yaranmağa başlamış ictimai və siyasi təşkilatları, inqilabi nailiyyətləri – azadlıq, bərabərlik və qardaşlığı qoruyur və möhkəmləndirirlər.

1917-ci il sentyabrın 5-6-da və 12-də Bakı Müsəlman İctimai Təşkilatları Komitəsinin növbəti iclası çağırılmışdır. İclasda komitənin sədri Ə.Topçubaşov, sədrin müavinləri M.Rəsulzadə və F.Xoyski seçilmişlər. Oktyabr-noyabr aylarında isə Ə.Topçubaşov ümumi seçki hüququ əsasında Bakı Şəhər Dumasına keçirilmiş seçkilərdə iştirak etmiş və Dumaya üzv seçilmişdir.

Ə.Topçubaşov 1918-ci il 30 mart-1 apreldə Bakıda bolşevik və daşnakların sovet hakimiyyətini müdafiə bayrağı altında azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğın zamanı onun tezliklə yatırılmasına çalışanlardan, aprelin 1-də A.Caparidzenin başçılıq etdiyi "sülh konfransı"nın iştirakçılarından və İnqilabi Müdafiə Komitəsinin tələblərini qəbul edənlərdən biri olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını böyük sevinclə qarşılayan Ə.Topçubaşov F.Xoyskinin 1918-ci ilin iyun ayında təşkil etdiyi II kabinədə portfelsiz nazir, oktyabr ayında isə xarici işlər naziri vəzifəsinə təyin edilmişdir.

Ə.Topçubaşov AXC yarandığı gündən etibarən bir hüquqşünas alim kimi onun dünya ölkələri tərəfindən tanınması, diplomatik əlaqələrinin yaranması sahəsində var qüvvəsi ilə çalışmışdır. Azərbaycan hökuməti Osmanlı imperiyası və onun vasitəsilə Avropa ölkələri ilə diplomatik əlaqələr yaratmaq məqsədilə Ə.Topçubaşovu

fövqəladə səlahiyyətli nazir kimi İstanbula göndərmişdir. F.Xoyskinin o dövrlərdə İstanbulda olan Azərbaycan nümayəndəliyinin sədri M.Rəsulzadəyə göndərdiyi teleqramda yazırdı: "Hökumətin 1918-ci il 20 avqust qərarı ilə Azərbaycan hökumətinin üzvü Əlimərdan bəy Topçubaşov Osmanlı imperator hökumətinə Azərbaycan Respublikasının mənafeyinə aid bütün məsələlər üzrə fövqəladə səlahiyyətli nazir kimi göndərilir".

1918-ci il avqustun 23-də Gəncədən yola düşən Ə.Topçubaşov Tiflis, Batum marşrutu ilə hərəkət edərək, çox çətinliklərdən sonra sentyabr ayının axırlarında İstanbula çatmışdır.

Ə.Topçubaşov Türkiyəyə gəldikdən sonra qısa müddətdə, yəni, 1918-ci ilin oktyabr-noyabr aylarında Osmanlı sultanı, bir neçə nazir və diplomatla görüşmüş, onlara Azərbaycanın siyasi və iqtisadi vəziyyəti haqqında məlumatlar vermiş, müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparmışdır. Mondros müqaviləsinin Azərbaycana aid hissəsi ilə əlaqədar olaraq Türkiyə Xarici İşlər Nazirliyinə etiraz notası vermişdir. O, deyirdi ki, müqavilə "Azərbaycanın işğalını asanlaşdırır və bu, ölkəni təhlükə qarşısında qoyur... Azərbaycan Respublikasına məxsus olan dəmiryollarının xarici dövlətə güzəştə gedilməsi beynəlxalq hüquqla bir araya sığmır".

1918-ci il dekabrın 7-də ölkədə yaranmış çox ağır siyasi şəraitdə Azərbaycan parlamenti fəaliyyətə başlamışdır. Milli Şuranın və Müsavat Partiyasının sədri M.Rəsulzadə parlamentin iclasını açaraq bu münasibətlə onun üzvlərini təbrik etmiş, onları xalqın mənafeyinin və əmin-amanlığının müdafiəçisi olmağa çağırmışdır. Eyni zamanda M.Rəsulzadə parlamentin sədrinin və müavinin seçilməsini təklif etmişdir. İstanbulda olmasına baxmayaraq, Azərbaycanda, o cümlədən, bütün Qafqazda məşhur olan və hörmət qazanmış Ə.Topçubaşov yekdilliklə Azərbaycanın ilk parlamentinin sədri seçilmişdir. ABŞ tarixçisi F.Kazımzadənin yazdığı kimi: "Parlamentin prezidenti seçilən Ə.Topçubaşov yüksək təhsilli hüquqşünas, öz görüşlərində dözümlü idi". Dekabrın 28-də isə parlament Paris sülh konfransına gedəcək nümayəndə heyətinin tərkibini seçmişdir. Bu tərkibə Ə.Topçubaşov (sədr), M.Hacınski (sədr müavini), Ə.Şeyxülislamov, Ə.Ağayev, M.Məhərrəmov, C.Hacıbəyli və M.Mehdiyev daxil edilmişlər.

1919-ci il yanvarın 20-də Paris sülh konfransında iştirak edəcək Azərbaycan nümayəndə heyəti İstanbula gəlmişdir. Lakin Fransa hökuməti onların Parisə gəlməsinə viza verməmişdir. İstanbulda olduğu müddətdə Ə.Topçubaşov Türkiyə, İran, Rusiya, ABŞ, Böyük Britaniya, Fransa diplomatları və nümayəndələri ilə görüşlər keçirmiş, onlara Azərbaycanın siyasi və iqtisadi vəziyyəti haqqında məlumat vermiş, Azərbaycanın bir müstəqil dövlət kimi öz ölkələri tərəfindən tanınmasına köməklik göstərmələrini xahiş etmişdir.

Parisə təkcə Azərbaycan nümayəndələri deyil, Don, Kuban, Dağlılar İttifaqının, Ukrayna və Gürcüstan nümayəndələrinin bir hissəsi də buraxılmamışdı. Onlar da İstanbulda idilər. Bu ölkələrin nümayəndələri Parisə viza almaq üçün birlikdə səylərə başladılar. Ə.Topçubaşovun başçılığı ilə bir memorandum hazırlanmış və nümayəndələr onu imzalayaraq İstanbulda olan Böyük Britaniya ali komissarı admiral Vebbə təqdim etmişlər.

Gərgin səylərdən üç ay sonra, yəni, 1919-cu il aprelin 22-də Azərbaycan nümayəndə heyəti Ə.Topçubaşovun rəhbərliyi ilə Parisə yola düşmüşdür. ABŞ hökuməti Azərbaycan nümayəndə heyətinin Parisə gəlməsi üçün maliyyə vəsaiti vermişdir. May ayının əvvəllərində Parisə gələn Azərbaycan nümayəndələri bir ay ərzində Polşa, Gürcüstan, İran, ABŞ, İngiltərə və s. ölkələrin nümayəndə heyətləri ilə görüşmüş və siyasi-iqtisadi vəziyyətə dair söhbətlər aparmışlar.

Bu bir ay ərzində Ə.Topçubaşovun başçılığı ilə Azərbaycan nümayəndələrinin ən başlıca müvəffəqiyyətlərindən biri dövrünün görkəmli siyasi xadimi ABŞ Prezidenti V.Vilsonla görüşü olmuşdür. Azərbaycanın müstəqilliyinin birinci ildönümü günü – 1919-cu il mayın 28-də ABŞ Prezidenti V.Vilson Ə.Topçubaşovun rəhbərliyi ilə Azərbaycan nümayəndələrini qəbul etmişdir. Ə.Topçubaşov ABŞ Prezidentinə Azərbaycanın, o cümlədən, Qafqazın siyasi-iqtisadi vəziyyəti, azərbaycanlılar haqqında ətraflı məlumat, Paris sülh konfransına təqdim ediləcək memorandumu vermişdir. Görüşdə

Azərbaycan nümayəndələri istəklərinə nail olmasalar da, V.Vilson onları əmin etmişdir: "...bundan sonra Azərbaycan xalqı öz azadlıq və müstəqilliyini qoruyub saxlamaq... işində böyük Amerikanın köməyini və yardımını alacaqdır".

Ə.Topçubaşovun bilavasitə iştirakı ilə hazırlanmış "Qafqaz Azərbaycanı Respublikasının nümayəndələrinin Paris sülh memorandumu" sülh konfransının katibliyinə təqdim edilmişdir. 14 bölmədən ibarət olan sənəddə konfrans nümayəndələrinə Azərbaycanın tarixi-etnoqrafik, iqtisadi və siyasi vəziyyəti haqqında geniş və ətraflı məlumat verilirdi.

Azərbaycan nümayəndə heyəti Ə.Topçubaşovun rəhbərliyi ilə öz fəaliyyətini gündən-günə genişləndirərək Gürcüstan, Latviya, Estoniya, Şimali Qafqaz, Belarusiya, Ukrayna nümayəndələri ilə birlikdə 1919-cu il iyunun 13-də, iyulun 7-də, oktyabrın 8-də Paris sülh konfransı sədrinə etiraz notası, bəyannamə və məktub göndərmişdir.

1920-ci il yanvarın 15-də Azərbaycan nümayəndələrindən Ə.Topçubaşov və M.Məhərrəmov, Gürcüstan nümayəndələrindən İ.Sereteli və Z.Avalov Fransa Xarici İşlər Nazirliyinə dəvət edilmişlər. Nazirliyin birinci katibi Jül Kambon Azərbaycanın və Gürcüstanın yanvarın 11-də Antanta Ali Şurasının üzvləri və müttəfiq dövlətlər tərəfindən de-fakto tanındığını bildirmiş və Ə.Topçubaşova Paris sülh konfransının rəsmi sənədini vermişdir. Ə.Topçubaşov Azərbaycanın siyasi vəziyyəti haqqında qısa məlumat verərək, böyük dövlətlər tərəfindən tanınma üçün təşəkkürünü bildirmiş və vurğulamışdır ki, Azərbaycan Respublikası böyük dövlətlər tərəfindən həm kömək, həm də müstəqilliyinin de yure tanınmasını gözləyir.

Azərbaycan Respublikasının dünyanın böyük dövlətləri tərəfindən tanınması Ə.Topçubaşovun başçılığı ilə Azərbaycan nümayəndələrinin uğurlu diplomatik fəaliyyətinin nəticəsi idi. Çətin və gərgin əməyin nəticəsində əldə edilmiş uğur münasibətilə Ə.Topçubaşov Parisdən Azərbaycan Respublikasının baş naziri N.Usubbəyliyə yazırdı: "Siyasət qədər çox elastik və dəyişkən heç nə yoxdur... bizim də azad və müstəqil yaşamaq ümidlərimizin möhkəmləndiyi bir dövr başlanır. Biz heç vaxt ümidimizi itirmirdik... Ona görə də belə hərəkət edirdik ki, xalqımızın müstəqil yaşaya biləcəyinə, hər hansı yolla olursa-olsun müstəqillik əldə edəcəyimizə inanırdıq...

Belə dəyərli xoşbəxtliyin qarşısında biz heç vaxt geri çəkilməmişik və çəkilməyəcəyik də, çünki biz bu səadətə bərabər olan heç nə tanımırıq".

Bolşevik Rusiyası Azərbaycanı işğal etdikdən və dövlət müstəqilliyinə son qoyulduqdan sonra Ə.Topçubaşov 1920-1934-cü illərdə Parisdə yaşamış, ictimai-siyasi fəaliyyətini davam etdirmiş, Azərbaycanın tarixi, coğrafiyası, ədəbiyyatı, AXC-nin yaranması, ədəbi xadimlər haqqında kitab, qəzet və jurnallarda məqalələr yazmışdır. Ə.Topçubaşov siyasi mühacirətlə sıx əlaqə saxlamışdır. Mühacirətin Paris və İstanbul qanadları arasında müəyyən ixtilaflar olmuşdur.

Fransa hökuməti Ə.Topçubaşov başda olmaqla Parisdə qalmağa məcbur olan heyətə hər ay müəyyən edilmiş miqdarda pul vəsaiti vermişdir. O isə İstanbulda yaşayan Azərbaycan siyasi mühacirətinin rəhbərlərinə 20-ci illərin əvvəllərində 10 ay ərzində 600 min frank pul vermişdir.

Siyasi mühacirətin görkəmli xadimlərindən biri kimi Ə.Topçubaşov Fransa rəsmi dairələrinin nümayəndələri ilə görüşərək, Azərbaycanın işğalına son qoyulması uğrunda mübarizədə milli qüvvələrə yardım edilməsi məsələsini qaldırmış, ikitərəfli əlaqələrə dair problemləri müzakirə etmişdir.

O, həmçinin, 20-ci illərin əvvəllərində keçirilən beynəlxalq konfranslarda iştirak edərək Azərbaycanın haqq işinin dünyaya çatdırılması üçün səylər etmişdir. 1920-ci il iyulun 5-16-da Spa (Belçika) konfransında iştirak edən Ə.Topçubaşov iki sənəd təqdim etmişdir: Azərbaycanın bolşevikər tərəfindən işğal edilməsi haqqında; 1921-ci ildə keçiriləcək London konfransında Azərbaycan nümayəndə heyətinin iştirakına icazə verilməsinə dair. Birinci sənəddə aprel işğalının səbəb və nəticələri göstərilir, iştirakçı dövlətlərdən onun pislənilməsi xahiş edilirdi. Lakin müharibə başa çatdıqdan sonra başları özlərinin daxili və beynəlxalq problemlərinə qarışan Avropa dövlətləri birinci təklifə soyuq yanaşmışlar. Bununla belə, London konfransında Azərbaycanın iştirakı məsələsinə razılıq verilmişdir.

Ə.Topçubaşov 1920-ci il noyabrın 1-də Azərbaycanın Millətlər Cəmiyyətinə üzv qəbul edilməsi üçün müraciət etmişdir. Parisdə dərc edilən "Tan" qəzetinin Cenevrədən verdiyi məlumatda deyilirdi: "Xalqların hüquqları üzrə beynəlxalq konqress Cenevrədə Azərbaycan numayəndələrinin Millətlər Cəmiyyətinin tərkibinə Azərbaycan Respublikasının qəbul edilməsi haqqında məlumatını dinləmişdir. Konqres yekdil qərar qəbul etmişdir. O, Millətlər Cəmiyyətinin qərarını bəyənmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının Azərbaycan xalqının iradəsinin ifadəsi olduğu qeyd edilmişdir. O, müsəlman xalqlarının ilk respublikasıdır. Azərbaycanın coğrafi vəziyyəti onu daha önəmli edir. Məhz onun vasitəsi ilə Qərb mədəniyyətinin toxumlarını müsəlman xalqları arasında yaymaq, Qafqazda sülhü və həmrəyliyi təsdiq etmək olar.

Bütün bunları əsas götürərək Xalqların hüquqları üzrə beynəlxalq konqres Azərbaycanın Millətlər Cəmiyyətinin tərkibinə qəbul edilməsini öz tərəfindən müdafiə edir. Lakin eyni zamanda beynəlxalq konqres Azərbaycanın rus sovet hakimiyyəti tərəfindən işğal edildiyini də nəzərə çatdırır. Soyulmuş və aclıq həddinə çatdırılmış bütün xalq ona etiraz edir, Azərbaycanı xarici müdaxilələrdən azad etmək, aclıq və epidemiya ilə mübarizədə Azərbaycana yardım göstərmək üçün tədbirlər görmək məqsədilə Millətlər Cəmiyyətinə müraciət edir".

Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal edilməsinə böyük dövlətlərin daxil olduğu Millətlər Cəmiyyəti mənfi münasibətini bildirmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyəti Millətlər Cəmiyyətinə 1920-ci il noyabrın 1-də 669 №-li məktubla müraciət edərək, Azərbaycanın işğalına etiraz bildirməyi və onun müstəqilliyini müdafiə etməyi xahiş etmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin Millətlər Cəmiyyətinə üzv qəbul olunması ilə əlaqədar müraciəti və ona dair baş katib tərəfindən noyabrın 24-də 204868 №-li memorandum qəbul edilmişdir. Memorandumda deyilirdi: "Azərbaycan tərəfindən verilən 1920-ci il 1 noyabr tarixli 669 №-li məktubda Millətlər Cəmiyyətinin baş katibindən xahiş olunmuşdur ki, Millətlər Cəmiyyətinə daxil olmaqla əlaqədar olaraq Azərbaycanın müraciətini təqdim etsin. Bu məktub Paris sülh konfransında iştirak edən və Paris ofisində bir ildən artıq qalan Azərbaycan nümayəndə heyəti tərəfindən təqdim olunmuşdur. Nümayəndə heyətinin üzvləri hal-hazırda Cenevrədədirlər və onların mandatı Bakıda aprel ayının sonunadək hakimiyyətdə olan qüvvələr tərəfindən təsdiqlənmişidr. Bu hökumətin qurulmasına aid olan məlumatlar barəsində qısa xülasə qaneedici sayıla bilər.

Azərbaycan dövlətinin qurulması.

Hal-hazırda Azərbaycan Respublikası sayılan ərazi, əvvəl Transqafqaz ərazisinin tərkibində iki Rusiya əyaləti sayılan Bakı və Yelizavetpol ərazilərindən ibarətdir. Şərq tərəfindən Azərbaycan sərhədlərini Xəzər dənizi əhatə edir. Şimal sərhədi Dağıstan adlı əyalətdən keçir, şimal-şərqdə Şimali Qafqaz, qərbdə isə Gürcüstan və Ermənistan, cənubda İranla həmsərhəddir. Rusiya tərəfindən verilən son statistik məlumatlara əsasən, əhalinin sayı 4.616.000 nəfərə qədərdir: onlardan 3,482,000 nəfəri müsəlman-azərbaycanlılar, 795.000 nəfəri ermənilər, 26.580 nəfəri gürcülər və müxtəlif azlıqlar-ruslar, almanlar və yəhudilərdir.

Maraqlısı odur ki, bu ərazidə əvvəllər birləşmiş, ümumi müstəqil dövlət olmamışdır və bu zaman iri olan qruplar, monqollar, iranlılar və 1813-cü ildən Rusiya imperiyası tərkibində olmuşdur. Yeni yaranan respublikaya verilən Azərbaycan adı isə eyni zamanda qonşu İran əyalətinin birinin adıdır.

Birinci federasiya dövrü.

1917-ci il oktyabr ayında bütün Qafqazda Rusiya imperiyasının süqutu nəticəsində, bu regionun xalqları, azərbaycanlılar, gürcülər və ermənilər federasiya formalı respublikada birləşib öz təmsilçilərindən ibarət olan Federal Məclis quraraq ümumi bir hökumət yaratdılar.

1918-ci il 26 may tarixində Məclisin fəaliyyət göstərdiyi şəhər olan Tiflisdə ciddi fikir ayrılıqları nəticəsində Transqafqaz Federasiyası dağıldı.

İkinci müstəqil respublika.

28 may 1918-ci ildə Azərbaycan Respublikası öz müstəqilliyini elan etdi. Respublika hökumətinin başçısı Fətəli xan Xoyski təyin edildi. Və bu zaman razılıq oldu ki, keçmiş Federal Məclisinin müsəlman olan üzvləri Müsəlman Şurasının üzvləri ilə birlikdə, birgə müvəqqəti Məclis yaratsınlar. Bununla, yeni respublika hökuməti öz tərkibini müəyyən edərək, Tiflisdən Azərbaycana köçdü. Lakin buna baxmayaraq, paytaxt Bakıda yerləşə bilmədi. Bu, ancaq 1918-ci il sentyabrın 14-də bolşeviklər şəhəri tərk edəndən və alman-türk qüvvələri qarşısında geri çəkiləndən sonra mümkün oldu. Son olaraq, Məclisin 120 üzvü ümumi seçkilərdə seçildi və İcra hakimiyyəti, Bakı şəhəri müvafiq nazirlərə həvalə olndu.

1918-ci il noyabrın 17-də Britaniya qoşunlarının başçısı, Antantanı təmsil edən general Tomson Bakıya daxil oldu. Öz gəlişi ilə o, göstərdi ki, hakimiyyətdə olan qüvvələr yalnız şəhər daxilində olan lokal qüvvələrdir və formal olaraq bəyan etdi ki, onun bu ərazini işğal etməsi yeni Rusiya hökuməti ilə əvvəlcədən razılaşdırılmışdır və bu, Rusiyanın regiondakı marağına xələl gətirmir.

1918-ci il dekabrın 28-də isə general Tomson bəyan etdi ki, Azərbaycan Respublikası hökuməti bundan sonra öz yerli hakimiyyət orqanlarını qurmaq iqtidarındadır və Antanta buna öz köməyini və zəmanətini verir. Paris sülh konfransında Azərbaycan Respublikası hökuməti də təmsil olunmuşdur. 1920-ci il yanvarın 11-də Gürcüstan və Ermənistanla birlikdə Ali Şura tərəfindən de-fakto olaraq tanınmışdır. Qeyd etmək lazımdır ki, ABŞ bu tanınmanı döstəkləmədi.

Üçüncü dövr. Hökumətin buraxılması.

1920-ci il aprelin 27-də bolşeviklər asayışı pozaraq Bakıya daxil oldular. Azərbaycan Respublikası hökuməti Bakını tərk etməyə məcbur oldu. Hökumətin bir neçə üzvü, üsyançı inqilabçıların əlinə düşərək ölümə məhkum edildilər. Respublika ordusu buraxıldı. Cenevrədə yerləşən Azərbaycan nümayəndə heyətinin verdiyi məlumata görə, respublikada olan dəmiryolları, yalnız Yelizavetpolda və Gürcüstanla sərhəddə olanlardan başqa, hamısı bolşeviklərin əlinə keçdi. Ancaq buna baxmayaraq, ərazinin hamısı işğal altında deyildir və müəyyən hissə hələ də Azərbaycan Respublikası hökuməti nəzarəti altındadır. Bununla belə, deyilənə görə, hökumətin bəzi şöbələri Yelizavetpola, bəziləri isə Tiflisə köçmüşdür. Ordu iki hissəyə bölünmüşdür. Bir hissəsi ölkənin şimalında, digər hissəsi isə cənubda yerləşmişdir.

Gürcüstanla əlaqələr olsa da, Ermənistan və İran ilə əlaqə Xəzərin işğalı və bolşeviklərin təcavüzü nəticəsində kəsilmişdir.

Bu müddət ərzində Azərbaycan bütün ehtiyatlarından məhrum olmuşdur. Bunların arasında neft, Xəzərin balıq ehtiyatları və tranzit ticarəti mühüm yer tutur.

Respublika administrasiyası çox təhlükəli şəraitdə fəaliyyət göstərirdi. Onun icraedici və nəzarətedici orqanları böyük çətinliklə parçalanmış mərkəzi hökumətlə əlaqə saxlayırdı.

Hüquqi tərəflər.

Millətlər Cəmiyyətinə yeni üzvlərin qəbulu müqavilənin birinci maddəsində göstərilmişdir və aşağıdakılara uyğun olmalıdır.

Birliyin əsl üzvləri, adları müqavilənin "İlhaq" olan hissəsində çəkilən ölkələrdir ki, onlar da bu müqavilənin şərtlərini qeydşərtsiz qəbul edirlər. Bu qəbul katibin bəyannaməsi ilə təsdiqlənir və müqaviləyə görə, iki ay ərzində qüvvəyə minir. Eyni zamanda bu qəbul haqqında məlumat cəmiyyətin bütün üzvlərinə göndərilir".

Hər bir özünü idarə edən dövlət müqavilənin "İlhaq" hissəsində adları olmayan dominion və ya müstəmləkə cəmiyyətin üzvü ola bilər, bu şərtlə ki, onun qəbul olunmasına razılığa assambleyanın 2/3 hissəsi səs versin. Və bundan əlavə həmin üzv beynəlxalq öhdəliklərini səmimiyyətlə öz üzərinə götürməli və onlara riayət etməsinə öz təminatını verməlidir. Cəmiyyət tərəfindən öz dövlətinin hərbi, hava və donanma qüvvələrinə nəzarət etməsinə razılıq verməlidir.

Cəmiyyətin hər bir üzvü iki il bitdikdən sonra öz üzvlüyünü geri götürə bilər. O şərtlə ki, onun cəmiyyət tərkibində olan fəaliyyəti beynəlxalq şərtlərə və öhdəliklərə tam uyğun olsun.

Azərbaycan sülh nümayəndə heyətinin Millətlər Cəmiyyətinə üzv olmağa dair müraciəti, hüquqi cəhətdən gündəmə iki sual doğurdu. Bunlar da Azərbaycanın bəyanatında öz əksini tapdı.

Azərbaycan ərazisi Rusiya imperiyasının bir hissəsi olmuşdur. Bu zaman sual yaranır: həqiqətənmi, respublikanın 28 may müstəqillik bəyannaməsi və 1920-ci il yanvar ayında Antanta tərəfindən tanınan bu sənədlər, Millətlər Cəmiyyətinin birinci maddəsinə əsasən Azərbaycanı özünü idarə edən bir dövlət kimi tanımağa kifayət edir? Və qeyd etmək gərəkdir ki, yalnız Britaniya, Fransa, İtaliya və Yaponiya tərəfindən Azərbaycan de-fakto olaraq tanınmışdır, halbuki, ABŞ bu tanınmanı dəstəkləməmişdir.

Memorandum.

Millətlər Cəmiyyətinin Assambeyası Azərbaycanın beynəlxalq statusu kifayət qədər "özünü idarə edən bir dövlət" kimi saya bilərmi və həqiqətənmi, Azərbaycandan müraciət edən tərəf öz dövlətinin hökumətinin təmsil edir. Buna səlahiyyətləri varmı, Millətlər Cəmiyyəti təyin edilən üzvlük öhdəliklərinə və təminatlarına zəmanət verə bilcəkmi?"

1921-ci il fevralın 21-dən martın 14-ə kimi keçirilən London (Böyük Britaniya) konfransında Ə.Topçubaşov iştirak etmişdir.

Ə.Topçubaşovun da daxil olduğu Azərbaycan, Gürcüstan, Ermənistan və Dağlılar Respublikası nümayəndələri Parisdə 1921-ci il 10 iyun tarixdə Qafqaz Konfederasiyası haqqında bir bəyannamə imzalamışlar. Bəyannamədəki niyyətin baş tutması üçün Ə.Topçubaşov başda olmaqla mühacirətin Fransa rəsmi dairələrinə etdiyi müraciət diqqətsiz qalmamışdır. Dörd Qafqaz respublikası nümayəndələrinin fransız hökumətinə müraciətinə cavab olaraq baş nazir A. Brian Fransanın azad edilmiş rayonlarının bərpası üzrə nazir Luşerə aşağıdakı məzmunda məktub yazmışdır: "Cənab nazir, Siz mənə Ermənistan, Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələri ilə birlikdə 11 avqust tarixli səmimi məktub göndərmisiniz. Siz mənə dörd Qafqaz respublikasının Fransanın maliyyə köməyindən istifadə etməsi mümkünlüyünün şərtləri barədə məlumat vermisiniz.

Bu məlumatı aldığım barədə Sizə xəbər verərək nəzərinizə çatdırmağı özümə şərəf bilirəm ki, Respublika hökuməti böyük rəğbətlə bu dörd hökumətin Qafqazda iqtisadi şəraiti düzəltmək üçün etdikləri səyləri izləyəcəkdir.



Lakin yaxşı olardı ki, Siz şəxsən fransız maliyyə dairələri ilə əlaqə saxlayasınız, fikrimizcə, onlar sizə lazımi köməyi edə bilərlər. Bundan sonra, Siz banklarla və xüsusi sənaye müəssisələri ilə təqdim etdiyiniz ölkələrin istismarı planını işləyib hazırladıqdan sonra mən sizə bu müəssisələrlə sazişi yüngüləşdirmək üçün bütün arzuedilən köməkliyi etməyə çalışıram.

Səmimi arzularımı qəbul edin. İmza, Brian"

Bundan sonra, 1921-ci il noyabrın 7-də Azərbaycan, Ermənistan, Gürcüstan və Şimali Qafqaz respublikalarının nümayəndələri Luşerlə görüşmüşlər. Luşer onları salamlayaraq Nazirlər Şurasının sədri Aristid Brianın ona dörd Qafqaz respublikası nümayəndələrinin fransız hökumətinə etdikləri müraciətlə məşğul olmağı tapşırdığını bildirdi. Bu müraciətdə siyasi istəklər, iqtisadi maliyyə ehtiyacları və Nazirlər Şurasına təqdim etmək üçün qeydlər əsasında məruzə hazırlamaq təklifi var idi. Luşer bildirdi ki, Qafqaz respublikalarında sosialistlər hakimiyyətdə olduqları üçün kömək etmək mümkünsüzdür. O, məsələləri iki kateqoriyaya-iqtisadi və maliyyəyə böldü. Bunlardan biri bolşeviklərin gələcəkdə devrilməsinədək, digəri isə devrildikdən sonraya aid idi. Respublikalarda bolşeviklər hakimiyyətdə olduqlarından yolları inkişaf etdirmək və təbii sərvətlərdən istifadə etmək mümkün deyildi. Luşer qarşıda üç qrup məsələnin durduğunu qeyd etdi: 1.Qafqazın dörd respublikasının nümayəndələri qanuni və xalq istəyinə cavab verən hakimiyyəti qurmaq üçün Fransadan silah, pul və sursat sarıdan hansı yardımı istəyirlər. 2. Bu respublikalar bolşeviklərdən azad edildikdən sonraki ilk vaxtlarda Fransa Qafqaz respublikalarının mədəni-sənaye cəhətdən dirçəlişinə, xüsusən, yollar, emissiya bankı, dörd respublika üçün vahid pul sistemi, neft kəməri və təbii sərvətləri tezliklə istismar etmək sahəsində hansı yardımları edə bilər. Fransa başlıca olaraq material, maşın, silah, müəyyən qədər pul, guman ki, 1 milyon frankdan çox olmamaqla yardım göstərə bilərdi. 3. Fransanın köməyi müqabilində Qafqaz respublikaları hansı valyutanı, xammalı, materialı, bütövlükdə ərzağı kompensasiya olaraq verə bilərdilər.

Luşer bildirdi ki, Brianın ona tapşırdığı məruzəni hazırlamaq üçün dəqiq rəqəmlər və məbləğ göstərilməlidir. Həm də qeyd etdi ki, o bu işi azad olunmuş rayonlar naziri kimi deyil, Nazirlər Şurasının sədrinin xüsusi xahişinə əsasən görür.

Qafqaz nümayədələri bu görüşdə dəqiq rəqəm və məbləğ göstərə bilməyəcəklərini, mütəxxəssislər və ekspertlərlə məsləhətləşmənin vacibliyini söylədilər.

Luşer isə bu məqsədlə artıq fransız mütəxəssislərinin təyin olunduğunu bildirdi. Həmin mütəxəssislər dörd sahəni – hərbi, maliyyə-iqtisadi, neft işi və yolları əhatə edirdi. Luşer Qafqaz nümayəndələrinə təqdim etməyi və Qafqaz ekspertlərinin siyahısını verməyi xahiş etdi. Bildirdi ki, Qafqaz xalqlarına yardım məsələsində Fransa İngiltərə ilə birgə işələməlidir. O bu məsələdə ingilis-fransız əməkdaşlığının vacibliyini söylədi.

Luşer dəqiq rəqəmlərin təqdim edilməsinin zəruriliyini təkrar edərək ümumi planın olduğunu, işə başlamağın, sənədlər hazır olduqdan sonra isə görüşməyin vacibliyini söylədi. Eyni zamanda o, dörd respublika nümayəndələri ilə fransız hökuməti arasında əlaqələrin saxlanmasına məsul olan şəxsi-polkovnik Mujeni təqdim etdi.

Bundan sonra onlar 1921-ci il noyabrın 9-da Qafqaz nümayəndələri şurasının iclasını keçirmək üçün erməni nümayəndə heyətinin iqamətgahına toplaşdılar. İclasda Azərbaycandan Topçubaşov, Ermənistandan Xatisyan, Papazyan, Gürcüstandan Çxenkeli, Avalov, Kandalaki, Şimali Qafqazdan Çermoyev iştirak edirdilər. Birinci məsələ üzrə Xatisyan noyabrın 7-də Luşerlə görüşləri barədə məlumat verdi. Hesabat Şura tərəfindən bəzi düzəlişlərlə qəbul edildi. İkinci məsələ üzrə ümumi məruzə hazırlamaq məqsədi ilə materialları toplamaq üçün mütəxəssislərin dörd komissiyasını yaratmaq qərara alındı. Komissiyaların ümumi işinə rəhbərlik Gürcüstanın keçmiş naziri Kandalakiyə tapşırıldı. Şura komissiyaların tərkibini aşağıdakı kimi müəyyənləşdirdi: hərbi komissiyaya Azərbaycandan Ağabəyov, Ermənistandan general Korqanov, Gürcüstandan Q.Mdivani, Şimali Qafqazdan general Xaqanlokov; maliyyə-iqtisadi komissiyaya Azərbaycandan Məhərrəmov, Ermənistandan Bərbəryan,



Gürcüstandan Eliqulaşvili, Şimali Qafqazdan Cabaçı; neft sənayesi üzrə komissiyaya Azərbaycandan Səlimxanov, Ermənistandan Bekzadyan, Gürcüstandan Eliqulaşvili, Şimali Qafqazdan Cabaçi; yollar üzrə komissiyaya Azərbaycandan Vəkilov, Ermənistandan Ter-Mikaelyan; Gürcüstandan Zubalov, Şimali Qafqazdan İ.B.Heydər daxil edildilər.

Şura Luşerin qaldırdığı üç məsələdən irəli gələn suallara dair ilkin iş planını işləyib hazırlamağı Kandalakiyə tapşırdı. Bu məqsədlə Kandalakinin sədrliyi altında aşağıdakı şəxslərdən ibarət komissiya yaradıldı: Məhərrəmov, Bərbəryan, Cabaçi. Kandalakidən, həmçinin, məruzənin sürətli hazırlamaq xahiş edildi.

Bundan sonra komissiya sənədləri hazırlayaraq Luşerə təqdim etdi. Luşer də öz növbəsində onları hökumətinə verdi.

Həmin sənədlərin təqdim edilməsindən sonra sovet agentura məlumatında deyilirdi ki, Ə.Topçubaşov 30 desyatin Bakı neft sahəsini 1 milyon franka xarici şirkətlərdən birinə satmış, bunun üçün 100.000 frank artıq almışdır. Onun Luşerlə görüşünün nəticəsində Azərbaycan sənayeçiləri təşkilatını yaratmağa hazırlaşmaq məsləhət görüldü.

Dörd Qafqaz respublikası nümayəndələri şurasının iclası 1922-ci il yanvarın 19-da Parisdəki gürcü missiyasının qərargahında oldu. İclasda Azərbaycandan Topçubaşov, Ermənistandan Aqaronyan və Xatisyan, Şimali Qafqazdan Çermoyev, Gürcüstandan Çxenkeli və Gegeçkori iştirak edirdilər.

İclasın gündəliyində aşağıdakı məsələlər dururdu: Kann konfransına dair məlumat; Genuya konfransına münasibətdə ittifaqın mövqeyi; Qafqazla bağlı Şərq məsələsi;

Birinci məsələ barəsində Gegeçkori çıxış edərək Kannda keçirilən konfrans barədə məlumat verdi.

Şura digər iki məsələni müzakirə edərək belə bir qərara gəldi ki, Genuya konfransında Qafqaz respublikalarının iştirakına nail olmaq üçün lazım olan hər şeyi, ayrı-ayrı şəxslərə və qruplara, o cümlədən, mətbuatın yardımına müraciət etmək lazımdır.

Topçubaşov və Çermoyev növbəti iclasda informasiya işi layihəsinin müzakirəsini təklif etdilər. Şura onlara Qafqazla maraqlanan iri neft sənayeçiləri və senator Reynal, eyni zamanda yeni baş nazir R.Puankare və Xarici İşlər Nazirliyində müxtəlif şəxslərlə, məsələn, Peretti Dela Roka və b. ilə görüşüb, Qafqaz məsələsi ilə bağlı vəziyyətin nə yerdə olduğunu öyrənməyi tapşırdı.

1922-ci il fevralın 9-da erməni nümayəndə heyətinin qərargahında dörd respublika nümayəndələri şurasının növbəti iclası keçirildi. İclasda Azərbaycandan Topçubaşov, Şeyxülislamov, Ermənistandan Aqaronyan, Xatisyan, Papazyan, Şimali Qafqazdan Çermoyev, Bammat, Cabaçı, Gürcüstandan Çxenkeli iştirak edirdilər.

Topçubaşov və Çermoyev yaxın günlərdə dörd respublika sənayeçilərinin ümumi yığıncağını keçirməyi təklif etdilər. Bildirildi ki, Genuya konfransının gözlənildiyi bir şəraitdə müttəfiqlər qarşısında bolşevik rejimini gözdən salmaq üçün diplomatik səylər birləşdirilməlidir. İclas iştirakçıları Genuya konfransında bütün müxalifət qüvvələrinin diplomatik çıxışlarının əlaqələndirilməsini zəruri saydılar.

Qəbul edilən qərarların yerinə yetirilməsi üçün fəaliyyətə başlanıldı. Bu zaman başlıca məsələ Genuya konfransında iştirak etməyə nail olmaq idi. 1922-ci il fevralın 23-də Qafqaz respublikalarının nümayəndələri Fransa Nazirlər Şurasının sədri və xarici işlər naziri R.Puankareyə müraciət etdilər. Müraciətdə deyilirdi: "Qafqaz respublikalarının Paris nümayəndələri Siz hakimiyyəti təhvil alan kimi 29 yanvar tarixli məktubu ilə Zati-alilərinə qısaca məlumat vermişdilər. Adı çəkilən respublikaların təcili istəkləri aşağıdakılardan ibarətdir:

1. Qafqaz respublikaları Rusiyadan tam mənasında müstəqil bir qüvvə kimi Avropanın iqtisadi bərpası sisteminə qatılsın.

2. Qərara alınsın ki, Avropanın iqtisadi cəhətdən bərpasının vasitələrinə və şərtlərinə həsr edilmiş müzakirələrdə Qafqaz respublikaları iştirak edə bilsinlər. Onunla da yuxarıda göstərilən respublikaların nümayəndələri qanuni nümayəndə kimi cəlb edilsinlər və dinlənilsinlər.

Biz Fransanın istismar olunan xalqlara münasibətdə xeyirxah hisslərinə şübhə etmirik, bizim çağırışımıza da yaxşı yanaşacağına güman edirik. Heç nə hələlik bizə əvvəlcədən fransız hökumətinin bu münasibətlə qəbul edəcəyi qərarları açıqlamağa imkan vermir. Bizim məqsədimiz bu iki maddə üzərində dayanmaq deyil, əksinə, Siz zatilərinizin diqqətini bir məsələyə, yaxın vaxtlarda bizim başlıca qayğımızın mövzusu olan Genuya konfransına yönəltmək istəyirik.

Böyük millətlər sovet nümayəndələrini açıq iclasda dinləməyə hazırlaşarkən Siz zati-aliləri bizim ədalətli həyəcanımızı başa düşəcəksiniz. Bu dinləmələr zamanı bizim müdafiə etdiyimiz gələcək milli maraqlarla bağlı son və güclü ziyan vura biləcək qərarların qəbul edilməsi təhlükəsi vardır.

Sovet Moskvasının müxalifəti olan Qafqaz respublikalarının qanuni nümayəndələrini buraxması və adı çəkilən respublikalarda sovetlərin əlaltıları olan və "xalq komissarları" adlandırılanları gətirəcəyi məlumdur. Digər tərəfdən, bizim əldə etdiyimiz etibarlı mənbə belə güman etməyə əsas verir ki, sovet respublikaları artıq Avropa dövlətlərinə kreditorlara bir sıra iqtisadi təminatlar, o cümlədən, Moskva hökuməti Qafqazın təbii sərvətlərini, xüsusən, neftdə təminat verməyə irəli sürmüşdür.

Bu məktubla biz ən ciddi şəkildə etiraz etməyi özümüzə şərəf bilirik və tərəddüd etmədən bəyan edirik ki, bunu təmsil etdiyimiz xalqlara münasibətdə bizim borcumuz şərtləndirir. Biz, bizdən-Qafqaz Respublikaların qanuni nümayəndələrindən xəbərsiz imzalanacaq bu mənşədən olan bütün sazişləri heç nə və etibarsız hesab edirik.

Əgər bu gün süngü gücünə arxalanan rus sovetləri Qafqaz respublikaları adından iqtisadi təminat və konsessiya verirsə, şübhəsiz, gələcəkdə heç bir qüvvə maraqlı xalqlardan öz ərazisində bu konsessiyaların xeyirlərindən istifadə etmək imkanı ala bilməyəcəkdir.

Siz Zati-alilərinizə xatırlamaq artıqdır ki, Qafqaz respublikaları ərazisində öz məmurlarını və agentlərini güclü hərbi qüvvə ilə saxlayan sovetlərin bunun ardınca adı çəkilən ərazilərə sərəncam vermək üçün heç bir hüququ yoxdur.

Bu, hamıya məlum olan və ən adi beynəlxalq hüquq normalarından doğan təzahürlərdir və bununla bağlı bizim iddialarımızın əsaslılığını sübut etmək lazım deyildir.

Biz, hər halda verilən imkandan istifadə edərək Siz Zati-alilərinə bildiririk:

1. Qafqaz respublikaları nümayəndələri 1921-ci il 10 iyun tarixli bəyannaməsində təntənəli şəkildə bildirmişlər ki, respublikalar ərazisində Qafqaz xalqlarının azad seçilməmiş hökumətlərinin kimliyindən asılı olmayaraq verəcəkləri bütün konsessiyaları və əmlak hüququnu tanımır və əsassızdır.

2. Ali Şura sədrinə göndərilmiş 1922-ci il 3 və 4 yanvar tarixli məktubun surəti də həmin qəti bəyanatları özündə əks etdirir.

Hazırda məsələ aydın şəkildə qoyulduğu bir vaxtda bu, zəruri idi. Biz məktubu belə başa çatdırarkən Siz zati-alilərinin diqqətini ona cəlb etmək istəyirik ki, bəyanatda göstərilən dəlillərdən kənar hər hansı dəlil gətirərək Genuyada Qafqazla bağlı qərarlar qəbul edilməsi müxtəlif fikirləri azad müdafiə imkanı verilmədən, yəni bu respublikaların səlahiyyətli nümayəndələrinin iştirakı olmadan mümkün deyildir.

Öz hüquqlarında haqlı olaraq, ağır məsuliyyətimizi dərk edərək və Fransanın geniş qəlbli ədalətini çoxdan bilərək Respublika hökumətinin qərarını inamla gözləyirik".

1922-ci il aprelin 3-də Qafqaz respublikası nümayəndələri şurasının iclası keçirildi. İclas öz işinə Gürcüstan nümayəndəliyinin iqamətgahında keçirildi. İclasda Azərbaycandan Topçubaşov, Məhərrəmov, Ermənistandan Xatisyan, Şimali Qafqazdan Çermoyev, H.Bammat, Gürcüstandan A.I.Sxenkeli və Kandalaki iştirak edirdilər.

Çxenkeli və Çermoyev Roma və Parisdə görülən işlər barədə qısa məlumat verdilər. Fikir mübadiləsindən sonra bir sıra siyasi xadimlərlə, Genuya konfransında fransız nümayəndə heyətinin üzvləri, xüsusən, Puankare ilə görüşmək qərara alındı. Həmin görüşlərdə aşağıdakı məsələlər qaldırılmalı idi: 1. Genuya konfransında əgər Qafqaz məsələsinə toxunulmayacaqsa, dörd Qafqaz respublikası şurası heç bir səbəblə onlara etiraz etməyəcəkdir. 2. Əgər adı çəkilən konfrans bu məsələyə toxunsa, onda Qafqaz respublikalarının nümayəndələri də dinlənilməlidir. 3. Əgər Gürcüstanın müstəqilliyini tanımaq məsələsi qalxarsa, onda Qafqaz respublikaları Rusiyanın ərazisi hüdudlarından ayrılmalıdırlar. 4. Rusiyanın təklif etdiyini dörd Qafqaz şurası da xarici kapitala istədiyi şəraitdə bütün zəruri təşkilatları verməklə təklif edə bilər.

Sonra iclasda Qafqaz ticarət ittifaqı haqqında məsələ müzakirə edildi. Hər bir nümayəndə heyətinin bu sahədə işə kömək etməsi arzu olundu. Mühəndis Zurabovun ittifaqın texniki işləri ilə məşğul olan xidməti haqqında məsələ də müzakirə edildi.

Qafqaz respublikaları nümayəndələri şurasının növbəti iclası 1922-ci il aprelin 19-da dağlı nümayəndələrinin qərargahında keçirildi. İclasda Azərbaycandan Hacıbəyov, Məhərrəmov, Mehdiyev, Ermənistandan Xatisyan, Şimali Qafqazdan Çermoyev, H.Bammat, Gürcüstandan Gegeçkori iştirak edirdilər.

İclasa sədrliyi A.M.Çermoyev, katibliyi İbrahimov edirdi. Sədr Topçubaşovun İtaliyaya viza verilməməsi ilə bağlı yaranmış vəziyyəti müzakirə etmək xahişini diqqətə çatdırdı. Topçubaşov bildirdi ki, Qafqaz nümayəndələri sanki sabotajla məşğuldurlar. Ukrayna nümayəndə heyətindən 2 nəfər və hətta Türkiyə ermənilərindən də Genuyaya artıq getmişlər. Topçubaşov məsələni müzakirə edib problemin həllinə kömək göstərilməsini xahiş etdi.

İtaliya hökumətinə və konfransın rəyasət heyətinə Genuyaya səfər üçün nümayəndə heyəti üzvlərinə viza verilməsi barədə xahiş etməyə dair qərar qəbul edildi.

Ə.Topşubaşov 1922-ci ilin aprel-may aylarında keçirilən Genuya (İtaliya) konfranslarında və 1922-ci il iyunun 15-dən iyulun 20-dək keçirilən Haaqa konfransında iştirak edərək, memorandum təqdim etmişdir.

Genuya konfransında Nəriman Nərimanov sovet nümayəndə heyətinin tərkibində, mühacirətdə olan Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndəsi Əlimərdan bəy Topçubaşov isə müstəqil olaraq iştirak etmişdir. N.Nərimanovun fikrincə, neft mədənlərinin qismən konsessiyala verilməsi Azərbaycan üçün xeyirli olar, əhalinin vəziyyətini yaxşılaşdırar və sənayeni inkişaf etdirmək üçün geniş imkanlar açardı. "Röyter" agentliyinin rəhbərlərindən biri olan Amerə verdiyi müsahibəsində isə Ə.Topçubaşov "gələcək Azərbay-

can milli hökumətinin Azərbaycanın milli sərvətlərinin bu surətlə qarət edilməsinə heç bir zaman razı olmayacaqlarını" bildirmişdi.

Parisdə yaşamağa məcbur olan Azərbaycan nümayəndə heyəti eyni məzmunlu memorandumu Haaqa konfransına da təqdim etdi. Ə.Topçubaşovun fikrincə, Azərbaycan gələcəkdə müstəqilliyini bərpa etdikdə neft sahəsində əməkdaşlığa dair vahid konsorsium yaradıla bilərdi. Vahid konsorsiumun yaradılması məsələsində Ə.Topçubaşovun baxışları ABŞ diplomatiyasının mövqeyi ilə üst-üstə düşürdü.

Ə.Topçubaşovun rəhbərliyi altında 1928-ci il mayın 28-də Parisdə Azərbaycanın dövlət müstəqilliyinin elan olunmasının 10 illiyi qeyd edilmişdir. Azərbaycan bayramını "Komite Frans-Orion" təşkil etmişdi. Tədbirdə 100-ə qədər qonaq və 20 nəfər azərbaycanlı iştirak edirdi. Ə.Topçubaşov açılış nitqində bildirmişdir ki, Azərbaycan azad olacaq, azadlığın beşiyi olan Fransa ilə dostluq buna əminlik yaradır. Topçubaşovu təbrik edən Fransa nümayəndəsi onu qucaqlayıb öpdü.

1934-cü il iyulun 14-də Belçikanın paytaxtı Brüsseldə 6 maddədən ibarət "Qafqaz konfederasiyası misaqı" M.Rəsulzadə, Ə.Topçubaşov, Şimali Qafqaz adından Mehmet Girey Sunç, İbrahim Çuluk, Tausultan Şahman, Gürcüstan adından N.Jordaniya və A.İ.Çxenkeli tərəfindən imzalandı.

Ə.Topçubaşov 1934-cü il noyabrın 8-də Parisdə vəfat etmişdir. Onun Sen-Klu qəbiristanlığındakı məzarını ziyarət edərək əklil qoyan Azərbaycan Respublikasının ilk rəhbəri Heydər Əliyev olmuşdur. O, 1993-cü ilin dekabr ayında Fransaya ilk rəsmi səfəri zamanı Ə.Topçubaşovun ailə məzarlığını ziyarət etmiş və əklil qoymuşdur. Bundan sonra Ə.Topçubaşovun və ailə üzvlərinin bir neçəsinin uyuduğu məzarlıq bərpa edilmiş, yox olmasına imkan verilməmişdir. Ə.Topçubaşovun yaşadığı Ryu Dekamp, ev № 27-nin giriş qapısına xatirə lövhəsi vurulmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 30 yanvar tarixli sərəncamından sonra Ə.Topçubaşovun həyat və fəaliyyətinə həsr edilmiş elmi konfrans, simpozium və



seminarlar keçirilmiş, dissertasiya işləri müdafiə edilmişdir.

Ə.Topçubaşovun mühacirət həyatının araşdırılması, irsinin toplanması və arxivinin Azərbaycana gətirilməsində görkəmli diplomat Ramiz Abutalıbov müstəsna rol oynamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransaya səfəri zamanı Ə.Topçubaşovun məzarını ziyarət etmişdir.

Ə.Topçubaşovun adına Bakıda, ölkənin digər şəhər və rayonlarında küçələr vardır.

***


– Абуталыбов Р. Годы и встречи в Париже. М., 2006.

– Azərbaycan tarixi. C.2. Bakı, 1964.

– Azərbaycan tarixi. C.3. H.1. Bakı, 1973.

– Azərbaycan Sovet Ensiklopediyası. C.IX. Bakı, 1986.

– Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti. 1918-1920. Bakı, 1990.

– Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, 1998.

– Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin arxivi. PF-274. 2-ci cild.

– Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). Баку, 1998.

– Балаев А. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку, 1990.

– Böyük diplomat və görkəmli siyasi xadim (Ə.M.Topçubaşovun 135 illiyinə həsr olunmuş elmi-nəzəri konfransın materialları). Bakı, 1998.

– Дипломатические беседы А.А. Топчибашова в Стамбуле (записки чрезвычайного посланника и уполномоченного министра Азербайджанской Республики, 1918-1919 гг. Баку, 1994.

– Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, 1993.

– İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər). Bakı, 1957.

– "Kaspi" qəzeti, 1906, 2 iyun, №117; 1917,18 aprel, №85; 20 aprel, №86; 23 aprel, №89; 17 avqust, №183; 19 avqust, №185; 25 avqust, № 190; 14 sentyabr, № 206.

– Qasımlı M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər.) Bakı, 1998

– Qasımlı M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti 1914-1918-ci illər. 3 hissədə. 1-ci hissə (1914- cü il avqust-1917-ci il oktyabr). Bakı, 2000.

– Qasımlı M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. 2-ci hissə (1917-ci il noyabr – 1918-ci il noyabr). Bakı, 2001.

– Qasımlı M. Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin şəxsi heyəti. Bakı, 2001.

– Qasımlı M. Azərbaycan türklerinin milli mücadele tarini. 1920-1945. İstanbul, 2006.

– Quliyev V. Əlimərdan bəy Topçubaşov. – «Xalq qəzeti», 1997, 30 mart.

– League of Nations. Admission of Azerbaidjan to the leaque of Nations. Memorandum by the Secretaru-General. - The Great Britain Archive.-Foreign Office. 371/4948/285662.

– Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.

– Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.

– Topçubaşov Ə.M. Azərbaycanın təşəkkülü. – Azərbaycan EA xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası). 1990, №3.

– Топчубашев А.М. Меморандум, предъявленный находящимися в Константинополе Почетным представителям держав Антанты членом правительства Азербайджанской Республики, чрезвычайным министром посланником при правительствах Блистательской Порты, Армении и Грузии А.М.Топчубашевым (ноябрь 1918 г.). Баку, 1993.



## Fətəli xan Xoyski

***26 dekabr 1918 - 14 aprel 1919;***
***22 dekabr 1919 - 1 aprel 1920***



Azərbaycanın görkəmli dövlət və siyasi xadimlərindən, müstəqil Azərbaycan dövlətinin yaradıcılarından biri və onun ilk baş naziri Fətəli xan İsgəndər xan oğlu Xoyski olmuşdur. F.Xoyski 1875-ci il noyabrın 25-də Şəki şəhərində anadan olmuşdur.

F.Xoyskinin əsli Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Soyadları da buradan götürülmüşdür. Onun atası İsgəndər xan Şimali Azərbaycanın Şəki şəhərinə köçmüşdür. Xoy xanları nəslindən olan İsgəndər xan Rusiya təbəəliyini qəbul etmiş və ona çar ordusu general-leytenantı rütbəsi verilmişdir.

F.Xoyski 1892-ci ildə Yelizavetpol (indiki Gəncə) klassik gimnaziyasını bitirdikdən sonra Moskva şəhərinə gedərək Moskva Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Moskva mühiti gənc Fətəli xana böyük təsir etmiş, onun dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır. O, ilk gündən hüquq fakültəsinin qabaqcıl tələbələrinə qoşularaq toplantılarda fəal iştirak etmişdir.

1897-ci ildə Moskva Universitetinin hüquq fakültəsini birinci dərəcəli diplomla bitirən F.Xoyski Tiflis Məhkəmə Palatasının sərəncamına göndərilmişdir. F.Xoyski 1897-1907-ci illərdə Yelizavetpol, Kutaisi, Yekaterinodar dairə məhkəmələrində kiçik məhkəmə məmuru, katib, böyük məhkəmə məmuru, istintaq sahəsi müdiri, qəza, dairə məhkəmə prokurorlarının müavini və s. vəzifələrdə çalışmışdır. Gənc Fətəli xan məhkəmələrin rus dilində və qeyri-ruslara qarşı ədalətsiz aparıldığının şahidi olmuş, işləri zalımcasına aparan məmurlara qarşı onda nifrət oyanmışdır.

II Dövlət Dumasına keçirilən seçkilərdə Bakı və Yelizavetpol quberniyalarından X.Xasməmmədov, İ.Tağıyev, Z.Zeynalov və b. ilə yanaşı Yelizavetpol quberniyasında ədalətli məhkəmə işçisi kimi böyük hörmət qazanmış F.Xoyski Yelizavetpol Quberniyasından II Dövlət Dumasına deputat seçilmişdir. II Dövlət Duması 1907-ci il fevralın 20-dən iyunun 3-nə qədər fəaliyyət göstərmişdir. F.Xoyski Dumanın Müsəlman deputatları fraksiyasının və bürosunun üzvü olmuş, şəxsi toxunulmazlıq, Dövlət Dumasının 55 üzvünün cinayət məsuliyyətinə cəlb edilməsi, amnistiya haqqında qanun layihəsi komissiyalarının tərkibinə seçilmişdir. Dumanın bir sıra iclaslarında çıxış edərək çarizmin aqrar, seçki, vətəndaşların siyasi və mülki hüquqlarını məhdudlaşdıran siyasətini kəskin tənqid etmişdir. F.Xoyski Dumada müzakirə edilən aqrar məsələ ilə əlaqədar çıxışında torpaq məsələsinin çox lazımi, çətin və təxirəsalınmaz olduğunu qeyd etmişdir. Demişdir ki, hökumət bu çətin məsələni kəndli torpaq bankları və köçürmə yolu ilə həll etmək istəyir, Rusiya şəraitində köçürmə heç bir xeyirli nəticə verməz.

1907-ci il mayın 18-də II Dövlət Dumasına Rusiyada milli və dini fərqlərə görə vətəndaşların siyasi və mülki hüquqlarını məhdudlaşdıran qanunların ləğvi haqqında layihə təqdim edilmişdir. Qanun layihəsində ölkənin bütün vətəndaşlarının hüquq bərabərliyi, daimi yaşayış yeri seçmə sərbəstliyi, dövlət və ictimai xidmət sahələrində bərabərlik, şəxsiyyətin toxunulmazlığı, söz və məlumat azadlığı, təhsil hüququ tələb olunurdu. Bu layihəni 173 deputat, o cümlədən, F.Xoyski də imzalamışdır. Dumanın sədri qanun layihəsinin müzakirə ediləcəyini bildirsə də, II Dövlət Duması qovulduğundan gözlənilən müzakirə baş tutmamışdır.

II Dövlət Duması qovulduqdan sonra Yelazavetpola gələn F.Xoyski 1907-1912-ci illərdə andlı iclasçı işləmişdir. 1913-1917-ci illərdə isə Bakıda dairə məhkəməsində andlı iclasçı kimi fəaliyyət göstərmişdir. Bakıda bu dövrdə bir sıra siyasi və ictimai tədbirlər həyata keçirilirdi. F.Xoyski bir ziyalı kimi tədbirlərdə, yeni yaranmaqda olan xeyriyyə cəmiyyətlərinin və siyasi təşkilatların işində yaxından iştirak etmişdir.



1917-ci il fevral inqilabından və oktyabr çevrilişindən sonra F.Xoyskinin fəaliyyətində yeni bir mərhələ başlamışdır. O, siyasi və ictimai mübarizəyə daha fəal surətdə qoşulmuş, qısa müddət ərzində Azərbaycan xalqının azadlığı və müstəqilliyi uğrunda aparılan hərəkatın liderlərindən birinə çevrilmişdir.

1917-ci il martın 29-da Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi yaradıldı. Onun tərkibinə M.Rəsulzadə, M.Hacınski, Ə.Topçubaşov və b. ilə yanaşı F.Xoyski də daxil olmuşdur. Bu təşkilatın gərgin fəaliyyəti nəticəsində 1917-ci il aprelin 15-20-də Bakıda Ümumqafqaz müsəlmanlarının qurultayı çağırıldı. F.Xoyski qurultayın çağırılmasında və gedişində fəal iştirak etmişdir.

1917-ci il sentyabrın 5-6-da və 12-də Bakı Müsəlman İctimai təşkilatları Komitəsinin növbəti iclası keçirildi. İclasda komitənin yeni tərkibi seçildi. Ə.Topçubaşov sədr, M.Rəsulzadə və F.Xoyski sədrin müavinləri seçilmişlər.

1917-ci il oktyabrın 29-da ümumi seçki hüququ əsasında Bakı Şəhər Dumasına seçkilər keçirildi. Yeni seçilmiş Dumanın ilk iclası noyabrın 10-da çağrılmış və burada F.Xoyski 46 səslə Şəhər Dumasının sədri seçilmişdir.

F.Xoyski 1917-ci il noyabrın 15-də Tiflisdə Y.Gegeçkorinin sədrliyi ilə yaradılmış Müstəqil Zaqafqaziya hökuməti – Zaqafqaziya Komissarlığının xalq maarif komissarı vəzifəsini tutmuşdur.

1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya Seymi işə başladı. Seymin tərkibinə azərbaycanlı, gürcü və erməni nümayəndələri seçilmişdir. Azərbaycandan Müsavat Partiyasından və bitərəf demokratik qruplardan 30 nəfər, o cümlədən, F.Xoyski də iştirak etmişdir. Bu partiya və təşkilatlardan əlavə Müsəlman Sosialist Partiyasından 7, İttihaddan 3, Hümmət Partiyasından 4 nümayəndə iştirak edirdi. Ümumiyyətlə, Zaqafqaziya Seymində 44 azərbaycanlı deputat var idi. O, Seymin Müsəlman fraksiyasının üzvü olmuşdur. F.Xoyski Seymin və Müsəlman fraksiyasının iclaslarında dəfələrlə çıxış edərək Cənubi Qafqaz xalqları arasında əmin-amanlıq yaradılmasını, qazanılmış müstəqilliyin qorunub saxlanılmasını, Türkiyə ilə sülh bağlanmasını və münasibətlərin yaxşılaşdırılmasını irəli sürmüşdür.

1918-ci il aprelin 22-də Seym səs çoxluğu ilə Zaqafqaziyanı müstəqil, demokratik və federativ respublika elan etdi. Seym aprelin 26-da A.İ.Çxenkelinin sədrliyi ilə Zaqafqaziya federasiyasının yeni hökumətinin tərkibini təsdiq etdi. F.Xoyski yeni yaradılmış hökumətin tərkibində ədliyyə naziri vəzifəsini tutmuşdur.

Ermənilərin əsassız iddiaları və hərəkətləri səbəbindən Zaqafqaziya Seymində vəziyyət mürəkkəb idi. Cənubi Qafqazın üç xalqının nümayəndələri birlikdə fəaliyyət göstərə bilmirdilər. Belə vəziyyətə beynəlxalq şərait də təsir edirdi.

1918-ci il mayın 25-də F.Xoyskinin sədrliyi ilə Zaqafqaziya Seyminin müsəlman fraksiyasının iclası keçirildi. Bu iclasa F.Xoyskinin təklifi ilə Zaqafqaziya Seyminin sədri K.Çxeidze, Seymin üzvləri İ.Sereteli və Y.Gegeçkori gəldilər. İ.Sereteli gürcü fraksiyası adından bildirdi ki, Cənubi Qafqaz xalqlarını müstəqillik ətrafında birləşdirmək mümkün olmadığı üçün biz Gürcüstanın müstəqilliyini elan etmək məcburiyyətində qalırıq. F.Xoyski ona cavab verərək demişdir: "...gürcü xalqının iradəsi belədirsə, bizim ona mane olmağa heç bir haqqımız yoxdur. Azərbaycan türklərinə isə yeni vəziyyətlə bağlı olaraq müvafiq qərarlar qəbul etməkdən başqa bir şey qalmır".

1918-ci il mayın 26-da Zaqafqaziya Seyminin sonuncu iclasında Seymin buraxılması və Gürcüstanın müstəqilliyi elan edilməsi barədə qərar qəbu edildi. Bununla əlaqədar olaraq mayın 27-də Müsəlman fraksiyasının fövqəladə iclası keçirildi. Özü iştırak etməsə də, M.Rəsulzadənin sədrliyi ilə Müvəqqəti Milli Şura və F.Xoyskinin sədrliyi ilə Milli Şuranın İcra Komitəsi yaradıldı.

Müvəqqəti Milli Şuranın 1918-ci il mayın 28-də keçirilən iclasında Azərbaycanın müstəqilliyini bəyan edən akt qəbul olundu. İstiqlal bəyannaməsini imzalayan 24 nəfərdən biri F.Xoyski olmuşdur. Həmin iclasda Milli Şura F.Xoyskiyə Azərbaycan Xalq Cümhuriyyəti hökumətini təşkil etməyi tapşırdı. F.Xoyski bir saatlıq fasilədən sonra Milli Şuranın iclasına hökumətin tərkibini təqdim etmişdir. F.Xoyski burada Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının ilk baş naziri və daxili işlər naziri vəzifələrini tutmuşdur.



Beləliklə, Müsəlman Şərqində ilk dəfə olaraq dini deyil dünyəvi, demokratik əsaslar üzərində Azərbaycanda dövlət yaradıldı. Onun yaradılması və fəaliyyətində M.Rəsulzadə, M.Hacınski, M.Cəfərov, N.Usubbəyli və Azərbaycanın digər görkəmli siyasi xadimləri ilə birlikdə F.Xoyski də xeyli zəhmət çəkmişdir.

F.Xoyski baş nazir olduğu ilk gündən Azərbaycan dövlətinin dünya ölkələri tərəfindən tanınması işinə var qüvvəsi ilə başlamışdır. Onun 1918-ci il mayın 30-da dünya ölkələrinin xarici işlər nazirliklərinə göndərdiyi radioteleqramda yazılırdı: "İstanbul, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Xristianiya, Kopenhagen, Xarici işlər nazirinə.

Zaqafqaziya Federativ Respublikası parçalanmış, Gürcüstan ondan ayrılmış, ona görə də Azərbaycan Milli Şurası ayın 28-də Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycanın müstəqilliyini elan etmiş, Azərbaycan Respublikasının yarandığını təntənə ilə bildirmişdir. Yuxarıdakıları Sizə bildirməklə, Zati-alinizdən bu barədə hökumətinizə xəbər verməniz rica edirəm. Mənim hökumətim müvəqqəti olaraq Yelizavetpol şəhərində yerləşir.

İmza. Xoyski, Azərbaycan Respublikası Nazirlər Şurasının sədri".

Milli Şura və F.Xoyski başda olmaqla milli hökumət Azərbaycan ərazisində öz fəaliyyətini daha geniş və hərtərəfli aparmaq məqsədi ilə Yelizavetpola (Gəncə) köçdü. Lakin onlar burada siyasi qüvvələrin qızğın mübarizəsi ilə üzləşdilər. Yelizavetpola gəlmiş Nuru Paşa Milli Şuraya və Azərbaycan hökumətinə ehtiyatla yanaşaraq onların nümayəndələri ilə görüşmək istəmirdi. Belə vəziyyəti görən F.Xoyski 1918-ci il iyunun 17-də Milli Şuranın şəhər idarəsinin binasında keçirilən sayca yeddinci iclasında istefa bəyanatı ilə çıxış edərək bildirmişdir: "Gurcüstan Zaqafqaziyadan ayrıldıqdan sonra bizim ölkəmiz hökumətsiz və hakimiyyətsiz qalmışdı. Buna görə də biz Müvəqqəti hökumət təşkil etməyə məcbur olduq. İndi biz öz ərazimizdəyik. Mən və mənim yoldaşlarım bizim istefaya çıxmağımızı xahiş edirik. Ümid edirik ki, bizim xahişimizi

qəbul edəcək və bizim çatışmazlıqlarımızı bağışlayacaqsınız". İclas F.Xoyski hökumətinin istefasını qəbul etsə də, yeni hökumətin təşkilini yenidən ona tapşırdı. F.Xoyski ikinci hökumətdə də Nazirlər Şurasının baş naziri və ədliyyə naziri vəzifələrini tutmuşdur. Hökumət başçısı kimi Milli Şuranın iclasında çıxış edən F.Xoyski Azərbaycanın müstəqilliyi və bir dövlət kimi inkişafı uğrunda ardıcıl mübarizə aparmağı yeni hökumətin əsas vəzifəsi olaraq bəyan etmişdir. Həmin iclasda Milli Şuranın buraxılması, bütün qanunverici və icraedici hakimiyyətin Azərbaycan müvəqqəti hökumətinin əlində cəmləşdirilməsi haqqında iki qətnamə qəbul edilmişdir. Milli Şuranın buraxılmasına dair birinci sənəddə yazılırdı ki, həm daxili, həm də xarici siyasət sahəsində Azərbaycanda yaranmış vəziyyəti nəzərə alaraq Milli Şura hakimiyyəti F.Xoyskinin sədrliyi ilə yaradılmış hökumətə həvalə edir və ona öz hakimiyyətini qısa müddətdə çağırılacaq Müəssisələr Məclisindən başqa heç kimə güzəştə getməməyi tapşırır. Hökumətin hüquq və vəzifələrindən bəhs edən ikinci sənəddə qeyd edilirdi ki, Azərbaycan hökuməti Azərbaycanın istiqlaliyyətini və siyasi azadlıqları ləğv edə bilməz, aqrar və digər bu kimi mühüm inqilabi əhəmiyyətli qanunları dəyişməyə hökumətə səlahiyyət verilmir. Digər məsələlərdə hökumətə bütün hüquqlardan istifadə etmək səlahiyyəti verilirdi. Müəssislər Məclisi altı ay müddətindən gec olmayaraq çağırılmalı idi.

Bundan sonra F.Xoyski Yelizavetpolda dövlət aparatının yaradılması, ayrı-ayrı nazirlik və idarələrin təşkili ilə məşğul olmuşdur. Çətin və mürəkkəb bir dövrdə F.Xoyskinin başçılıq etdiyi hökumət bir sıra tədbirləri həyata keçirməyə başladı. 1918-ci il iyunun 17-də Azərbaycan xalqına müraciət etdi. Burada vurğulanırdı ki, hökumətin ən yaxın vəzifəsi bütün dövlət müəssisələrinin, məhkəmələrin və məktəblərin milliləşdirilməsidir. İyunun 19-da bütün Azərbaycanda hərbi vəziyyət elan edildi. Azərbaycan ordusunun yaradılmasına başlanıldı. Bir müddət sonra, avqustun 11-də hərbi mükəlləfiyyət haqqında qanun qəbul edildi. İyunun 24-də Azərbaycan dövlət bayrağı haqqında qərar verildi. İyunun 27-də Azərbaycan (türk) dili dövlət dili elan olundu.



Bu dövrdə F.Xoyskinin başçılığı altında Azərbaycan hökumətinin ən mühüm işlərindən biri 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması olmuşdur. Bu komissiya Birinci Dünya müharibəsi illərində, Bakıda mart ayında qırğın zamanı, bütövlükdə Cənubi Qafqaz ərazisində türklərə və digər müsəlmanlara qarşı törədilmiş vəhşilikləri öyrənmək, bu işdə günahkarları tapmaq və onları məsuliyyətə cəlb etmək işi ilə məşğul olmalı idi.

1918-ci il avqustun 30-da F.Xoyski hökuməti 1806-cı ildə çarizm tərəfindən ləğv edilmiş Gəncə şəhərinin adını bərpa etmişdir. Gəncə şəhəri 1935-ci il ilədək öz tarixi adını daşıdı.

Hökumətin qarşısında dayanan ən vacib vəzifələrdən biri Bakı şəhərini yadellilərin işğalından azad etmək idi. Bu məqsədlə böyük hərbi, diplomatik-siyasi fəaliyyət göstərildi. 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakı azad edildi. Sentyabrın 17-də F.Xoyskinin rəhbərliyi ilə Azərbaycan hökuməti Bakıya gəldi. Hökumət ilk dəqiqədən Bakıda əmin-amanlıq yaratmağa başladı. F.Xoyski bu barədə demişdir: "Şəhər alınarkən nalayiq hərəkətlər olmuşdur. Hökumət bunu gizlətmir... Bəlkə bir çoxlarına əziyyət, bəlkə də cəza olmuşdur. Lakin mümkün idimi, hökumət bunun qarşısını saxlasın... Azərbaycan deyil, heç bir hökumət bunun qarşısını almağı bacarmazdı. Burada müsəlmanlar qırılmış, namusuna, canına təcavüz edilmiş, əlindən ixtiyarı qoparılmış, ... üç gün davadan sonra şəhər alınmış, əhali və qoşun şəhərə acıqlı girmişdi... hökumət üç gündən sonra Bakıya girdi. O vaxtadək nə olmuşsa da hökumət gəldikdən sonra Azərbaycan hökuməti adından Bakı və onun ətrafı əhalisinə məlumatla müraciət etdi. Bu məlumatda millətindən, dinindən asılı olmayaraq Azərbaycanda yaşayan bütün vətəndaşların bərabər hüquqa malik olduğu, onların həyatı, əmlakı və hüquqlarının qorunacağı, ictimai qayda-qanunu pozanların müharibə qaydası ilə cəzalandırılacağı göstərilirdi".

Hökumət və ordu tərəfindən ermənilərə qarşı heç bir qanunsuz hərəkət edilmədi. Onların həyatı, malı və mülkü qorunma altına alındı, təhlükəsizlikləri təmin edildi. Şəhərdə əhalidən silahlar yığıldı. Paytaxtda həyat normallaşdı. Hökumət idarələri adi iş rejimində fəa-

liyyət göstərməyə başladılar. Gəncədən gələn ermənilər F.Xoyski ilə görüşərək Bakının azad edilməsi münasibəti ilə onu təbrik etdilər.

Azərbaycan hökuməti Bakıya köçdükdən sonra Bakı XKS-nin qəbul etdiyi bütün dekret və qanunları ləğv etdi, özünün sosial islahatlarını həyata keçirməyə və Azərbaycanın bütün ərazisində hakimiyyətini bərpa etməyə başladı. Lakin Azərbaycan hökuməti bu zaman çətin beynəlxalq şəraitlə üzləşməli oldu. F.Xoyski hökumətinin dəvəti ilə Azərbaycana gəlmiş və Azərbaycan torpağını, xüsusən, Bakını bolşevik-daşnak qüvvələrindən azad etmiş türk hərbi hissələri Mondros barışığına uyğun olaraq Azərbaycandan çıxdı, onları ingilislər əvəz etdi. Bu zaman Bakının general-qubernatoru olan, daşnak və eserlərin təsiri altına düşən general V.Tomson Azərbaycan hökumətini tanımaq istəmirdi. F.Xoyskinin Tomson ilə apardığı danışıqlar nəticəsində onun münasibəti dəyişildi. O, F.Xoyskinin başçılıq etdiyi Azərbaycan hökumətini tanıdığını və yeganə qanuni hakimiyyət olduğunu bildirdi.

1918-ci il dekabrın 7-də ölkədə ziddiyyətli siyasi şəraitdə Azərbaycan parlamenti öz işinə başladı. Parlamenti Azərbaycan Milli Şurasının sədri M.Rəsulzadə təbrik nitqi ilə açdı. Sonra söz F.Xoyskiyə verildi. F.Xoyski parlamentin işə başlaması münasibətilə deputatları təbrik edərək demişdir: "Bugünkü gün Azərbaycan üçün böyük, əziz mübarək gündür ki, yuxumuzda görməzdik, əqlimizə gəlməzdi. Bu gün o gündür ki, muxtariyyatı əlimizə aldığımız, hökumət vəkalətilə bu bayram günü sizi və sizinlə bərabər özümüzü də təbrik edirəm". Sonra o, hökumətin may ayından bəri apardığı daxili və xarici siyasəti haqqında məlumat verdi. F.Xoyski nitqinin sonunda parlamentə müraciət edərək dedi: "...hökumət çalışmışdır ki, öz nüfuzunu millətin gözündə itirməsin. Biz xahiş edirik ki, nöqsanlarımızı bizə göstəriniz... hökumətin ixtiyarı bu günə qədər idi... heç bir hökumət parlamenti açıldıqdan sonra iş başında qalammaz. Ona görə, mən bütün yoldaşlarım tərəfindən xəbər verirəm, hökumət hüzurunuzda istefasını verir".

Parlament F.Xoyski hökumətinin istefasını qəbul etdi. Lakin yeni hökumətin təşkilini yenidən ona tapşırdı. F.Xoyski 1918-ci il dekabrın 26-da yeni hökumətin qarşısında duran vəzifələri və tərkibini Azərbaycan parlamentinə təqdim etdi. Parlament təqdimatı geniş müzakirədən sonra qəbul etdi. F.Xoyski bu hökumətdə baş nazir vəzifəsilə yanaşı, xarici işlər naziri vəzifəsini də tutmuşdur.

F.Xoyski kabinəsi parlament tərəfindən təsdiq olunandan sonra ölkənin iqtisadi vəziyyətinin və əmin-amanlığının bərpası işinə başladı. Lakin parlamentdə iştirak edən partiyalar arasındakı ziddiyyətlər onu həyata keçirməyə imkan vermirdi. Parlamentdəki bəzi partiyalar F.Xoyski hökumətinə qarşı qatı müxalif mövqe tuturdular. İttihad, Əhrar, Sosial-Demokrat partiyaları hökuməti fəaliyyətsizlikdə təqsirləndirir, baş verən bütün qanunsuzluqları onun adı ilə bağlamağa çalışırdılar. Onlar F.Xoyski hökumətini aqrar, neft alveri, polisin qanunsuz hərəkətlərinin qarşısını ala bilməmək və b. məsələlərdə təqsirləndirirdilər. Bu məsələlər haqqında parlamentdə bir neçə dəfə keçirilən müzakirələrdə F.Xoyski hökuməti kəskin tənqid olundu. F.Xoyski parlamentinin 1918-ci il fevralın 5-də keçirilən iclasında çıxış edərək onlara demişdir: "O günlər ki, siz neçə dəfələrlə mənə müraciətən bu hökumətin təşkilinə məni vadar etdiniz... Mən o vaxt sizə dedim ki, belə xətərləri bir zamanda heç kəs cəsarət edib tamam hökuməti ələ ala bilməz... Sizin sidq dil ilə hökumətin dalında durub kömək edəcəyinizə ümid oluruq... əgər görsəm ki, sədaqət yoxdur, bir dəqiqə hökumət başında durmaram... hökumətə kömək cürbəcür olur... heç hökumət... sorğudan inciməz... sorğu da var, sorğu da. Bir sorğu var ki, atanın oğluna verdiyi nəsihət, bir sorğu var ki, zəhərli, bədxahlıq sorğusudur... Bu sorğu hökumətə badalaq vurmaq, biz soxmaq deməkdir".

Onun başçılıq etdiyi hökumətə qarşı istər parlamentdə, istərsə də siyasi partiyalar arasında gedən danışıqlara son qoymaq məqsədi ilə F.Xoyski başçılıq etdiyi hökumətinin istefası haqqında parlamentə məktub göndərdi. 1919-cu il fevralın 25-də Azərbaycan parlamenti F.Xoyskinin məktubunu müzakirə edib, onun istefasını qəbul etdi. Lakin parlament yeni hökumətin təşkilinə qədər vəzifəsini icra etməyi ondan xahiş etdi. Aprelin 14-də Nəsibbəy Usubbəylinin sədrliyi ilə dördüncü hökumət kabinəsi yaradıldı.

F.Xoyski istefaya çıxsa da, siyasi və ictimai fəaliyyətini davam etdirmişdir. O, bu dövrdə Azərbaycan parlamentinin üzvü kimi Azərbaycan hökumətinin bir sıra tədbirlərində, siyasi, iqtisadi və maliyyə məsələlərinin həllində, Cənubi Qafqaz respublikaları arasında mübahisəli sərhəd məsələlərinə həsr olunmuş Qafqaz konfransının çağırılmasında, Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi məsələlərinin həllinə həsr edilmiş konfransın keçirilməsində fəal iştirak etmişdir. F.Xoyski bu iclas və konfranslarda çıxış edərək Azərbaycanın qəti mövqeyini bildirmiş və bəzi qonşu dövlətlərin Azərbaycana bədxah münasibətini kəskin tənqid etmişdir. Onları dostluğa və ədalətli qonşuluq münasibətləri yaratmağa çağırmışdır. O demişdir ki, Böyük Rus inqilabı Güney Qafqaz xalqlarının azadlığa çıxmasına səbəb olmuşdu, mən belə düşünmürəm ki, Qafqazın azadlıq sevən oğullarının – istər o azərbaycanlı olsun, istərsə də dağlı, gürcü və ya erməni olsun, müstəqil yaşamaq ideyasında, sərbəstlik ideyasında yolları birdir.

1919-cu il dekabrın 22-də Azərbaycan parlamenti N.Usubbəylinin təşkil etdiyi beşinci hökumət kabinəsində F.Xoyskini xarici işlər naziri vəzifəsinə təyin etmişdir. F.Xoyski bu vəzifədə 1920-ci ilin aprelinə qədər çalışmışdır.

Paris sülh konfransı tərəfindən Azərbaycanın istiqlaliyyətinin tanınması münasibəti ilə Azərbaycan parlamentinin təntənəli iclası 1920-ci il yanvarın 14-də keçirildi. İclasda ilk söz xarici işlər naziri F.Xoyskiyə verildi. Azərbaycanın dünya ölkələri tərəfindən tanınması sahəsində ardıcıl mübarizə aparanlardan biri olmuş F.Xoyski parlamenti təbrik edərək böyük sevinclə bildirmişdir: "May ayının 28-də 1918-ci ildə Azərbaycan xalqı öz istiqlaliyyətini aləmə məlum etmişdir... İstiqlalını elan etdikdən sonra bir millət gərək cəmi aləmə göstərsin və isbat etsin ki, ... istiqlaliyyətə layiqi vardır... bir il on ay müddətində Azərbaycan milləti öz həyatın, dolanacağın Avropaya, cəmi mədəniyyət aləminə məlum edib özünü öylə göstərdi ki, Avropa onun həqqini verməklə və istiqlalını təsdiq etməyə vadar oldu...

Bu xəbər bizdən ötrü böyük bayramdır. Bu yalnız bizim üçün deyil, ümumi türk milləti və ümumi türk aləmi üçün böyük bir bayramdır. Böylə bir günü dərk etmək üçün qeyri millətlər on illər ilə çalışmışlar. Biz isə onu az müddətdə bir il yarım içərisində qazandıq".

F.Xoyski sovet Rusiyası ilə əlaqələr yaratmaq üçün Rusiyanın xalq xarici işlər komissarı G.Çiçerinə bir neçə dəfə nota göndərmişdir. O, G.Çiçerinin Azərbaycanı general Denikinlə mübarizəyə cəlb etmək fikrinə qarşı çıxaraq, Azərbaycanın Rusiya tərəfindən tanınmasını, rus və Azərbaycan xalqları arasında ədalətli, hər iki dövlətin suverenliyi prinsiplərinə əsaslanan mehriban qonşuluq münasibətləri yaradılmasını irəli sürmüşdür. F.Xoyski Denikinə qarşı mübarizəni sovet Rusiyasının daxili işi heçab edir, ona qarışmağı yolverilməz sayırdı. Ancaq F.Xoyskinin sovet Rusiyası ilə münasibətləri yaxşılaşdırmaq cəhətləri bir fayda verməmişdir.

1920-ci il aprelin 15-də parlamentdə hökumətin sovet Rusiyasına diplomatik nümayəndə göndərmədiyini tənqid edən Əliheydər Qarayevə cavab verən F.Xoyski demişdir: "Biz üç dəfə sovet Rusiyasına dostluq əlaqələri yaratmaq üçün danışıqlara getməyə hazır olduğumuzu təklif etmişik. İndiyə kimi bizim təklifimiz diqqətdən kənarda qalıb. Çıxış edən natiq nahaq yerə bizi günahlandırır. Əgər o, istəyirsə ki, bizimlə Rusiya arasında dostluq münasibətləri yaradılsın, qoy, onda o, öz həmfikirlərini danışıqlara getməyə məcbur etsin".

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 27-də XI ordu tərəfindən işğal edildi. F.Xoyski işğaldan sonra Tiflis şəhərinə getmiş və orada 1920-ci il iyunun 19-da erməni quldurları tərəfindən xaincəsinə öldürülmüşdür. F.Xoyski Tiflisdə azərbaycanlıların qəbiristanlığında görkəmli filosof, maarifçi, dramaturq M.F.Axundovun məzarı yanında dəfn olunmuşdur. Onun öldürülməsi haqqında Tiflisdə çıxan "Qruziya" qəzetinin 23 iyun 1920-ci il sayında nekroloq dərc edilmişdir. F.Xoyskinin öldürülməsi bir sıra ölkələrin, o cümlədən, Böyük Britaniya rəsmi dairələrinin diqqətini çəkmişdir. Cənubi Qafqazdakı ingilis rəsmi nümayəndələri onun öldürülməsi barədə Böyük Britaniya hakimiyyətinə təcili teleqram göndərərək məlumat vermişlər.

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra F.Xoyskinin həyat və fəaliyyətinin öyrənilməsi sahəsində ciddi işlər

görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 30 yanvar tarixli Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında sərəncamına əsasən F.Xoyskinin həyat və fəaliyyətinə dair sənəd və materiallar toplanaraq kitab kimi nəşr edilmişdir. F.Xoyskinin adına Bakıda və ölkənin digər şəhərlərində küçələr vardır. Onun məzarı bərpa edilmiş və büstü qoyulmuşdur. Gürcüstana səfəri zamanı Azərbaycan Respublikasının prezidentləri Heydər Əliyev və İlham Əliyev F.Xoyskinin məzarını ziyarət etmişlər.

***


– Адрес-календарь Азербайджанской Республики на 1920 г. Баку, 1920.

– Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, siy.1, iş 241.

– Azərbaycan tarixi. C.2. Bakı,1964.

– Azərbaycan tarixi. C.3. H.1. Bakı, 1973.

– Azərbaycan Sovet Ensiklopediyası. C.X. Bakı, 1987.

– Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti. 1918-1920. Bakı, 1990.

– Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). Баку, 1998.

– Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, 1998.

– Азербайджанская Демократическая Республика (1918-1920). Парламент (стенографические отчёты). Баку, 1998.

– Балаев А.Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку, 1990.

– Члены Государственной Думы (портреты и биографии). Второй созыв 1907-1912 гг. М., 1907.

– Fətəli xan Xoyski: Həyat və fəaliyyəti (sənəd və materiallar). Bakı, 1998.

– Həsənov C.Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, 1993.

– "Kaspi" qəzeti, 1917, 23 aprel, №89; 14 sentyabr, №206; 14 noyabr, №249.

– Qasımlı M. Azərbaycan Xalq Cümhuriyyəti Xarici Işlər Nazirliyinin şəxsi heyəti. Bakı, 2002.

– Qasımlı M., Hüseynov C. Azərbaycanın xarici işlər nazirləri.

– Qasımlı M. Azərbaycan türklerinin milli mücadele tarihi. 1920-1945. Istanbul, 2006.

– Гулиев Дж. Б. Борьба Коммунистической Партии за осуществлении ленинской национальной политики в Азербайджане. Баку, 1970

– Государственная Дума. Второй созыв. Стенографические отчёты. 1907 г. Сессия вторая. Т. I, II. СПб. 1907.

– "Грузия" qəzeti, 1920, 23 iyun, №67.

– Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər). Bakı, 1990.

– Сеидзаде Д.Б. Азербайджанские депутаты в Государственной Думе России. Баку, 1991.

– Закавказский Сейм. Стенографический отчёт. I сессия. Тифлис, 1918.

– The Great Britain Archive Foreign Office, 371/4992/28423.

**Məmmədyusif Cəfərov**

*14 aprel -22 dekabr 1919*



Azərbaycanın tanınmış siyasi və ictimai xadimlərindən biri Məmmədyusif Hacıbala oğlu Cəfərov 1885-ci ildə Bakıda anadan olmuşdur. 1907-ci ildə Bakıda kişi gimnaziyasını bitirən M.Cəfərov o dövrdə Rusiya imperiyasının ikinci böyük şəhəri sayılan Moskvaya getmiş və Moskva Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Moskva mühiti və tələbəlik illəri gənc Məmmədyusifin dünyagörüşünün inkişafında və formalaşmasında mühüm rol oynamışdır. Cünki 1905-1907-ci illər inqilabının məğlub olmasına baxmayaraq, tələbələr arasında hələ də inqilabi mübarizə ruhu qalmışdı. Onlar tələbə təşkilatlarını gizli olaraq qoruyub saxlayırdılar. Məmmədyusif tezliklə Moskvada təhsil alan azərbaycanlıların yaratdığı "Azərbaycan etnoqrafik konsert gecələri"nin və "Azərbaycan həmyerlilər təşkilatı"nın əvvəllər üzvü, sonralar isə rəhbərlərindən biri olmuşdur. O, öz tələbə dostlarını bu təşkilatlarda elmə, biliyə yiyələnməklə yanaşı, xalqın azadlığı uğrunda mübarizədə birliyə çağırmışdır.

1912-ci ildə Moskva Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. "Nikahın şəriət üzrə pozulması haqqında rəy" mövzusunda hüquq elmləri üzrə namizədlik dissertasiyasını müdafiə etmişdir. M.Cəfərov Bakıya gələrək Bakı məhkəmələrinin birində andlı hakim köməkçisi vəzifəsində çalışmağa başlamışdır.

1912-ci ilin sentyabr-oktyabr aylarında IV Dövlət Dumasına Rusiyanın hər yerində olduğu kimi Cənubi Qafqazda da seçkilər



keçirildi. Hüquqşünas kimi Bakı əhalisinin hörmətini qazanmış 27 yaşlı M.Cəfərov əvvəl Bakıda, oktyabrın 20-də isə Yelizavetpolda Bakı, Yelizavetpol və İrəvan quberniyalarının müsəlman əhalisi tərəfindən IV Dövlət Dumasına deputat seçilmişdir.

M.Cəfərov 1912-1917-ci illərdə Sankt Peterburqda fəaliyyət göstərmiş IV Dövlət Dumasında iştirak etmiş, Dumanın V bölməsinin, müsəlman fraksiyasının, büdcə, köçürmə, sorğu, məhkəmə islahatı, hərbi və dəniz işləri üzrə komissiyaların üzvü seçilmişdir. O, Dumanın bir sıra iclaslarında müzakirə olunan Rusiya dövlətinin baş nazirinin hesabatı, Gömrük Departamentinin xərcləmə dərəcəsi, Köçürmə idarəsi üzrə xərclərin smetasına dair büdcə komissiyasının hesabatı, 1913-cü ildə Cənubi Qafqazın bəzi yerlərində məhsulsuz qalmış əhaliyə kömək tədbirləri, müharibə və s. məsələlərin müzakirəsi zamanı çıxış etmişdir. O, çıxışlarında çar hökumətinin Cənubi Qafqaz əhalisinə, xüsusən, müsəlmanların maariflənməsinə pis münasibət göstərdiyini, hüquqlarının məhdudlaşdırıldığını, milli məktəblərinin bağlandığını tənqid etmiş və kazarmaya çevrilmiş məscidlərin müsəlman fraksiyası adından geri qaytarılmasını tələb etmişdir.

Birinci Dünya müharibəsi illərində Qafqaz cəbhəsində müsəlmanların ağır vəziyyətini öyrənmək üçün Rusiyada komissiya təşkil edilmişdi. Dövlət Dumasında müsəlman fraksiyasının sədri M.Cəfərov Kars vilayətində müsəlmanların vəziyyəti ilə tanış olmaq üçün Tiflisə gəlmişdir. 1915-ci il aprel ayında Bakı müsəlman xeyriyyə cəmiyyətinin sədri M.Ş.Əsədullayevlə birgə Kars vilayətində və Ardahan dairəsinə getmişdir. Onlar Sarıqamış, Mənçikərt, Qaraqurd, Başgöy, İrəvan və Naxçıvana baş çəkmiş, vəziyyətlə yerində tanış olmuşlar. Bundan sonra M.Cəfərov iyunun 10-da Petroqrada getmişdir.

M.Cəfərovun bu səfəri mətbuatda da əks olunmuşdur. "Baku" qəzeti yazırdı ki, azərbaycanlı deputat M.Cəfərov Qafqazda hərbi əməliyyatlar rayonunda olmuş, məluma toplamış, müsəlmanların ağır vəziyyəti haqqında Dövlət Dumasının sədri M.V.Rodzyankova təkcə faktları deyil, fəlakəti əks etdirən rəsmi sənədi də təqdim etmişdir. O isə bu məsələ barədə ali baş komandana, Nazirlər Şurasının sədrinə və hərbi nazirə müraciət etməyi M.Cəfərova məsləhət

görmüşdü. M.Cəfərov Nazirlər Şurasının sədri İ.Qoremıkinə müraciət etmişdi. Lakin İ.Qoremıkin bu işin mülki hakimiyyətin səlahiyyətində olmadığını bildirərək hər hansı tədbir görə bilməyəcini söyləmiş, M.Cəfərovun məruzənin ali baş komandana göndərilməsi təklifini bəyənmişdi. M.Cəfərov hərbi nazir V.A.Suxomlinov ilə görüşmüşdü. Uzun sürən söhbətdən sonra V.A.Suxomlinov M.Cəfərovun məruzəsi barədə imperatora məlumat verəcəyini söyləmişdi.

M.Cəfərovun inadkar müraciətləri səmərəsini vermişdir. Dövlət Dumasının 1915-ci il 20 iyul tarixli iclasında müsəlman fraksiyasının bəyanatını oxuyan M.Cəfərov bildirmişdir: "Rusiya çoxtayfalı dövlətdir və müsəlmanlar ölkədə sayca ikinci yer tuturlar. Müharibədə xalqların birliyi yalnız Batum və Kars vilayətlərində müsəlmanlara qarşı baş verən təzahürlər aradan qaldırıldıqdan sonra mümkün olacaqdır." M.Cəfərov həmçinin, daxili işlər naziri ilə görüşərək müsəlman qaçqınların qeydə alınması və vəsait ayrılması məsələlərini həll etmək üçün razılıq almışdır.

M.Cəfərov çıxışına görə seçicilərindən çoxlu teleqramlar almışdır. Hətta İstanbulda dərc edilən "Tərcuman" qəzeti onun bu fəaliyyətini yazaraq təqdir etmişdi. M.Cəfərov Qafqaz canişini qarşısında müsəlmanların problemlərini həll etmək məsələsini qaldırmışdır. Onun zəmanəti ilə müsəlman qaçqınları üçün Qafqaz cəbhəsində 90 min rubl avans ayrılmışdır. İlk olaraq Qafqaz Müsəlman Xeyriyyə Cəmiyyətdə 60 min rubl verilmişdir.

M.Cəfərov çarizmin köçürmə siyasətini tənqid edərək məmurların əhalini köçürərkən yerlilərin vəziyyətini nəzərə almadıqlarını, bunun da çox vaxt yerlilərlə köçürülənlər arasında toqquşmaya səbəb olduğunu, Qafqaz cəbhəsi və arxa zonalarda dinc müsəlman əhalisinin müdafiə olunmadığını, əmlaklarının talandığını, öldürüldüyünü bildirmişdir.

M.Cəfərov Sankt Peterburqda olduğu dövrdə ona bir deputat kimi Lənkəran balıqçıları, Şamaxı müəllimləri, müsəlman ruhaniləri müraciət etmişlər. O, əhalinin irəli sürdüyü məsələləri həll etmək üçün bir sıra dövlət idarələrinə və nazirliklərə getmişdir.



1917-ci il martın 9-da Müvəqqəti hökumətin təşəbbüsü ilə IV Dövlət Dumasının Zaqafqaziyadan olan deputatlardan ibarət Xüsusi Zaqafqaziya Komitəsi yaradıldı. Onun tərkibinə V.Xarlamov (rus), A.Çxenkeli (gürcü), K.Abaşidze (gürcü), M.Papaçanovla (erməni) yanaşı M.Cəfərov da daxil olmuşdur. M.Cəfərova bu yeni yaradılmış komitədə sənaye və ticarət işlərinə rəhbərlik etmək tapşırılmışdır.

1917-ci il aprelin 15-20-də Bakıda Qafqaz müsəlmanlarının qurultayı keçirildi. Qurultayda Tiflisdən gəlmiş M.Cəfərov da iştirak etmiş və təbrik nitqi söyləmişdir. O, inqilab münasibəti ilə azadlıq əldə etmiş müsəlmanları təbrik etmiş və onları birliyə çağıraraq qeyd etmişdir ki, köhnə çar rejimi əvvəldən çürümüş təməl üzərində qurulduğu üçün yıxıldı. M.Y.Cəfərov Rusiyada azadlığın əldə edilməsində əsgərlərin və fəhlə sinfinin roluna böyük qiymət verərək demişdir: "Mən sizin seçilmiş nümayəndəniz kimi bildirirəm ki, biz bir an da ununtmamalıyıq ki, Rusiyada azadlığı əsgərlər və fəhlələr qazanmışdır və onlar sizə öz qardaşları kimi baxır".

1917-ci il noyabrın 15-də Tiflisdə Y.Gegeçkorinin sədrliyi ilə müstəqil Zaqafqaziya hökuməti - Zaqafqaziya Komissarlığı yaradıldı. M.Cəfərov bu hökumətdə ticarət və sənaye naziri vəzifəsini tutmuşdur.

1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya Seymi işə başladı. Seymdə azərbaycanlı, gürcü və erməni nümayəndələri iştirak edirdilər. Artıq qeyd edildiyi kimi, buraya Azərbaycandan Müsavat Partiyasını və bitərəf demokratik qrupları təmsil edən 30 nəfər, o cümlədən, M.Cəfərov da seçilmişdir. Bu partiya və təşkilatlardan əlavə Müsəlman sosialist blokundan 7, İttihaddan 3, Hümmət Partiyasından 4 nümayəndə iştirak edirdi. Ümumiyyətlə, Zaqafqaziya Seymində 44 azərbaycanlı deputat var idi. Seymin Müsəlman fraksiyası fəaliyyət göstərirdi. M.Cəfərov onun üzvü olmuşdur. M.Cəfərov Zaqafqaziya Seyminin və müsəlman fraksiyasının iclaslarında dəfələrlə çıxış edərək, Zaqafqaziya xalqlarının dostluğu, arada olan ədavətin ləğvinə, əldə edilmiş azadlığı qorumağa çağırmış, Türkiyə dövləti ilə danışıqlara başlamağı və sülh sazişi bağlamağı təklif etmişdir.

İrəvan quberniyasında müsəlmanlara qarşı törədilən qırğınlar məsələsini yenicə yaradılmış Transqafqaz Seymi müzakirə etdi.

M.Cəfərovun məruzəsi dinlənildi. O, müsəlmanların ağır vəziyyətini faktlarla Seym üzvlərinin diqqətinə çatdırdı. Bundan sonar qərar layihəsi hazırlandı. Lomtatidze qərar layihəsini oxudu. M.Cəfərov layihəyə düzəliş təklifi ilə çıxış edərək bildirmişdir ki, İrəvan quberniyasındakı bu hadisələri mütəşəkkil dəstələr həyata keçirir, onlar hansısa intizama tabe edilməlidirlər.

1918-ci il mayın 26-da Zaqafqaziya Seyminin sonuncu iclasında Seymin buraxılması və Gürcüstanın müstəqilliyi elan edilməsi ilə əlaqədar olaraq mayın 27-də müsəlman fraksiyasının fövqəladə iclası çağırıldı. Özü iştirak etməsə də, M.Rəsulzadənin sədrliyi ilə Müvəqqəti Milli Şura və F.Xoyskinin sədrliyi ilə Milli Şuranın İcra Komitəsi təşkil edildi. İcra Komitəsinin tərkibinə M.Hacınski, N.Usubbəyli, X.Xasməmmədov və b. ilə birlikdə M.Cəfərov da seçilmişdir.

Müvəqqəti Milli Şuranın 1918-ci il mayın 28-də keçirilən iclasında Azərbaycanın müstəqilliyini bəyan edən akt qəbul olundu. İstiqlal bəyannaməsini imzalayan və bəyan edən 24 nəfərdən biri Məmməyusif Cəfərov olmuşdur. Həmin iclasda F.Xoyskinin elan etdiyi Azərbaycan hökumətinin tərkibində M.Cəfərov ticarət və sənaye naziri vəzifəsini tutmuşdur.

M.Cəfərov 1918-ci ilin iyun ayının axırlarından 1919-cu ilin martın ortalarına kimi Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasında diplomatik nümayəndəsi olmuşdur. O, bu vəzifədə Azərbaycan və Gürcüstan hökumətləri arasında dostluq əlaqələrinin yaradılmasında, keçmiş Zaqafqaziya Demokratik Federativ Respublikasının əmlakının bölüşdürülməsində, Azərbaycan, Ermənistan, Gürcüstanın hökumət və Avropa ölkələri nümayəndələri ilə söhbət və görüşlərdə, Azərbaycan, Gürcüstan və Dağlılar respublikalarının nümayəndələrinin Tiflis şəhərində keçirilmiş Zaqafqaziya konfransında yaxından iştirak etmiş və Azərbaycanla Gürcüstan arasında əlavə müvəqqəti kağız pul buraxılması haqqında müqaviləni imzalamışdır.

M.Cəfərov Cənubi Qafqaz dövlətləri arasında ərazi mübarizəsinin gerçək mahiyyətini xarici dövlətlərin nümayəndələrinə izah etmişdir. 1919-cu il yanvarın 25-də Tiflisdəki ingilis generalı, mülki-siyasi missiyanın rəisi Biç onun üçün qəbuluna gələrək, Azərbaycanın sərhədləri məsələsi ilə maraqlanmışdır. M.Cəfərov Azərbaycan sərhədləri barədə məlumat vermiş, bildirmişdir ki, türklər Aleksandropolda olduqları üçün Azərbaycan İrəvanı müvəqqəti olaraq ermənilərə güzəştə getmişdir. Biç isə ermənilərin İrəvansız yaşamalarının mümkünsüz olduğunu bildirmişdir.

1919-cu il aprelin 14-də Azərbaycan parlamenti N.Usubbəylinin sədrliyi ilə yeni Azərbaycan hökumətini təsdiq etdi. M.Cəfərov bu hökumətdə xarici işlər naziri vəzifəsini tutmuşdur.O, bu vəzifədə 1919-ci il dekabrın 22-nə kimi işləmişdir. M.Cəfərov bir diplomat kimi Azərbaycan Respublikasının mənafeyini qətiyyətlə müdafiə etməyə çalışmışdır. Bu, onun imzaladığı Gürcüstan və Azərbaycan Respublikaları arasında hərbi-müdafiə müqaviləsində, əlavə müvəqqəti kağız pulun buraxılması haqqında Azərbaycan, Ermənistan və Gürcüstan respublikaları arasında sazişdə, müsəlmanların vəhşicəsinə qırılması əleyhinə Ermənistan Xarici İşlər Nazirliyinə, müsəlman əhalisinin mənafeyinin müdafiə edilməsi, Azərbaycanın ərazi bütövlüyü, əmlakının qorunması barədə Böyük Britaniyanın Cənubi Qafqazdakı və Bakıdakı qoşunlarının komandanlarına göndərdiyi notalardan və s. aydın görünür.

M.Cəfərov xarici işlər naziri kimi Azərbaycan parlamentinin 1919-cu il iyunun 27-də 51-ci və avqustun 18-də 66-cı iclaslarında çıxış edərək Azərbaycan hökumətinin apardığı xarici siyasət, Gürcüstanla bağlanmış müqavilə, şimaldan general Denikin təhlükəsi ilə əlaqədar Gürcüstan hökuməti və Böyük Britaniyanın Cənubi Qafqazda olan komandanlığı ilə aparılan danışıqlar haqqında məlumat vermişdir.

1919-cu il dekabrın 2-11-də Bakıda Türk Demokratik Federalist Müsavat Partiyasının II qurultayı keçirildi. Qurultayda iştirak etmiş M.Rəsulzadə, M.Hacınski, N.Usubbəyli və b. ilə birlikdə M.Cəfərov da, qurultayın siyasi komissiyasına seçilmişdir.

1919-cu il dekabrın 14-21-də Bakıda azərbaycanlı-erməni konfransı keçirildi. Konfransda Azərbaycandan F.Xoyski, M.Hacınski, F.Vəkilov və M.Cəfərov iştirak etmişdir. M.Cəfərov konfransı giriş

nitqi ilə açaraq demişdir ki, müstəqil Gürcüstan, Ermənistan və Azərbaycan respublikaları yaranmasına baxmayaraq, onlar arasında həll edilməmiş mübahisəli məsələlər vardır, konfransı açaraq ümid edirəm, sizin ağır zəhmətiniz nəticəsində bu çətin məsələlər həllini tapacaq və hər iki xalq arasında dostluq əlaqələri möhkəmlənəcəkdir.

1920-ci il fevralın 2-də Azərbaycan parlamentinin 121-ci iclasında parlament sədrinin müavini H.Ağayevin xəstəliyi ilə əlaqədar olaraq vəzifəsindən getməsi nəticəsində yeni müavinin seçilməsi məsələsi müzakirə edilmişdir. Müzakirə zamanı M.Rəsulzadə Müsavat fraksiyası adından Azərbaycan parlamentinin sədrinin müavini vəzifəsinə M.Cəfərovu təklif etmişdir. Parlamentin 47 üzvü M.Cəfərovun lehinə, 5 üzvü isə əleyhinə səs vermişdir. Beləliklə, o, Azərbaycan parlamentinin sədrinin müavini seçilmiş və iclaslarına sədrlik etmişdir. Azərbaycan parlamenti onun sədrliyi altında AXC-nin ictimai, iqtisadi və mədəni inkişafına yönəlmiş qanunlar, qərarlar qəbul etmiş və sazişləri təsdiqləmişdir.

M.Cəfərov 1920-ci il aprelin 27-də parlamentin son iclasında gərgin müzakirədən sonra hakimiyyətin başda N.Nərimanov olmaqla Azərbaycan Müvəqqəti İnqilab Komitəsinə verilməsi haqqında qərarı imzalamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra M.Cəfərov Azərbaycan pambıqçılıq və şərabçılıq trestlərində hüquq məsləhətçisi vəzifəsində çalışmışdır. O, 1938-ci il mayın 15-də Bakıda vəfat etmiş və Sağan kəndində dəfn olunmuşdur. Bakıda onun adına küçə vardır.

***

– "Азербайджан", 1919, 4 декабря, №263.

– Адрес-календарь Азербайджанской Республики на 1920 г. Баку, 1920.

– Azərbaycan tarixi. C.2. Bakı, 1964.

– Azərbaycan tarixi. C.3. H.1. Bakı, 1973.

– Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti. 1918-1920. Bakı, 1990.

– Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). Баку, 1998.

– Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, 1998.

– Азербайджанская Демократическая Республика (1918-1920). Парламент (стенографические отчёты). Баку, 1998.

– Балаев А. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку, 1990.

– Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, 1993.

– "Kaspi" qəzeti, 1912, №238, 21 oktyabr; №240, 24 oktyabr; №280, 12 dekabr; 1913, №138, 21 iyun; 1915, 23 iyul, №163; 18 iyul, №183; 1917, 18 aprel №85.

– İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı, 1957.

– Qasımlı M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti 1914-1918-ci illər. 3 hissədə. 1-ci hissə (1914- cü il avqust – 1917-ci il oktyabr). Bakı, 2000.

– Qasımlı M. Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin şəxsi heyəti. Bakı, 2002.

– Государственная Дума. Четвёртый созыв. Стенографические отчёты 1912-1913 гг. Сессия первая. Ч. I, II, III. СПб. 1913.

– Государственная Дума. Четвёртый созыв. Стенографические отчёты 1913-1914 гг. Сессия вторая. Ч.I. СПб., 1914.

– Государственная Дума. Четвёртый созыв. Стенографические отчёты 1915 г. Сессия четвёртая. СПб., 1915.

– Государственная Дума. Четвёртый созыв. Стенографические отчёты 1916 г. Сессия четвёртая. СПб., 1916.

– Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər). Bakı, 1990.

– Закавказский Сеймь. Стенографический отчёт. I Сессия. Тифлис, 1918.

– Сеидзаде Д. Азербайджанские депутаты в Государственной Думе России. Баку, 1991.

## Nəriman Nərimanov

***28 aprel – 2 may 1920***



Azərbaycanın görkəmli dövlət və ictimai-siyasi xadimlərindən, yazıçılarından və diplomatlarından biri Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanov olmuşdur.

N.Nərimanov 1870-ci il aprelin 14-də Tiflis şəhərində anadan olmuşdur. O, 1885-ci ildə Tiflis müsəlman ruhani məktəbini bitirdikdən sonra Qori şəhərindəki Zaqafqaziya müəllimlər seminariyasına daxil olmuş, burada həvəslə biliklərə yiyələnməyə can atmışdır. Seminariyada Azərbaycan, rus və dünya ədəbiyyatı klassiklərini dərindən öyrənməyə başlamışdır.

1890-cı ilin iyun ayında Zaqafqaziya müəllimlər seminariyasını müvəffəqiyyətlə bitirən N.Nərimanov Tiflis quberniyasının Borçalı qəzasının Qızıl Hacılı kəndinə müəllim vəzifəsinə təyin edilmişdir. O, ilk dəfə olaraq burada kəndlilərin ağır, dözülməz həyatı ilə tanış olmuş və onların arasında mədəni-maarifçilik işi aparmışdır. O, "Nadanlıq" adlı ilk bədii əsərini bu kənddə yazmışdır.

N.Nərimanov 1891-ci ildə Bakıya gəlmiş, burada müəllimlik, maarifçilik fəaliyyətini davam etdirmişdir. Bakıda şəxsi gimnaziyada Azərbaycan və rus dilləri müəllimi işləmişdir.

N.Nərimanov Azərbaycanın qabaqcıl ziyalılarının köməyi ilə 1894-cü ildə Bakıda Şərqdə ilk ictimai xalq kitabxanasını – oxu zalını açmışdır. Onun fəaliyyəti nəticəsində kitabxana təkcə Bakı deyil, bütün Qafqaz ziyalıları və zəhmətkeşlərinin mədəniyyət mərkəzinə çevrilmişdir. Kitabxanada N.Nərimanovun rəhbərliyi altında əhali arasında aparılan mədəni iş məsələlərini müzakirə edən



iclaslar çağırılmış, yeni nəşr edilən əsərlər müzakirə olunmuş və yoxsul tələbələrə köməklik üçün tamaşalar göstərilmişdir.

1895-1901-ci illərdə N.Nərimanov Bakıda müəllimlik etməklə yanaşı, geniş bədii və ictimai-siyasi fəaliyyətə başlamışdır. O, bu dövrdə "Dilin bəlası ("Şamdan bəy")", "Bahadur və Sona", "Nadir şah" əsərlərini yazmış, tərcümələr etmiş, bir sıra məqalə, məruzə və mühazirələrlə çıxış etmişdir.

Təhsilə, elmə gənc yaşlarından həvəsi olan və daim ona can atan N.Nərimanov ali təhsil almaq üçün bir sıra çətinliklərlə üzləşmişdir. Gimnaziya müəllimi olmasına baxmayaraq, ali məktəbə daxil olmaq üçün attestat tələb olunurdu. Buna görə də o, 1902-ci ildə Bakı kişi gimnaziyasında ekstern imtahan verib attestat alaraq Odessa şəhərində Novorossiysk Universitetinin tibb fakültəsinə daxil olmuşdur.

1902-1908-ci illər N.Nərimanovun tələbəlik illəridir. Tezliklə müəllim və tələbələrin böyük hörmətini qazanan N.Nərimanov tələbə hərəkatında fəal iştirak etmiş və şəhərin liman fəhlələri arasında inqilabi iş aparmışdır. Onun tələbəlik illəri Rusiyada inqilabi mübarizənin gücləndiyi bir dövrə təsadüf etmişdir. Bu dövrdə o, istər Odessada, istərsə də tətillər vaxtı Bakıya gəldiyi zaman fəhlələr arasında inqilabi təbliğat işi aparmış, tələbələrin mitinq və toplantılarında nitq söyləmiş, 1905-ci ildə Bakıda Hümmət sosial-demokratik partiyasına daxil olmuş, İran sosial-demokratik partiyası olan Mücahidin yaradılmasında iştirak etmişdir. N.Nərimanov xalqının nicatını sosial-demokratiyada görmüşdür.

1906-cı ildə N.Nərimanov RSDFP proqramını Azərbaycan dilinə tərcümə etmişdir. Azərbaycan müəllimlərinin I qurultayının sədrlərindən biri seçilmişdir. O, qurultayda çıxış edərək müəllimləri xalqın azadlığı uğrunda mübarizəyə, məktəblərdə Azərbaycan dilində dərslər keçməyə və məktəb islahatı aparmağa çağırmışdır.

N.Nərimanov 1906-1908-ci illərdə fəaliyyətini "Kaspi", "İrşad", "Həyat", "Təkamül" qəzetlərində siyasi, ictimai və mədəni səpgidə yazdığı onlarla məqalələri vasitəsilə də aparmışdır.

1908-ci ildə Odessa Universitetinin tibb fakültəsini müvəffəqiyyətlə bitirən N.Nərimanov Bakıya gələrək şəhər xəstəxanasında

həkim işləməyə başlamışdır. O, ilk gündən gərgin ədəbi, ictimai və maarifçilik fəaliyyətinə başlamışdır. Lakin Bakıda çox qala bilməmişdir. Siyasi fəaliyyətinə görə polis təqiblərinə məruz qaldığından 1909-cu ilin yanvar ayında Tiflis şəhərinə gedərək müalicəxanaların birində işə düzəlmişdir. Az keçməmiş Tiflisdəki evində polis tərəfindən axtarış aparılmışdır. Axtarış zamanı polis çarizmin əleyhinə inqilabi sənədlər, İran Mücahid Partiyası MK-nın məktubunu, 1905-ci ildə Odessada tələbə çıxışları zamanı yazdığı respublikanın monarxiyadan üstünlüyü barədə referatının əlyazmasını və s. tapmış və N.Nərimanovu həbs edib, Metex qalasına salmışdır. 7 ay həbsdə saxlanılan N.Nərimanov 2 il müddətinə Həştərxan şəhərinə sürgün edilmişdir. Lakin burada da fəaliyyətini dayandırmamışdır.

1909-1913-cü illərdə N.Nərimanov Həştərxanda "Rusiya" sığorta cəmiyyətində həkim işləməklə yanaşı, fəal ədəbi və siyasi fəaliyyətini davam etdirmişdir. O, bu dövrdə "Şureyi-İslam" cəmiyyətinin üzvü seçilmiş, Həştərxan quberniyası həkimlərinin II qurultayında iştirak və çıxış etmiş, Həştərxan Xalq Universitetləri Cəmiyyətinin əvvəl sədrinin müavini, sonra isə sədri olmuş, 4 il müddətinə Həştərxan şəhər Dumasına seçilmiş və Dumanın məktəb komissiyasının üzvü təyin edilmişdir. Həştərxan müsəlmanlarının "Ağ gül" xeyriyyə bayramında iştirak etmələrinin təşkilatçısı olmuşdur. Eyni zamanda N.Nərimanov burada "Qadın məsələsi", "Səhiyyə və islam" kitablarını nəşr, "Qafqaz", "Prikaspiyskiy kray", "Astraxanskiy kray", "Kaspi" qəzetlərində müxtəlif səpgidə məqalələr dərc etdirmişdir.

N.Nərimanov 1913-cü il iyulun 15-də Bakıya qayıtmışdır. O, Bakının müalicəxanalarında həkim, şöbə müdiri və müdir vəzifələrində çalışmışdır. Eyni zamanda ədəbi və ictimai-siyasi fəaliyyətini davam etdirmişdir. "Nicat" Mədəni-Maarif Cəmiyyətinin pedaqoji şöbəsinin sədri seçilmiş, "Qənaət" kooperativinin təşkilində iştirak etmiş və I qurultayında onun sədri seçilmiş, "Xalq evi» Beynəlmiləlçi Mədəni-Maarif Cəmiyyətinin idarə heyətinin tərkibinə seçilmişdir. O, eyni zamanda, "Bakinets", "İqbal", "Yeni iqbal" və s. qəzetlərdə məqalələrlə, səhiyyənin müxtəlif sahələri üzrə və inqilabi mübarizənin genişləndiyi bir vaxtda isə əhali qarşısında çıxışlar etmişdir.



1917-ci ilin fevral ayında Rusiyada inqilabın qalib gəlməsi, çar monarxiyasının devrilməsi bədii əsərləri, məqalələri, ictimai və siyasi fəaliyyəti ilə daim xalq kütlələrini azadlıq uğrunda mübarizəyə çağıran N.Nərimanovu daha geniş və açıq siyasi mübarizə aparmağa ruhlandırmışdır. O, Hümmət təşkilatının təcili konfransında Müvəqqəti Komitənin sədri seçilmişdir.

1917-ci il aprelin 15-20-də Bakıda Ümumqafqaz müsəlmanlarının qurultayı keçirilmişdir. N.Nərimanov Hümmət Komitəsinin tapşırığı ilə qurultayda iştirak etmiş, M.Rəsulzadə, Ə.Topçubaşov, M.Hacınski və b. ilə birgə qurultayın Rəyasət Heyətinə seçilmişdir. O, çıxışında Azərbaycan fəhlə və kəndlilərinə, ümumiyyətlə, bütün Cənubi Qafqaz müsəlmanlarına müraciət edərək demişdir: «Siz rus inqilabının xarakterini başa düşməlisiniz. Soyğunçu müharibə olan dünya imperialist müharibəsindən sonra Rusiyada qələbə çalmış inqilab bütün dünyada inqilabın başlanğıcıdır. Hərgah siz bu bütün dünya inqilabi fırtınasında qərq olmaq istəmirsinizsə, Rusiya fəhlə və kəndlilərinin qızıl bayrağı altında sıx birləşin».

Bu illərdə N.Nərimanov dünya inqilabının olacağına inanırdı. Doğrudan da, Birinci Dünya müharibəsinin son mərhələsində bir çox ölkələrdə sosial-iqtisadi narazılıqlar artmış, onları inqilablar bürümüşdü. Müharibənin yekununda imperatorluqlar dağıldı. Rusiya, Avstriya-Macarıstan, Osmanlı və b. parçalandı.

N.Nərimanov 1917-ci ilin aprel-dekabr aylarında Hümmət təşkilat üzvlərinin iclaslarına sədrlik etmiş, komitəsinin sədri seçilmiş, onun redaktorluğu ilə "Hümmət" qəzeti dərc olunmuşdur. Bakı şəhər dumasına seçilmiş, Oktyabr çevrilişi münasibəti ilə Azadlıq meydanındakı mitinqdə çıxış etmiş, eyni zamanda Balaxanı, Sabunçu mədən fəhlələri xəstəxanasında, Ümumqafqaz tələbə cəmiyyətində siyasi vəziyyətlə əlaqədar məruzə etmiş, "Hümmət", "Bakinskiy raboçiy", "Kaspi" və s. qəzetlərdə məqalələri dərc olunmuşdur. O, bu məqalələrində və əhali qarşısındakı çıxışlarında rus inqilablarının Azərbaycan xalqının və bütün Şərq xalqlarının azadlığa çıxmasındankı böyük rolunu qeyd etmişdir.

1918-ci il martın 30-dan aprelin 1-dək Bakıda azərbaycanlılara qarşı soyqırım baş verdi. Başda S.Şaumyan olmaqla bolşevik-daşnak qüvvələri sovetləri möhkəmləndirmək pərdəsi altında qətliam törətdilər. Martın 30-da silahlı toqquşmaya rəhbərlik etmək üçün Bakı Sovetinin İnqilabi Müdafiə Komitəsi təşkil olundu. Onun tərkibinə S.Şaumyan, P.Caparidze, Q.Korqanov və b. ilə yanaşı N.Nərimanov da daxil olmuşdur. N.Nərimanov ilk gündən bu qanlı qırğının qarşısını almağa çalışmış, öz mənzilində S.Şaumyanın, M.Əzizbəyovun və b. bolşeviklərin iştirakı ilə müşavirə çağırmış və onlardan tezliklə bu əksinqilabi milli qırğının dayandırılmasını tələb etmişdir. Onun "Hümmət" qəzetində çap olunmuş "Bakı, 1 aprel", "Bizi aldatmışlar və aldadırlar" məqalələrində və "S.Şaumyana və Caparidzeyə" göndərdiyi açıq məktubunda onların daşnak silahlı qüvvələrindən istifadə etmələrini, müsəlmanlara-azərbaycanlılara qarşı düzgün siyasət yürütməmələrini və sovet hakimiyyəti ilə qorxutduqlarını kəskin tənqid edərək yazmışdır: "...Bu, sovet hakimiyyətinə ləkədir və adına xələl gətirir. Əgər Siz yaxın vaxtlarda bu qara pərdəni cırıb və bu ləkəni silməsəniz, bolşevik fikri və sovet hakimiyyəti burada qala bilməz.

Sizə məlumdur ki, silah gücünə əldə edilmiş hakimiyyəti xalq müdafiə etməsə, yaşaya bilməz".

N.Nərimanov bu dövrdə milli toqquşmanın qarşısını almaq üçün müsəlman sosialist partiyalarının bürosunu təşkil, Təzəpir məscidində Bakı əhalisinin mitinqində çıxış etmişdir. O, eyni zamanda "Hümmət" qəzetinin səhifələrində "Biz ayıq olmalıyıq", "Çağırış", "Bakı, 18 aprel", "İnqilab və əksinqilab, inqilabçılar və əksinqilabçılar" adlı məqalələrlə çıxış edərək Bakıda, istərsə də Azərbaycanın başqa yerlərində baş vermiş milli qırğın törədənləri kəskin tənqid etmiş və milliyyətindən asılı olmayaraq Azərbaycan zəhmətkeşlərini qardaşlığa, dostluğa və həmrəyliyə çağırmışdır.

Mart qırğınından sonra Bakıda sovet hakimiyyət möhkəmləndi. 1918-ci il aprelin 25-də Bakı fəhlə, əsgər və matros sovetinin iclasının qərarı ilə Bakı Xalq Komissarları Soveti yaradıldı. Azərbaycanda və bütün Zaqfaqaziyada ilk sovet hakimiyyəti olmuş Bakı Xalq Komissarları Sovetinin tərkibinə S.Şaumyan, P.Caparidze, İ.Fioletov və b. ilə yanaşı N.Nərimanov da daxil olmuşdur. Ona şəhər təsərrüfatı komissarı vəzifəsi tapşırılmışdır. N.Nərimanov ilk gündən komissar kimi şəhərin sanitar vəziyyəti ilə tanış olmağa başlamış, xəstəxanalara, məktəblərə, müəssisələrə getmişdir. Bakı dəmir yolunun ikinci stansiyasında məskunlaşmış Quba və Müğan qaçqınlarının vəziyyəti ilə tanış olmuş, əmək intizamını möhkəmləndirmək haqqında Şəhər Xalq Təsərrüfatı Komissarlığının əmrini imzalamışdır.

1918-ci il mayın 26-28-də Bakı qəzası kəndli deputatları sovetlərinin qurultayı keçirildi. N.Nərimanov bu qurultaya sədrlik etmiş, onu təbrik nitqi ilə açmış, ikinci iclasında hakimiyyət məsələsi haqqında məruzə etmişdir. O, məruzəsində qeyd etmişdir ki, indiki hökuməti hiss etmək üçün onun fəaliyyətinə nəzər salmalıyıq. Köhnə hökumət istibdad hökuməti idi, heç müstəbid istəməz ki, onun əlinin altında olan əhali gözüaçıq olsun. Sonra o, Rusiya inqilabının köhnə hökumətin iç üzünü açması və onu devirməsi, yeni hökumətin yaradılması haqqında kəndlilərə məlumat vermişdir. N.Nərimanov məruzəsində hakimiyyətin yeni hökumətə – bolşeviklərə keçdiyini qeyd edərək demişdir: "İxtiyar və hökumət biz bolşeviklərin, yəni, camaatın əlinə keçdi. Bu hökumət nə tələb edir? Bu hökumət çalışır ki, Rusiyada inqilab hiss olunsun, camaata yer verilsin, fəhlələr 8 saat işləsin, çox məvacib alsınlar,... fabriklər milliləşdirilsin". Qurultay Bakı qəzası Kəndli Deputatları Sovetinin 15 nəfərdən ibarət İcraiyyə Komitəsini seçdi. Onun tərkibinə M.Əzizbəyov, D.Bünyadzadə, M.Vəzirov ilə yanaşı N.Nərimanov da daxil olmuşdur.

Bakı Xalq Komissarları Soveti Azərbaycan xalqının maraqlarına zidd siyasət yürüdür, dinc türk müsəlman əhaliyə zülm edirdi. Belə bir vaxtda Gəncədə qurulan Qafqaz İslam Ordusu Bakı şəhərini yadellilərdən azad etmək üçün hərəkətə keçdi. Bakı Xalq Komissarları Soveti böhrana düşdü. N.Nərimanov 1918-ci ilin iyun ayında Bakıda sovet hakimiyyəti çətin vəziyyətə düşdüyü zaman ağır xəstələnmişdir. Onun xəstələnməsi haqqında "Hümmət" qəzeti məlumat vermişdir. N.Nərimanov xəstəliynin ağırlığına görə həkimlərin məsləhəti ilə Həştərxana getmişdir. Bakı Xalq Komissarları Soveti

iflasa uğramışdır. Onun yerinə qurulan yadelli Sentrokaspi diktaturası da süquta uğramışdır. 1918-1919-cu illərdə N.Nərimanov Həştərxan şəhərində fəaliyyət göstərmiş, Həştərxan Quberniya İcraiyyə Komitəsinin hərbi-sanitar, maarif şöbələrinin müdiri, Həştərxanda təşkil edilmiş Zaqafqaziya müsəlmanları işləri üzrə komissar vəzifələrində işləmişdir.

N.Nərimanov Hümmət təşkilatının Həştərxan bürosunu yaratmış və ona başçılıq etmiş, 1919-cu ilin mayından 1920-ci ilin mayına qədər Həştərxanda çap olunmuş "Hümmət" qəzetini redaktə etmişdir. N.Nərimanov Həştərxanda dəfələrlə müsəlman bolşevik əsgərləri, kommunistləri, qadınları, ruhaniləri, müəllimləri və fəhlələrinin iclaslarında, yığıncaqlarında, kurslarında müxtəlif mövzuda təbliğat xarakterli çıxış və məruzələr etmiş, onlara Rusiyada və bütün dünyada baş verən hadisələrdən ətraflı danışmışdır.

N.Nərimanov bu dövrdə Azərbaycan zəhmətkeşləri ilə əlaqə saxlamış və burada baş verən hadisələr haqqında məlumatlar almışdır. Onun yazdığı və imzaladığı "Zaqafqaziyaya biz nə şüarla gedirik", "Qafqaz fəhlə və kəndlilərinə" müraciətləri Bakıya göndərilmişdir. O, bu müraciətlərdə Qafqaz və Zaqafqaziya zəhmətkeşlərini xarici müdaxiləçiləri öz torpaqlarından qovmağa, fəhlə-kəndli hökuməti olan sovetləri qurmağa və kapitalist-mülkədar hakimiyyətinə qarşı çıxmağa çağırmışdır.

N.Nərimanov 1919-cu il iyun ayının sonlarında RK(b)P MK tərəfindən Moskvaya çağırılmış, ilk dəfə olaraq burada RSFSR Xalq Komissarları Sovetinin sədri V.İ.Lenin ilə görüşmüşdür. O, V.İ.Leninlə Qafqazda baş verən hadisələr, sovet hakimiyyəti uğrunda mübarizə problemləri, kommunistlərin fəaliyyəti, Şərqdə sovet hakimiyyəti və s. məsələlər haqqında ətraflı söhbət etmişdir. V.İ.Lenin ilk dəqiqələrdən hiss edir ki, onun həmsöhbəti Şərq məsələlərini dərindən və incəlikləri ilə bilən bir şəxsdir.

1919-cu ilin iyulundan – 1920-ci ilin may ayına qədər N.Nərimanov Moskvada müxtəlif vəzifələr daşımışdır: RSFSR Xalq Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin müdiri, RSFSR Xalq Milli İşlər Komissarının müavini və komissarlığın kollegiya üzvü. O, eyni zamanda bu dövrdə Moskvada keçirilən iclas və müşavirələrdə iştirak etmiş, məruzə və nitq söyləmişdir. Millətlər Komissarlığının müxtəlif məsələləri müzakirə etmiş bir sıra kollegiya iclasları onun sədrliyi altında keçmişdir. O dövrkü mətbuatda dərc olunmuş RSFSR xalq xarici işlər komissarı G.Çiçerin ilə birlikdə imzaladığı "Türkiyə fəhlə və kəndlilərinə", "Azərbaycan, Dağıstan və Gürcüstan kəndlilərinə", "İran fəhlə və kəndlilərinə" müraciətlərdə Türkiyə və İran zəhmətkeşlərini xarici müdaxiləçiləri ölkələrindən qovmağa, sultan və şah rejimini inqilab yolu ilə devirməyə, sovet Rusiyası ilə əlaqələr yaratmağa, azərbaycanlıları, gürcüləri və Dağıstan zəhmətkeşlərini əldə etdikləri azadlığı qoruyub saxlamağa, denikinçilərə qarşı mübarizəyə çağırmışlar.

1919-cu il noyabrın 22-dən dekabrın 3-dək Moskvada keçirilən Şərq xalqları kommunist təşkilatlarının II Ümumrusiya qurultayında N.Nərimanov iştirak etmiş və Tatar-Başqırd Muxtar Respublikasının yaradılması haqqında çıxış etmişdir. O, bu çıxışında qeyd etmişdir: "Sovet hakimiyyəti dəfələrlə hər bir xalqa müstəqillik vermək, muxtar respublika yaratmaq haqqında bəyanatlar vermişdir. Biz Tatar-Başqırd Muxtar Respublikasının yaranmasının əleyhinə deyilik, lakin onun sonralar burjua nümayəndələrinin əlinə keçməsindən qorxuruq. Bu məsələnin həllinə ehtiyala yanaşmaq lazımdır". Qurultay RK(b)P MK yanında Şərq xaqları kommunist təşkilatlarının Mərkəzi Bürosunun yeni tərkibini seçmişdir. N.Nərimanov RK(b)P MK Siyasi Bürosunun iclasında Şərq xalqları kommunist təşkilatlarının Mərkəzi bürosuna üzv seçilmişdir.

1920-ci il fevralın 11-12-də gizli şəraitdə Bakıda keçirilən Azərbaycan kommunist təşkilatlarının I qurultayında V.İ.Lenin və N.Nərimanov fəxri sədr seçilmişlər.

Aprelin 20-də N.Nərimanov Azərbaycana yola düşməmişdən əvvəl V.İ.Leninlə görüşmüş və bir saatdan çox söhbət etmişdir. O, V.İ.Leninə Azərbaycanın iqtisadi və siyasi vəziyyəti haqqında məlumat vermiş, Şərqdə, o cümlədən, Azərbaycanda sovet hakimiyyəti məsələləri haqqında fikir mübadiləsi etmişdir. Sonralar N.Nərimanov Bakıda iclasların birində bu söhbəti haqqında danışarkən qeyd

etmişdir ki, V.İ.Lenin mənə dedi, bizə ancaq Bakı və Xəzər sahili torpaqlar lazımdır. Mən isə cavabında dedim ki, nə Bakı Azərbaycansız, nə də Azərbaycan Bakısız yaşaya bilər.

Antanta ölkələrinin türk mülklərinə sahib olmaq və bolşevizmi beşiyində boğmaq niyyətləri istiqlal müharibəsi aparan Kamalçı Türkiyəni vətəndaş müharibəsi aparan və xarici hərbi müdaxiləyə məruz qalan sovet Rusiyasını müttəfiqə çevirdi. Antanta ölkələrinin Anadoluda qalib gəlmələri onların Cənubi Qafqaza doğru gedən yolunu açar, Azərbaycan neftinə sahib olmalarına, Xəzər dənizinə nəzarət qazanmalarına, Orta Asiyaya və Hind okeanına gedən yola yiyələnmələrinə, sovet Rusiyasının məğlubiyyətinə gətirərdi. Qarşılıqlı maraqlar 1920-ci il aprelin 23-də qurulan Türkiyə Böyük Millət Məclisi hökuməti ilə bolşeik Rusiyasını yaxınlaşdırdı. Bu yaxınlaşma Cənubi Qafqazda yeni geosiyasi vəziyyət yaratdı. Bolşevik Rusiyası Azərbaycanın müstəqilliyinə son qoydu.

Aprelin 27-də Azərbaycan Müvəqqəti İnqilab Komitəsi yaradıldıqda N.Nərimanov qiyabi olaraq onun sədri seçilmişdir. Aprelin 28-də Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin iclasında Azərbaycan SSR Xalq Komissarları Soveti təşkil edildi. Xalq Komissarları Sovetinin sədri və xalq xarici işlər komissarı vəzifələrinə N.Nərimanov təsdiq edilmişdir. N.Nərimanov hökumətin sədri olsa da, Azərbaycanda hakimiyyət əslində bolşevik ordusunun və Kommunist Partiyasının əlində olmuşdur.

Mayın 16-da N.Nərimanov Bakıya gəlmişdir. Qırmızı bayraqlarla və şüarlarla bəzədilmiş dəmiryol vağzalında böyük təntənə ilə qarşılanmışdır. Onu qarşılamağa gəlmiş şəhər əhalisi içərisində İnqilab Komitəsinin üzvləri ilə yanaşı məktəblilər, partiya və ordu nümayəndələri var idi. N.Nərimanov qatardan düşəndən sonra qısa nitq söyləyərək əhalini XI ordu və Moskva adından təbrik, Azərbaycan fəhlə və kəndli hökumətinin Şərq inqilabı üçün əhəmiyyətindən bəhs etmiş, Azərbaycan zəhmətkeşlərinin şimal qardaşları ilə birlikdə gələcəklərinə əmin olduğunu bildirmişdir. O, Azərbaycanın xoşbəxtliyini sovet Rusiyası ilə birlikdə görmüşdür.



N.Nərimanov 1920-ci il aprelin 28-dən 1922-ci il martın 12-ə kimi Azərbaycan İnqilab Komitəsinin, Azərbaycan SSR Xalq Komissarları Sovetinin və Müdafiə Şurasının sədri vəzifələrində çalışmışdır. O, Azərbaycanda sovet hakimiyyətinin ilk vaxtlarında daxili və beynəlxalq vəziyyətin gərginliyi ilə əlaqədar olaraq 1920-ci il aprel ayından may ayının əvvəllərinədək Azərbaycan xalq xarici işlər komissarı vəzifəsini də daşımış, sonralar bu vəzifəni müavini M.Hüseynov tutmuşdur. Bolşevik işğalına qarşı Azərbaycanda 20-ci illərin əvvəllərində baş verən üsyanların yatırılmasına N.Nərimanov hökumət başçısı kimi göstərişlər vermişdir.

N.Nərimanov Azərbaycana rəhbərliyə başladığı ilk gündən Azərbaycanın yeni istiqamətdə sovet quruluşunda tərəqqisi naminə gərgin fəaliyyət göstərmişdir. Onun İnqilab Komitəsinin digər üzvləri ilə birlikdə imzaladığı əhalini sovet hakimiyyəti ətrafında birləşmək, inqilabi qaydalara riayət, XI orduya yardım etmək, sovet quruculuğuna və onun möhkəmləndirilməsinə köməklik göstərmək, sovet Rusiyası ilə qardaşlıq ittifaqı yaratmaq haqqında müraciətləri dərc olunmuşdur.

N.Nərimanov Azərbaycan respublikasının tezliklə və hərtərəfli inkişafı və xalq təsərrüfatının bütün sahələrinin dövlətin əlində cəmlənməsi məqsədi ilə neft sənayesinin, Xəzər ticarət donanmasının, bankların, balıq sənayesinin, H.Z.Tağıyevin toxuculuq fabrikinin və s. milliləşdirilməsi barədə dekretləri imzalamışdır.

1920-ci il sentyabrın 1-7-də Bakıda Şərq xalqlarının I qurultayı çağırılmışdır. Qurultayda Avropa və Asiya ölkələrindən gəlmiş 1900-ə yaxın nümayəndə iştirak etmişdir. Qurultay müstəmləkə zülmü altında inləyən Şərq xalqlarının ingilis məmləkəçiliyinə qarşı mübarizədə birləşdirilməsində və dünya kommunist inqilabının başlanmasında bir vasitə kimi düşünülmüşdü. N.Nərimanov qurultayı Kommunist İnternasionalı İcraiyyə Komitəsi adından açaraq demişdir: "Yoldaşlar, Şərq xalqlarının dünyada görünməmiş, eşidilməmiş birinci qurultayını açmaq səadəti bu gün mənə nəsib olmuşdur...

Bu gün burada iki dünya görüşür: istismar olunanlar və istismar edənlər dünyası. Şübhə yoxdur ki, əgər istismar edənlər dünya-

sının nümayəndələri burjua sinfinin nümayəndələri olsaydılar, onda Qocaman Şərqin göz yaşları, bəlkə də təsirsiz qalardı. Lakin xoşbəxtlik bundadır ki, burada iştirak edən nümayəndələr məhz burjua ölkələrinin fəhlə sinfini təmsil edirlər, onlar başa düşürlər, bizə imkan verərlər ki, yaxın vaxtlarda III İnternasionalın ümumdünya hakimiyyətini təntənəli surətdə elan edək".

Qurultay özünün daim fəaliyyət göstərəcək icraiyyə orqanını – Təbliğat və Fəaliyyət Şurasını seçdi. Onun tərkibinə M.Hüseynov, S.Kirov, Q.Orconikidze, M.Sübhi, H.Əmioğlu, Y.Stasova və b. ilə yanaşı N.Nərimanov da daxil olmuşdur.

N.Nərimanov mili təmayüllü kommunist olmuşdur. O, Kommunist Partiyasının hökmranlığı şəraitində Azərbaycanın müstəqil olacağına inanırdı. Lakin mərkəzi hökumət Azərbaycanın mübahisəsiz ərazilərini Ermənistana verdikdə və Azərbaycan xalqına qarşı haqsızlıqlar etdikdə V.İ.Leninə etiraz dolu məktublar göndərmiş, "müstəqil sovet Azərbaycanı Sizin dilinizdən çıxmadımı?" sualını vermişdir.

N.Nərimanov sovetlərin Şərq siyasətində Azərbaycanın mərkəzi rol oynamasını Moskvada başa salmağa çalşmışdır. Lakin mərkəzi hakimiyyətin münasibəti onu xəyal qırıqlığına uğratmışdır.

1920-ci il sentyabrın 30 - oktyabrın 4-də N.Nərimanovun başçılığı altında partiya, dövlət rəhbərlərindən və fəhlə nümayəndələrindən ibarət komissiya Azərbaycanın Ucar, Göyçay, Gəncə, Qazax, Tovuz, Yevlax, Ağdam, Bərdə, Şuşa, Şəki, Kürdəmir və s. yerlərinə getmiş, şəhər zəhmətkeşləri və kəndlilərlə görüşmüşdür. O, getdiyi yerlərdə əhalinin vəziyyəti ilə tanış olmuş və onlar qarşısında çıxış edərək Azərbaycanda, ümumiyyətlə, bütün dünyada baş verən siyasi proseslər haqqında məlumat vermişdir. N.Nərimanov kəndliləri sovetlər ətrafında birləşməyə, sovet hökumətinin onlara verdiyi torpağı vaxtlı-vaxtında əkib-becərməyə və əsl sahibi olmağa, əksinqilabçılardan qorumağa, kənd məhsulları ilə Bakı fəhlələrinə yardım etməyə, sovet Rusiyası ilə dostluğa və qardaşlığa çağıraraq demişdir: "Sovet Rusiyası ilə birləşdikdən sonra biz neft anbarlarını boşaltmağa, istehsalatımızı artırmağa, fəhlələri saxlamaq üçün vəsait əldə etməyə... və azad sovet Rusiyasının azad sovet Azərbaycanının qarşılıqlı köməyi nəticəsində imkan tapdıq".

1920-ci il dekabrın 22-29-da Moskvada VIII Ümumrusiya Sovetlər qurultayı oldu. Qurultay məşhur QOELRO (Rusiyanın elektrikləşdirilməsi) planını qəbul etdi. Qurultayda ilk dəfə olaraq başda N.Nərimanov olmaqla Azərbaycan nümayəndələri də iştirak etmişdir. O, Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinə üzv seçilmişdir.

1921-ci il yanvar ayının əvvəllərində N.Nərimanov Moskvada olarkən sovet Rusiyasında yaşayan müsəlman xalqları kommunistlərinin müşavirəsi keçirilmişdir. Müşavirədə iştirak edən N.Nərimanov müşavirənin Rəyasət Heyətinə seçilmişdir.

1921-ci il mayın 6-19-da keçirilən I Ümumazərbaycan Sovetlər qurultayını giriş nitqi ilə N.Nərimanov açmışdır. O, qurultayın Rəyasət Heyətinə seçilmiş, bir neçə iclasına sədrlik və çıxış etmişdir. Qurultayda N.Nərimanov bir il ərzində Azərbaycan SSR hökumətinin fəaliyyəti və beynəlxalq şərait haqqında məruzə etmişdir. Qurultay 9 üzv və 3 namizəddən ibarət Rəyasət Heyətini seçdi. N.Nərimanov M.Hacıyev, S.Ağamalı oğlu və b. ilə birlikdə onun tərkibinə seçilmişdir. Azərbaycanın ilk konstitusiyasını təsdiq edən qurultay rəsmi olaraq N.Nərimanov başda olmaqla Azərbaycan SSR Xalq Komissarları Sovetinin tərkibini müəyyənləşdirmişdir. Mayın 21-də Azərbaycan SSR MİK I plenumunun I sessiyası keçirildi. N.Nərimanov iclası açarkən demişdir: "Fəhlə və kəndlilərin üstünlüyü ilə sovet respublikasının ali orqanını seçərək biz bütün Azərbaycan qarşısında, bütün Şərq qarşısında nəzərə çatdırırıq ki, burada hakimiyyət zəhmətkeşlərin öz əlindədir". Sessiya qurultay tərəfindən seçilmiş Azərbaycan SSR MİK Rəyasət Heyətini və N.Nərimanov başda olmaqla Azərbaycan SSR XKS-i təsdiq etmişdir.

1921-ci il iyulun 19-da Azərbaycan SSR MİK Rəyasət Heyətinin iclası oldu. İclas N.Nərimanovun sədrliyi ilə keçmiş və onun Zaqafqaziya respublikaları nümayəndələrinin Azərbaycan, Gürcüstan və Ermənistan arasında sərhədlərin müəyyənləşməsinə həsr edilmiş konfransın yekunları haqqında məruzəsini müzakirə etmişdir.

N.Nərimanov 1921-ci il noyabrın 15-16-da Azərbaycan SSR MİK Rəyasət Heyətinin və Azərbaycan SSR XKS iclasında iştirak etmişdir. İclasda "Zaqafqaziya respublikalarının vahid siyasi-iqtisadi ittifaqda birləşməsi" məsələsi müzakirə olunmuşdur. Rəyasət Heyəti N.Nərimanov başda olmaqla komissiya yaratmış və konstitusiya layihəsini hazırlamağı tapşırmışdır.

Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin nümayəndəliklərinin və konsulluqlarının işinə mərkəzi hakimiyyət mane olmuş, az sonra Azərbaycanın xarici ölkələrdəki nümayəndəlikləri də ləğv edilmişdir. Sovet hökuməti Ankaradakı Azərbaycan nümayəndəliyinin səfirliyə çevrilməsinə imkan verməmiş, onun fəaliyyətini məhdudlaşdırmış, daha sonra isə RSFSR nümayəndəliyinin tərkibinə bir nəfər texniki işçi olmaqla daxil etmişdir. Ölkədə vahid xarici siyasət xətti yürüdülmüşdür.

N.Nərmanovun rus-türk, sovet-Türkiyə dostluğuna çalışmış görkəmli diplomat olmuşdur. O, Azərbaycanın Ankaradakı nümayəndəsi İ.Əbilova yazdığı məktublarında türk dövlət adamlarına sovet-Türkiyə dostluğunun vacibliyini söyləməyi tövsiyə etmişdir. İstiqlal savaşında türklərin qələbəsinə sevinmiş, yardımlar etmiş, "qardaş qardaşa borc verməz" demişdir.

N.Nərimanov Bakıda həbs olunmuş ingilis və fransızların azad edilməsi məsələsinə dair Fransa və Böyük Britaniya hökumətlərinə teleqramlar göndərmişdir. Bakıda həbsdə olan ingilis və fransızları Maltada sürgündə olan türklərlə dəyişmək üçün məktublar yazmışdır.

1921-ci il dekabrın 30-da türk əlifbası komitəsinin I konfransı keçirilmişdir. Giriş sözü ilə konfransı açan N.Nərimanov yeni əlifbanın üstünlükləri və əhəmiyyətindən, ərəb əlifbasının nöqsanlarından danışaraq demişdir: "Hərgah biz indi bu əlifbaya keçməsək, o zaman 10 ildən sonra bu əlifba özü-özünə itəcək. Odur ki, indi keçməli və elə etməliyik ki, 10 ildən sonra olacaq zəhmətkeş ədəbiyyatını zəhmətkeş balaları oxuya bilsin".

1922-ci il yanvarın 27-də Moskvada çağırılmış I Ümumrusiya MİK fövqəladə sessiyasında İtaliyanın Genuya şəhərində keçiriləcək konfransa gedəcək nümayəndələr seçilmişdir. Nümayəndə heyətinin tərkibinə Azərbaycandan N.Nərimanov daxil edilmişdir.



1922-ci il martın 11-12-də Tiflisdə Azərbaycan, Gürcüstan, Ermənistan mərkəzi icraiyyə komitələrinin səlahiyyətli konfransında Zaqafqaziya Sovet Federativ Sosialist Respublikaları (ZSFSR) təşkil edilmişdir. ZSFSR-in Rəyasət Heyəti seçilmişdir. Onun tərkibinə N.Nərimanov da daxil olmuşdur. Sonra konfrans ZSFSR-in N.Nərimanov, A.Bekzadyan və P.Mdivanidən ibarət üç sədrini seçmişdir. Onlar növbə ilə Zaqafqaziyanın bütün işlərinə rəhbərlik etmişlər.

1922-ci il aprelin 10-dan mayın 19-dək İtaliyanın Genuya şəhərində Avropada iqtisadi və maliyyə məsələləri üzrə beynəlxalq konfrans keçirilmişdir. Konfransda sovet nümayəndə heyəti də iştirak etmişdir. Sovet dövləti hər bir respublikadan nümayəndə götürməklə Qərb ölkələrinə qarşı ittifaq qurmağı, bununla da beynəlxalq mövqelərinin gücləndiyini göstərməyi, təbliğat işləri aparmağı düşünürdü. Konfransda sovet nümayəndə heyətinin tərkibinə G.Çiçerin, L.Krasin M.Litvinov, A.İoffe, V.Vorovski, Y.Rudzutak, X.Rakovski, N.Nərimanov, P.Mdivani, A.Bekzadyan və A.Şlyapkin daxil idilər. Azərbaycan hökuməti N.Nərimanova bəyanat vermək, çıxış etmək və sənəd imzalamaq üçün səlahiyyətli vəsiqə-mandat vermişdir. Mandatda oxuyuruq: "Nəriman Nərimanov ümümsovet nümayəndələrinin tərkibində Azərbaycan Sovet Sosialist Respublikasının mənafeyini təmsil etməyə, Azərbaycan sovet hökuməti adından hər cür bəyanat verməyə, konfransda müzakirə olunacaq məsələlər üzrə qərarlar qəbul etməyə, Azərbaycan hökuməti adından saziş, müqavilə, konvensiya, müahidələr və s. bağlamağa vəkil edilmişdir".

N.Nərimanov aprelin 10-dan mayın 6-na kimi Genuya konfransında iştirak etmiş, vahid konsorsium qurmağa çalışan Qərb dövlətlərinin cəbhəsini parçalamaq istəyən sovet nümayəndələrinin mövqeyində durmuş, Bakı neftinə sahib olmaq cəhdlərini rədd etmişdir. N.Nərimanovun fikrincə, ayrı-ayrılıqda konsessiyaların verilməsi təsərrüfatın inkişafına və əhalinin vəziyyətnin yaxşılaş-

masına kömək edərdi. V.İ.Lenin də belə mövqedə olmuşdur. İ.V.Stalin isə konsessiyalarla birgə Qərb agenturasının ölkəyə gələcəyini, əhalinin burjua ideologiyasının təsiri altında düşəcəyini əsas gətirərək, onun əleyhinə olmuşdur.

N.Nərimanov Genuya konfransından sonra bir sıra qəzetlərin müxbirlərinə müsahibələr vermiş, konfrans, qurultay, iclas və müşavirələrdə çıxış edərək konfrans, sovet nümayəndələrinin mövqeyi haqqında məlumatlar vermiş və yazdığı "Əqil sərmayənin cəngində", "Qenuya, 10 aprelya 1922 q." məqalələrdə hərtərəfli izah etmişdir. N.Nərimanov sonralar ziyalı, fəhlələ və kəndlilərin bu məsələyə marağını nəzərə alaraq müsahibə, bəyanat, çıxış və məqalələrini bir yerə toplayıb ""Genuya" nədir?" adlı altı fəsillik kitabça hazırlasa da, nəşr etdirə bilməmişdir. Kitabça Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivində N.Nərimanov fondunda saxlanılır.

1922-ci il noyabrın 8-də Bakıda böyük Azərbaycan satirik şairi M.Sabirin heykəli qoyulmuşdur. Onun açılışında Azərbaycanın dövlət və ictimai xadimləri, ziyalılar və tələbələr iştirak etmişdir. Bu vaxt Bakıda olan N.Nərimanov da heykəlin açılışında iştirak etmiş və nitq söyləmişdir. O, M.Ə.Sabirin yaradıcılığına böyük qiymət verərək yalnız fəhlə və kəndli hökuməti tərəfindən ona heykəl qoyulduğunu qeyd edərək demişdir: "Sabir Nikolay hökumətinin ən qorxulu günlərində heç kəsdən qorxmayıb özünün kəndli və fəhlə tərəfdarı olduğunu hamıya bildirirdi. Öz şerləri və yazıları ilə kəndlilərin və fəhlələrin haqqlarını müdafiə edirdi... Buna görə heç kəs təəccüb etməsin ki, ilk dəfə Sabiri yad edən və ona yadlıq (heykəl) dikəldən biz kəndli və tərəfdarı oldu!"

1922-ci il dekabrın 10-13-də Bakıda I Zaqafqaziya Sovetlər qurultayı toplandı. N.Nərimanov qurultayı giriş nitqi ilə açaraq demişdir: "Bu təntənəli tarixi gündə bütün Zaqafqaziya zəhmətkeşlərinin ürəkləri sevinclə döyünür, çünki bu gün elə bir evin təməli qoyulur ki, həmin evdə Zaqafqaziyanın bütün zəhmətkeşləri öz kədər və sevinclərini bölüşdürəcəklər...



Bu gün biz buradan bütün dünya zəhmətkeşlərinə var səsimizlə qışqırmalıyıq ki, zəhmətkeşlərin öz məqsədlərinə doğru getmək istədikləri yol biz, Zaqafqaziya zəhmətkeşləri tərəfindən tapılmışdır".

N.Nərimanov sonra qurultayın ikinci iclasında ZSFSR-in fəaliyyəti haqqında rus və Azərbaycan dillərində məruzə etmiş, birinci iclasın sədri olmuş, Zaqafqaziya MİK üzvü və Ümumrusiya qurultayına nümayəndə seçilmişdir.

1922-ci il dekabrın 30-da SSRİ I Sovetlər qurultayı çağırıldı. Qurultayda RSFSR, Ukrayna, Belarusiya və ZSFSR birləşərək SSRİ-ni yaratdılar. Qurultay SSRİ-nin ali qanunverici orqanını – SSRİ MİK-i seçdi. 1923-cü il yanvarın 2-də SSRİ MİK-in birinci sessiyası oldu. Sessiya SSRİ MİK Rəyasət Heyətinin və SSRİ-nin yaradılmasında iştirak edən respublikaların sayına görə SSRİ MİK-in dörd sədrini – M.Kalinin, N.Nərimanov, Y.Petrovski, A.Çervyakovu seçmişdir.

1923-1925-ci illərdə N.Nərimanov Moskvada SSRİ MİK sədrlərindən biri kimi fəaliyyət göstərmişdir. O, bu dövrdə SSRİ MİK Rəyasət Heyətinin bir sıra iclaslarına sədrlik və iştirak etmiş, dekret, qərar, sərəncam, müraciətlərin hazırlanması və verilməsində, SSRİ-nin ilk konstitusiyasının hazırlanmasında yaxından iştirak etmişdir. Eyni zamanda bu illərdə RK(b)P, Zak.ÖK, AK(b)P plenum, konfrans və qurultaylarında, SSRİ, ZSFSR və Azərbaycan sovetlər qurultaylarında iştirak etmiş, MK bürolarına, rəyasət heyətlərinə üzv seçilmiş, bir sıra iclaslarına sədrlik etmişdir.

1925-ci ilin fevral-mart aylarında Moskva, Tiflis və b. yerlərdə N.Nərimanovun ictimai, siyasi və ədəbi fəaliyyətinin 30 illiyi təntənə ilə qeyd edilmişdir.

Bununla belə, N.Nərimanov bir sıra sovet rəhbərləri və bəzi şəxslər tərəfindən mənəvi təqiblərə məruz qalmış, ona millətçi damğası vurulmuşdur.

N.Nərimanov Moskvada 1925-ci il martın 19-da axşam qəflətən vəfat etmişdir. Bəzi araşdırmaçıların yazdığına görə, onu Kremldə zəhərləmişlər. Martın 20-də xalqın vidalaşması üçün onun cənazəsi Sovetlər Evinin Sütunlu zalına qoyulmuşdur. Dəfni matəm

günü elan edilmişdir. Martın 23-də N.Nərimanov Moskvada Qızıl meydanda, V.İ.Lenin mavzoleyinin yanında İslam dini qaydalarına uyğun olaraq torpağa tapşırılmışdır. N.Nərimanov Müsəlman Şərqinin Qızıl meydanda dəfn olunan ilk nümayəndəsidir.

N.Nərimanov uzun illər boyu dövlət siyasi xadim olaraq unutdurulmuş, yalnız ədəbiyyatçı kimi təqdim edilmişdir. 50-ci illərin ortalarından etibarən münasibət tədricən dəyişməyə başlamış, dövlət və siyasi xadim kimi ona həsr edilmiş bəzi məqalə və əsərlər işıq üzü görmüşdür.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 70-ci illərin əvvəllərində Bakıda N.Nərimanova möhtəşəm abidə qoyulmuşdur. Ölkənin paytaxtında N.Nərimanovun adına rayon, prospekt və küçə vardır.

***

– Агасиев В. Одесские страницы. Баку, 1981.

– ARSSA, f.609, siy.1, iş 1-6, 9, 21.

– Azərbaycan tarixi. C.2. Bakı, 1964.

– Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Bakı, 1964.

– Azərbaycan tarixi. C.3.H.1. Bakı, 1973.

– Azərbaycan Sovet Ensiklopediyası. C.VII. Bakı, 1983.

– Əhmədov T. Nəriman Nərimanov. Bakı, 1982.

– Əhmədova F. Nəriman Nərimanov – ideal və gerçəklik (1920-ci il). Bakı, 1998.

– Əliyev H. Görkəmli dövlət və partiya xadimi Nəriman Nərimanov. Bakı, 1974.

– İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı, 1957.

– İbrahimov Z. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı, 1970.

– Həsənov H. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı, 2005.

– Казиев М. Нариман Нариманов. Баку, 1956; 1970.



– “Kaspi” qəzeti, 1917, 16 aprel, №84; 18 aprel, №85.

– Köçərli F. Nəriman Nərimanov. Bakı, 1965.

– Nəriman Nərimanov. Məqalələr və nitqlər. C.1. Bakı, 1971.

– Qasımlı M. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il - dekabr 1922-ci il). Bakı, 1998.

– Qasımlı M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, 1998.

– Məmmədov V. Nəriman Nərimanov. Bakı, 1957.

– Məmmədli Y. Nəriman Nərimanov. 1870-1925 (həyat və yaradıcılığının salnaməsi). Bakı, 1987.

– Нариманов Н. Избранные произведения. Т.1. 1890-1917. Баку, 1988.

– Нариманов Н. Избранные произведения. Т.2. 1918-1921. Баку, 1989.

– Первый Закавказский съезд Советов. Тифлис, 1923.

– I сессия Центрального Исполнительного Союза Советских Социалистических Республик. М., 1923.

## Mirzədavud Hüseynov

***2 may 1920 – dekabr 1921***
***Azərbaycan SSR xalq xarici işlər komissarı***
***yanvar 1923 – yanvar 1924***
***ZSFSR xalq xarici işlər komissarı***



Azərbaycanın dövlət və ictimai xadimlərindən biri də Mirzədavud Bağır oğlu Hüseynovdur. M.Hüseynov 1894-cü ilin mart ayında Bakı şəhərində ruhani ailəsində anadan olmuşdur. O, 1906-cı ildə ödənişsiz şəhər məktəbini bitirmiş və Bakı realnı məktəbinə daxil olmuşdur. Bu dövrdə baş vermiş Rusiya inqilabı onun dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır. Şəhərdə baş verən nümayiş və çıxışlar zamanı kapitalistlərin və çar jandarmasının nümayiş və mitinq iştirakçılarına qarşı cəza tədbirləri M.Hüseynovun hərəkata qatılmasında mühüm rol oynamışdır. O, məktəbdə gizli müsəlman (azərbaycanlı) şagird dərnəyi təşkil etmiş, sonra isə şəhərdəki müsəlman şagird dərnəklərini birləşdirmişdir. Bu dərnəklərin əsas məqsədi müsəlmanları çar hökumətinin zülmündən azad etmək idi. Dərnəklərdə siyasi mühazirələr oxunur, siyasi tarix öyrənilirdi.

1913-cü ildə Bakı realnı məktəbini müvəffəqiyyətlə bitirən M.Hüseynov Moskvaya gedərək Kommersiya İnstitutunun iqtisadiyyat fakültəsinə daxil olmuşdur. O, Moskvada oxuduğu dörd il ərzində əsas diqqətini siyasi iqtisadı və dövlət maliyyəsini dərindən öyrənməyə vermişdir. 1917-ci ilin may ayında tam kursu dinləmiş və bütün imtahanları verib Bakıya qayıtmışdır.



1917-ci ilin iyul ayında M.Hüseynov Müsəlman İctimai Təşkilatları Komitəsinə Bakı müsəlman tələbələri tərəfindən nümayəndə göndərilmiş və onun şurasına seçilmişdir.

M.Hüseynov 1917-1918-ci illərdə Bakıda müsəlman tələbələri arasında inqilabi iş aparmış, tələbə komitəsi yaratmış, Bakı Müsəlman Beynəlmiləl Partiya komitəsinin katibi olmuş, Bakı zəhmətkeşləri, Ağdaş və Kürdəmirdə qaçqınlar arasında inqilabi təbliğat aparmışdır.

1918-1919-cu illərdə M.Hüseynov Hümmət Partiyasının üzvü, sədr müavini, sonra isə sədri kimi Bakının müsəlman fəhlələri arasında iş aparmışdır. O, eyni zamanda bu dövrdə Azərbaycan Xalq Cümhuriyyəti Maliyyə Nazirliyində şöbə müdiri vəzifəsində çalışmışdır.

1919-cu il mayın 6-12-də Bakı proletariatının tətili baş verdi. Tətilin əsas səbəbi ingilis komandanlığının denikinçilərə su və dəmiryolu ilə silah göndərməsinə qarşı yönəlmişdi. Tətil zamanı bütün mədən, zavod, fabrik, elektrik stansiyalarında və s. yerlərdə işlər dayandırıldı. Tətilin təşkilatçılarından biri M.Hüseynov idi. AXC hökuməti tətilin təşkilatçılarını və fəal iştirakçılarını təqib və həbs etməyə başladı. Həbs olunacağından xəbər tutan M.Hüseynov gizli inqilabi fəaliyyətə keçmişdir. M.Hüseynov 1919-1920-ci illərdə Sabunçu, Balaxanı və Suraxanıda fəhlələr arasında gizli təbliğat və təşviqat işləri aparmışdır.

1920-ci il fevralın 11-12-də Bakıda gizli şəraitdə Azərbaycan kommunist təşkilatlarının I qurultayı keçirilmişdir. Qurultayın keçirilməsi və fəaliyyətində M.Hüseynov yaxından iştirak etmişdir. O, qurultayda hazırki şərait haqqında məruzə etmişdir. Qurultayın qəbul etdiyi qətnamədə yazılırdı: "Azərbaycan kommunist təşkilatlarının birinci qurultayı mövcud vəziyyətə dair edilən məruzəni dinləyib qeyd edir ki, Azərbaycan Respublikasının yaşadığı kəskin təsərrüfat və iqtisadi böhran, fəhlə və kəndlilərin son dərəcə ağır halı mövcud kapitalist və mülkədar üsul-idarəsinin labüd nəticəsidir və ancaq onu məhv etməklə aradan qaldırmaq olar". Qurultay AK(b)P MK-nın Ə.Bayramov, D.Bünyadzadə K.Ağazadə, V.Yeqorov,

Ə.Qarayev, B.Naneyşvili, H.Sultanov, Y.Rodionov, M.Pleşakov, A.Yusifzadə, M.Hüseynov və b. ibarət tərkibini seçdi. Fevralın 12-də keçirilmiş AK(b)P MK-nın birinci plenumu Büro və Rəyasət Heyəti seçmişdir. M.Hüseynov AK(b)P MK Rəyasət Heyətinin sədri təsdiq edilmişdir. AK(b)P MK-nın ilk azərbaycanlı rəhbəri olmuş M.Hüseynov bu vəzifəyə seçildikdən sonra partiyanın sıralarının artması və təşkilatlarının sayının çoxalması sahəsində xeyli iş görmüşdür.

M.Hüseynov bu dövrdə RK(b)P Qafqaz Ölkə Komitəsinin təşəbbüsü ilə yaradılmış Hərbi inqilabi qərargahın sədri kimi digər inqilabçılarla bərabər AXC hökumətini devirəcək XI ordu komandanlığı ilə birlikdə ordu hissələrinin və Bakı fəhlələrinin birgə hərbi əməliyyatı planının tərtibində fəal iştirak etmişdir.

1920-ci il aprelin 26-da AK(b)P MK-nın və Bakı Bürosunun birgə təcili iclası keçirilmiş və üsyana rəhbərlik etmək üçün Azərbaycan Müvəqqəti İnqilab Komitəsi yaradılmışdır. Onun tərkibinə A.Əlimanov, D.Bünyadzadə, Ə.Qarayev, Q.Musabəyov, N.Nərimanov və H.Sultanovla birlikdə M.Hüseynov da daxil olmuşdur.

Aprelin 27-dən 28-nə keçən gecə AXC hökuməti işğal nəticəsində süqut etdi, Azərbaycan parlamenti buraxıldı, Azərbaycanda sovet hakimiyyəti təşkil edilməyə başlandı. Bu münasibətlə Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin əhaliyə etdiyi müraciətdə deyilirdi: "Müsavat Partiyasının hökuməti... bu gün hakimiyyəti Azərbaycan İnqilab Komitəsinə – Fəhlə, Kəndli və Əsgər Deputatları Sovetlərinin Ümümazərbaycan qurultayı çağırılanadək Azərbaycan Kommunist Partiyası tərəfindən yaradılan müvəqqəti fəhlə-kəndli hökumətinə təslim etdi".

Aprelin 28-də Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin iclasında yeni sovet hökuməti – N.Nərimanov başda olmaqla Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Soveti təşkil olundu. N.Nərimanov Azərbaycan XKS-nin sədri və xalq xarici işlər komissarı, M.Hüseynov XKS sədrinin müavini və xalq maliyyə komissarı vəzifələrinə təsdiq edildilər.



N.Nərimanov Bakıya gələnə kimi M.Hüseynov rəsmi olaraq istər Azərbaycan Müvəqqəti İnqilab Komitəsinə, istərsə də Azərbaycan SSR XKS-ə sədrlik etmiş, Azərbaycan MİK və Azərbaycan SSR XKS-nin verdiyi dekret və sərəncamları imzalamışdır.

1920-ci il mayın 5-də M.Hüseynovun sədr kimi ilk imzaladığı dekretlərdən biri Azərbaycan kəndlilərinin uzun illərdən bəri həsrətində olduğu torpağın onlara verilməsi haqqında olmuşdur. Dekretdə yazılırdı: "Xan, bəy, mülkədarların bütün torpağı, habelə bütün monastr, kilsə, vəqf və məscid torpaqları, bütün heyvanları və avadanlığı ilə birlikdə heç bir ödənc (açıq və ya gizli) alınmadan, torpaqdan bərabər istifadə prinsipi ilə zəhmətkeş xalqa verilir".

1920-ci il iyulun 20-dən sonra M.Hüseynov Moskvada olmuş, Rusiya ilə Azərbaycan arasındakı münasibətləri aydınlaşdırmış, hər iki sovet respublikası arasında qarşılıqlı münasibətləri nizama salmağa, Şərqdə görüləcək işlərin planını hazırlayıb əlaqələndirməyə çalışmışdır. O, yuxarıdakı məsələlər haqqında V.İ.Lenin və G.Çiçerin ilə hərtərəfli söhbətlər etmişdir. M.Hüseynov eyni zamanda, III İnternasionalın 29-31 iyul tarixində Moskvada keçirilən iclaslarında iştirak etmişdir.

Artıq qeyd edildiyi kimi, 1920-ci il sentyabrın 17-də Bakıda Şərq xalqlarının I qurultayı çağırıldı. Qurultayda Avropa və Asiya ölkələrinin 1900-ə yaxın nümayəndəsi iştirak edirdi. M.Hüseynov qurultayın nümayəndəsi olmuş və fəaliyyətində yaxından iştirak etmişdir. Qurultay özünün daim fəaliyyət göstərəcək icraiyyə orqanını – Təbliğat və Fəaliyyət Şurasını seçdi. Onun tərkibinə N.Nərimanov, S.Kirov, G.Orconikidze, M.Sübhi, H.Əmioğlu, Y.Stasova və b. ilə yanaşı M.Hüseynov da daxil olmuşdur.

1920-ci il oktyabrın 2-də Bakı Sovetinin sessiyası keçirildi. Sessiyanın gündəliyində birinci məsələ xalq xarici işlər komissarının "Çevriliş zamanından sovet Azərbaycanının xarici siyasəti haqqında" məruzəsi idi. Bu məsələ haqqında M.Hüseynov geniş və ətraflı məlumat vermişdir. O, məruzəsində sovet Azərbaycanının yaxın qonşuları olan Gürcüstan və Ermənistan, Azərbaycan neftinə böyük maraq göstərən Qərb dövlətləri ilə siyasi münasibətlərindən

ətraflı danışmışdır. Qeyd etmişdir ki, Tiflisdə olarkən ona Antanta dövlətlərinin nümayəndələri yaxınlaşmış və Azərbaycan üçün çox xeyirli mal mübadiləsi təklif etmişlər. Onlar Azərbaycan mazutunun əvəzində qatar, vaqon, sistern və s. verməyə hazır olduqlarını bildirmişlər. M.Hüseynov məruzəsində demişdir: "Bütün məsələ ondadır ki, biz öz neftimizə ancaq əmtəə kimi baxmırıq. Yox. Neft indi bizim qüdrətimizdir, ... təkcə mal əldə etməyə deyil, cənab imperialistlərə şərtlərimizi qəti surətdə təklif etməyə imkan verir".

M.Hüseynov sovet-türk yaxınlaşmasına çalışan şəxslərdən biri olmuşdur. O, 1921-ci ilin əvvələrində Bakıda TBMM nümayəndə heyəti ilə görüşmüş, sovet-türk dostluğunun və Azərbaycan-Türkiyə münasibətlərinin əhəmiyyəti barədə söhbətlər etmişdir. Türk nümayəndə heyətinin təqdim etdiyi Azərbaycan ilə Türkiyə arasında ayrıca müqavilə layihəsi mərkəzi hökumətin təzyiqləri nəticəsində imzalanmamışdır. M.Hüseynov bu məsələyə münasibət bildirərkən demişdir ki, biz qardaşıq, onu kağız üzərinə köçürmək lazım deyildir.

1921-ci il mayın 6-19-da I Ümumazərbaycan Sovetlər qurultayı oldu. M.Hüseynov qurultayın Rəyasət Heyətinə seçilmiş və gündəliyin 6-cı məsələsinə dair – "Xarici siyasət haqqında" məruzə etmişdir. O, məruzəsində bildirmişdir ki, Azərbaycan İnqilab Komitəsi çevrilişin ilk günündən sovet Rusiyası ilə birlikdə Antantanın simasında bütün imperialistlərə qarşı mübarizə aparacağını bəyan etmişdir. Sovet Rusiyası indi bizə köməklik göstərir, biz də inqilabı müdafiə etmək məqsədi ilə borcumuzu yerinə yetirərək sovet Rusiyasına neft göndəririk. Avropanın Litva, Estoniya, Almaniya, İtaliya, Finlandiya və s. ölkələri ilə dostluq müqaviləsi bağlanmışdır və demək olar ki, müstəqilliyimizi tanıyırlar.

M.Hüseynov Bakıdakı İran, Hollandiya, İsveç, Danimarka, sonra isə Litva və Estoniya nümayəndələri ilə görüşərək sovet Azərbaycanının həmin ölkələrlə hərtərəfli əlaqələr qurmağa hazır olduğunu bildirmişdir. Lakin mərkəzi hakimiyyət belə əlaqələrin qurulmasına imkan verməmişdir.



M.Hüseynov xalq xarici işlər komissarı kimi bir sıra dövlətlərə məktub, nota və teleqramlar göndərmiş, Tiflisdə ingilis və fransız nümayəndələri ilə əsirlərin dəyişdirilməsinə dair danışıqlar aparmış, Bakıdakı xarici ölkə nümayəndəlikləri, Azərbaycanın xaricdəki nümayəndəlikləri ilə yazışmışdır. 1921-ci il oktyabrın 13-də sovet Rusiyasının vasitəçiliyi ilə Türkiyə, Azərbaycan, Gürcüsan və Ermənistan arasında Kars müqaviləsinin imzalanmasında müəyyən rol oynamışdır. Kars konfransının keçirilməsi və müqaviləsinin imzalanması ilə bağlı RSFSR xalq xarici işlər komissarı G. Çiçerin və TBMM hökumətinin xarici işlər komissarı Yusif Kamal ilə yazışmışdır. Bununla belə, onun xalq xarici işlər komissarı işlədiyi müddətdə Azərbaycanın xarici ölkələrdəki nümayəndəlikləri ləğv edilmiş, Azərbaycanda fəaliyyət göstərən xarici dövlətlərin nümayəndəlikləri respublika ərazisindən çıxarılmışdır.

M.Hüseynov I Ümumazərbaycan Sovetlər qurultayında Azərbaycan MİK üzvü seçilmiş və Azərbaycan MİK-in mayın 21-də keçirilən I sessiyasında Azərbaycan XKS-nin tərkibinə daxil olmuş, xalq xarici işlər komissarı və Ali İqtisadi Şuranın sədri təsdiq edilmişdir. M.Hüseynov bu dövrdə Azərbaycanın əsas siyasi rəhbərlərindən biri kimi respublikada sovet hakimiyyətinin möhkəmləndirilməsi, sosialist tədbirlərinin həyata keçirilməsi, yeni sovet iqtisadiyyatı və mədəniyyətinin yaradılması uğrunda var qüvvəsi ilə çalışmışdır.

Azərbaycan SSR MİK 1922-ci il 15 may tarixli qərarı ilə XXİK-i ləğv etdi. Azərbaycan XKS isə iyunun 21-də bu barədə müvafiq qərar qəbul etdi.

1922-ci ildə Moskvaya çağırılan M.Hüseynov RSFSR milli işlər komissarının müavini vəzifəsində çalışmışdır. 1922-1929-cu illərdə bir sıra rəhbər vəzifələrdə işləmiş, ZSFSR XKS sədrinin müavini, xarici işlər komissarı və maliyyə komissarı olmuşdur. M.Hüseynov bu vəzifələrdə Zaqafqaziya respublikalarının sənayesi və kənd təsərrüfatının inkişaf etdirilməsini, maliyyə cəhətdən möhkəmləndirilməsi sahəsində xeyli əmək sərf etmiş, özünü böyük və bacarıqlı təşkilatçı kimi göstərmişdir. Bu dövrdə Zaqafqaziyada ağır

sənayenin və kimya sənayesinin inkişaf etdirilməsinə böyük diqqət yetirmişdir. O, qeyd edirdi ki, kənd təsərrüfatının səmərələşdirilməsi, yeni fabrik və zavodların tikilməsi kimya sənayesinin inkişafından asılıdır.

ÜİK(b)P MK M.Hüseynovu Moskvaya çağırmış və onu rəhbər partiya işinə göndərmişdir. O, 1931-1934-cü illərdə Tacikistan Kommunist Partiyası MK-nın birinci katibi vəzifəsində çalışmışdır. Tacikistanda iqtisadiyyatın, elm, təhsil və mədəniyyətin inkişafında müstəsna rol oynamışdır. Tacik xalqı birinci beşillikdə sənayeləşmə sahəsində bir sıra nailiyyətlər əldə etmişdir. O, Tacikistanın mərkəzi Stalinabadın elektrikləşdirilməsi və radiolaşdırılmasında, kollektivləşmənin genişlənməsində, savadsızlığın ləğvində xeyli iş görmüşdür.

M.Hüseynov ömrünün son illərində Moskvada işləmişdir. 1934-1937-ci illərdə o, RSFSR Xalq Maarif Komissarlığında qeyri-rus natamam və orta məktəblər idarəsi rəisinin müavini işləmişdir. O, SSRİ-də sənayeləşmə və kollektivləşmənin başa çatdığı bir dövrdə savadsızlığın tamamilə ləğv edilməsi və ümumi yeddillik təhsil sisteminə keçilməsi, yeni-yeni məktəblərin açılması sahəsində əzmlə çalışmışdır.

M.Hüseynov dəfələrlə AK(b)P MK, ÜİK(b)P MK Zaqafqaziya Ölkə Komitəsi, Orta Asiya bürolarının, Azərbaycan, ZSFSR, Tacikistan, SSRI MİK üzvü, plenum, konfrans, sessiya və qurultayların nümayəndəsi olmuşdur.

M.Hüseynov 1937-ci ildə repressiya edilərək öldürülmüşdür.

***


– ARSSA, f.1, siy.122, iş 206; f.268, siy.23, iş 182, 185, 186.

– ARDA, f. 28, siy.1, iş 1; f. 411, siy. 4, iş 43.

– Azərbaycanda sovet hakimiyyəti uğrunda fəal mübarizlər. Bakı, 1958.

– Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Bakı. 1964.

– Azərbaycan tarixi. C.3. H.1. Bakı, 1973.





– “Azərbaycan gəncləri” qəzeti, 1984, 26 aprel, №50.

– Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Bakı, 1986.

– Azərbaycan Sovet Ensiklopediyası. C.X. Bakı, 1987.

– “Бакинский рабочий” qəzeti, 1921, 8 may, № 102, 13 may, №107; 20 may, №113; 23 may, №115.

– “Kommunist” qəzeti, 1920, 16 avqust №89; 6 oktyabr, №130.

– İbrahimov Z. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı, 1970.

– Qasımlı M. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il - dekabr 1922-ci il). Bakı, 1998.

– Qasımlı M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, 1998.

– Нариманов Н. Избранные произведения. Т.2. Баку, 1989.

## Mahmud Əliyev

*sentyabr 1944 – 24 sentyabr 1958*



Mahmud İsmayıl oğlu Əliyev 1908-ci ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. O, 1926-cı ildə Bakıda orta məktəbi, 1931-ci ildə isə Azərbaycan Tibb İnstitutunun müalicə fakültəsini bitirmiş, gənc həkim kimi hökumət tərəfindən əlaçılar sırasında Azərbaycan rayonlarına işə göndərilmişdir.

1931-1936-cı illərdə Kəlbəcər və Cəbrayıl rayonlarında poliklinika müdiri, rayon xəstəxanasının baş həkimi, rayon səhiyyə şöbəsinin müdiri və s. vəzifələrdə çalışmış və özünü bacarıqlı həkim, səhiyyə təşkilatçısı kimi göstərmişdir. Cəbrayıl rayonunda dörd il işlədiyi müddətdə Rayon İcraiyyə Komitəsi Rəyasət Heyətinin üzvü olmuşdur.

1932-ci ildə Azərbaycan Dövlət Siyasi İdarəsi sərhəd qoşunlarının birində həkim işləmişdir.

1936-cı ildə Xalq Səhiyyə Komissarlığının qərarı ilə elmi iş üçün rayondan çağırılmışdır. 1936-1938-ci illərdə Azərbaycan Tibb İnstitutunun aspiranturasında oxumuş, Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı tibbi təhsil, elm və ali məktəb idarəsinin rəisi, Bakı səhiyyə şöbəsinin müdiri olmuşdur. 1937-ci ildə Naxçıvan MSSR Naxçıvan rayonundan SSRİ Ali Sovetinə keçirilən ilk seçkilərdə İttifaq Sovetinə deputat seçilmişdir. Tanınmış ictimai xadim olmuşdur.

1938-1943-cü illərdə M.Əliyev Azərbaycan Tibb İnstitutunun rəhbəri işləmişdir. O, bu vəzifədə elmi-tədqiqat, tələbələr arasında



tərbiyə işinin və təhsilin keyfiyyətinin yüksəlməsi sahəsinə böyük diqqət vermişdir. Elm və təhsil təşkilatçısı olmuşdur. M.Əliyev 1943-1944-cü illərdə Azərbaycan K(b)P MK-nın ali və orta məktəblər şöbəsinə başçılıq etmişdir.

1944-cü il yanvarın 28-dən fevralın 1-dək keçirilmiş SSRI Ali Sovetinin X sessiyasının qəbul etdiyi qanunlara əsasən xarici dövlətlərlə bilavasitə əlaqə saxlamaq, beynəlxalq əlaqələri daha da genişləndirmək məqsədi ilə müttəfiq respublikalarda xalq xarici işlər komissarlıqları təşkil edilməyə başlandı. Sovet rəhbərliyi bununla yaradılacaq Birləşmiş Millətlər Təşkilatına müttəfiq respublikaları üzv etməklə tərəfdarlarının sayını artırmaq məqsədi güdürdü. Bu dövrdə Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığı bərpa olunmuş və onun ilk komissarı M.Əliyev təyin edilmişdir. M.Əliyev ömrünün son gününə qədər Azərbaycan SSR xarici işlər naziri vəzifəsində çalışmışdır. O, bu vəzifədə Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi kimi bir sıra ölkələrlə iqtisadi və mədəni əlaqələrin yaradılmasında, beynəlxalq toplantı və müşavirələrdə SSRİ nümayəndə heyətlərinin tərkibində iştirak etmişdir. Lakin bu illərdə Xarici İşlər Nazirliyi yalnız formal olaraq fəaliyyət göstərmiş, real səlahiyyətləri olmamışdır. Respublika ölkənin beynəlxalq əlaqələrində mərkəzin vasitəsi və nəzarəti ilə iştirak etmişdir. Azərbaycan nümayəndələri sovet nümayəndə tərkibində xarici ölkələrə səfərlər etmişlər.

1953-il martın 5-də sovet rəhbəri İ.V.Stalinin ölümündən sonra ölkədə nisbi yumşalma baş verdi. Bundan sonra SSRİ-nin Şərq siyasətində Azərbaycanın rolu artmağa başladı.

M.Əliyev Azərbaycan xarici işlər naziri olmaqla yanaşı 1950-1953-cü illərdə Azərbaycan SSR səhiyyə naziri, 1953-1958-ci illərdə isə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru olmuşdur. O, Azərbaycanda səhiyyə işinin təşkili, yeni-yeni xəstəxana, poliklinika və s. səhiyyə ocaqlarının açılması, onların bilikli və bacarıqlı kadrlarla təmin edilməsi və gənc həkimlərin bilik və təcrübəsinin artırılması sahəsində xeyli iş görmüşdür. M.Əliyev tutduğu vəzifədən asılı olmayaraq xalqına xidmət etmiş, bütün bilik və

bacarığını, qüvvəsini Azərbaycanın daha da tərəqqisi və səadəti üçün sərf etmiş, özünü bacarıqlı, mədəni və qayğıkeş rəhbər kimi göstərmişdir.

M.Əliyev xidmətlərinə görə Qırmızı Əmək Bayrağı ordeni, iki dəfə Şərəf nişanı ordeni və müxtəlif medallarla təltif edilmişdir. Ona eyni zamanda SSRİ-nin fövqəladə və səlahiyyətli səfir dərəcəsi və Azərbaycanın əməkdar həkimi fəxri adı verilmişdir. M.Əliyev SSRİ Ali Sovetinin, Azərbaycan SSR Ali Sovetinin deputatı, plenum, konfrans, qurultay və sessiyaların nümayəndəsi olmuşdur.

M.Əliyev 1958-ci il sentyabrın 24-də Bakı şəhərində vəfat etmiş və Fəxri xiyabanda dəfn edilmişdir.

***


– ARSSA, f.1, siy. 405, iş 3167.

– Azərbaycan Sovet Ensiklopediyası. C.IV. Bakı, 1980.

– Qasımlı M. Azərbaycan Respublikası dünya meridianlarında (mədəni əməkdaşlıq). Bakı, 1992.

– Гасымлы М. Азербайджан в международных культурных связях (1946 – 1990) Тбилиси, 2005.

– "Kommunist" qəzeti, 1937, 29 oktyabr, № 250; 22 noyabr, № 269; 16 dekabr, № 289; 1938, 23 avqust, №195; 12 dekabr, №285; 1958, 25 sentyabr, №226.




## Tahirə Tahirova

***aprel 1959 – 23 noyabr 1983***



Azərbaycanın görkəmli ictimai, siyasi və dövlət xadimlərindən biri Tahirə Əkbər qızı Tahirova olmuşdur. O, 1913-cü il noyabrın 7-də Zakaspi vilayətinin (Türkmənistan) Bayraməli şəhərində müəllim ailəsində anadan olmuşdur. Tahirovlar ailəsi 1920-ci ildə Bakıya köçmüşdür. Tahirə xanım Bakıda məktəbə getmiş və 1929-cu ildə onu müvəffəqiyyətlə bitirərək Azərbaycan Neft İnstitutunun nəzdindəki fəhlə fakültəsinə daxil olmuşdur. 1935-ci ildə Azərbaycan Neft İnstitutunun dağmədən fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və Azərbaycan Elmi-Tədqiqat İnstitutuna elmi işçi göndərilmişdir.

Sovet Azərbaycanının 15 illiyinin təntənə ilə qeyd edilməsi münasibəti ilə 1936-cı ilin yanvar ayında Moskvada sovet partiya və hökumət rəhbərləri Azərbaycan nümayəndə heyətini qəbul etmişlər. Onlar arasında gənc neft mühəndisi T.Tahirova da var idi. Bakıya qayıtdıqdan sonra elmi işi bir kənara qoyub, bilavasitə istehsalatda çalışmağa başlamışdır. 1936-1937-ci illərdə o, neft mühəndisi kimi Bakının neft mədənlərində çalışmış, daha sonra elmi fəaliyyətini davam etdirmişdir. T.Tahirova 1937-1940-cı illərdə Azərbaycan Sənaye İnstitutunun neft yataqlarının istismarı kafedrasının aspirantı və assistenti olmuşdur. 1940-1942-ci illərdə Azərbaycan Elmi-Tədqiqat İnstitutunda çalışmış və respublika neft sənayesinin tərəqqisi, yeni-yeni elmi nailiyyətlərin və səmərəli təkliflərin, ixtiraların tətbiqi sahəsində xeyli iş görmüşdür. İstehsalatda və elmi işdə təcrübə qazanan T.Tahirova partiya işinə irəli çəkilmişdir.

O, 1942-1949-cu illərdə Azərbaycan K(b)P MK neft şöbəsi müdirinin müavini, MK katibinin neft üzrə müavini, Azərbaycan K(b)P Bakı Komitəsinin kadrlar üzrə katibi olmuşdur. T.Tahirova bu vəzifələrdə Azərbaycan neft sənayesinin hərtərəfli inkişafı, neft trestləri və mədənlərinin, neftayırma zavodlarının öhdəliyinə düşən vəzifələri və dövlət planlarını vaxtlı-vaxtında yerinə yetirməsi, "Azneft" birliyinin işgüzar, bacarıqlı mütəxəssislərlə – rəhbər işçilərlə, mühəndis-texniklərlə, ustalarla təmin edilməsi və düzgün yerləşdirilməsi, yeni-yeni təşəbbüs və yarışların tətbiqi, Bakının bəzi rayonlarının kadr şöbəsinin hesabatlarını müzakirə etmiş müşavirələrin keçirilməsi və onların müəyyənləşdirilməsi sahəsində var qüvvəsi ilə çalışmışdır.

T.Tahirova müsəlman dini ayinlərinə riayət etdiyini Azərbaycan K(b)P MK və hökumətindən gizlətdiyi üçün partiya töhməti almış və bütün vəzifələrindən uzaqlaşdırılmışdır. O, yenidən elmi-tədqiqat və müəllimlik işinə qayıdaraq 1949-1954-cü illərdə Azərbaycan Neft və Kimya İnstitutunun neft və qaz yataqlarının istismarı kafedrasının müəllimi işləmiş və gənc neftçi kadrların yetişdirilməsində fəaliyyət göstərmişdir. O, müəllimliklə yanaşı, dərs yükünün çoxluğuna baxmayaraq, "Orconikidzeneft" trestinin 8-ci mədəni üzrə tədqiqat işi apararaq 1953-cü ildə namizədlik dissertasiyasını müdafiə etmiş və texniki elmləri namizədi elmi dərəcəsini almışdır. Eyni zamanda o, 1954-cü ilin iyun ayında qiyabi olaraq Sov.İKP MK yanında Ali Partiya məktəbini bitirmişdir.

1954-1957-ci illərdə T.Tahirova Azərbaycan Həmkarlar İttifaqı Şurasının sədri olmuşdur. O, respublikada həmkarlar təşkilatlarının çoxalması və üzvlərinin sayının artmasına, istehsalatla əlaqələrinin daha da genişlənməsinə bilavasitə rəhbərlik etmiş, səmərəli təkliflərin və ixtiraların istehsalata tətbiqi, yarışların və zərbəçilik hərəkatının genişləndirilməsi, əhalinin sosial vəziyyətinin və istirahətinin yaxşılaşdırılması sahələrinə böyük diqqət vermişdir.

T.Tahirova 1957-1963-cü illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Elm və Texnika Komitəsinin sədri və Dövlət Elmi-Tədqiqat İşlərini Əlaqələndirmə Komitəsinin sədri vəzifələrində çalışmışdır. O, bu vəzifələrdə çalışdığı zaman elmin istehsalatla əlaqələrinin artmasına, yeni texnika və texnologiyaların bilavasitə istehsalata tətbiq olunmasına, istehsal proseslərinin avtomatlaşdırılması və mexanikləşdirilməsinin genişləndirilməsinə nail olmuşdur. Eyni zamanda yeni texnika və texnologiyaların işlənib hazırlanması məsələləri ilə şəxsən məşğul olmuşdur.

O, 1959-1983-cü illərdə Azərbaycan SSR xarici işlər naziri və Nazirlər Soveti sədrinin müavini (1963-1968) işləmişdir. T.Tahirova xarici işlər naziri kimi Azərbaycanın xarici ölkələrlə iqtisadi, elmi-texniki və mədəni əlaqələrinin ildən-ilə genişləndirilməsində, respublikanın sənaye və kənd təsərrüfatı müəssisələrinin SSRİ-nin xaricdəki ticarət-sənaye sərgi və yarmarkalarında öz mallarını nümayiş etdirməsində, Bakıda Bolqarıstan, Macarıstan, ADR, ABŞ və s. ölkələrin ixtisaslaşdırılmış sərgilərinin, Fransa, Danimarka, Portuqaliya, Avstriya və İtaliyada isə Azərbaycanın timsalında SSRİ günlərinin keçirilməsində, xarici diplomatlarla danışıqlar aparılmasında, BMT Baş Məclisinin XII, XXIII, XXX sessiyalarında sovet nümayəndə heyətləri tərkibində iştirak etmişdir. O, dünya ölkələrinin bu ali məclisində diplomat kimi iştirak etmiş ilk azərbaycanlı qadın olmuşdur. T.Tahirova 1960-cı ildə SSRİ nümayəndə heyətlərinin tərkibində Hindistan, Birma, İndoneziya və Əfqanıstanda, 1961-1962-ci illərdə isə SSRİ Qadınlar Komitəsi nümayəndə heyətlərinin tərkibində Tunis, Türkiyə və Əlcəzairdə səfərlərdə olmuşdur.

Azərbaycana səfər edən bəzi xarici ölkələrin nümayəndələri ona "nə üçün Təbrizdə Azərbaycanın konsulluğu yoxdur?" sualları vermişlər. Türkiyədən gələn bir sıra diplomatlar isə Bakıda Türkiyənin konsulluğunun açılmasının arzuedilən olduğunu bildirmişlər.

70-80-ci illərdə Azərbaycanın beynəlxalq iqtisadi, mədəni, elmi-texniki və b. əlaqələri xeyli artdı, coğrafiyası daha da genişləndi. Moskvanın vasitəsi və ciddi nəzarəti altında həyata keçirilən bu əlaqələrə bilavasitə Azərbaycan KP MK və beynəlxalq əlaqələr şöbəsi rəhbərlik edirdi. Həmin illərdə Azərbaycanda bir sıra beynəlxalq tədbirlər keçirildi. Heydər Əlievin rəhbərliyi altında Azərbaycan SSR müsəlman Şərqi ölkələri üçün model bir respublikaya çevrildi.

Xarici ölkələrin dövlət və siyasi xadimləri SSRİ-yə səfər edərkən Azərbaycana da gəlirdilər. 60-cı illərdə Türkiyə Böyük Millət Məclisi senatının sədri Suat Hayri Ürgüplü, baş nazir Süleyman Dəmirəl, Prezident Cövdət Sunay, 70-ci illərdə görkəmli siyasi-ictimai xadim Bülent Ecevit, 80-ci illərin əvvəllərində xarici işlər naziri İltər Türkmən Azərbaycana səfər etdilər. Onlar sovet sistemi şəraitində Azərbaycanın inkişafını xüsusi vurğulayır, SSRİ-Türkiyə münasibətlərində etibarlı körpü adlandırırdılar.

Azərbaycana səfər edənlər arasında İran şahı, Finlandiya Prezidenti və b. görkəmli dövlət adamları da var idi. İran ilə sərhədyanı ticarət qurulsa da, Mərkəz Türkiyə ilə belə əlaqələrin yaradılmasına icazə verməmişdir.

70-ci illərdə SSRİ XİN sistemində çalışan azərbaycanlı diplomatların sayı artdı. Təqribən 37 nəfər azərbaycanlı XİN-də diplomat olaraq işləyirdi.

T.Tahirova deputat kimi SSRİ Ali Sovetinin, Azərbaycan Ali Sovetinin sessiyalarında, siyasi xadim olaraq Azərbaycan Kommunist Partiyası Bakı Komitəsinin plenumlarında, konfranslarında iştirak etmiş, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin, AKP MK üzvü seçilmişdir. T.Tahirova Azərbaycanın ictimai həyatında fəal iştirakına görə Lenin ordeni, 5 dəfə Qırmızı Əmək Bayrağı, Şərəf nişanı, Xalqlar dostluğu ordenləri və bir çox medallarla təltif edilmişdir.

1991-ci il oktyabrın 26-da Bakıda vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

***


– ARSSA, f.1, siy. 80, iş 811.

– Azərbaycan SSR Ali Sovetinin deputatları. Səkkizinci çağırış. Bakı, 1973.

– Azərbaycan SSR Ali Sovetinin növbədənkənar yeddinci sessiyası. Stenoqrafik hesabat. Bakı, 1980.

– "Kommunist" qəzeti, 1969-1983.





– Qasımlı M. Bəşəriyyətin sağ qalması naminə. Bakı, 1991.

– Qasımlı M. Azərbaycan Respublikası dünya meridianlarında (mədəni əməkdaşlıq). Bakı, 1992.

– Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987). Bakı, 2006

– Qasımlı M. SSRİ-Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək). I cild. 1960-1979. Bakı, 2007.

– Qasımlı M. SSRİ-Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək). II cild. 1979-1991. Bakı, 2009.

## Elmira Qafarova

***1 dekabr 1983 – 22 dekabr 1987***



Azərbaycanın ictimai, siyasi və dövlət xadimlərindən biri Elmira Mikayıl qızı Qafarova olmuşdur. E.Qafarova 1934-cü il martın 1-də Bakıda qulluqçu ailəsində anadan olmuşdur. 1953-cü ildə orta məktəbi müvəffəqiyyətlə, 1958-ci ildə isə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. O, Universitetdə ən fəal tələbələrdən biri olmuş və Azərbaycan Dövlət Universitetinin komsomol komitəsinin katibi vəzifəsində işləmişdir. 1958-1961-ci illərdə E.Qafarova ADU-nun aspirantı olmuş və namizədlik dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsini almışdır.

E.Qafarova 1961-1962-ci illərdə Azərbaycan KP MK-da elm və ali məktəblər şöbəsində təlimatçı, 1962-1963-cü illərdə isə Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının katibi vəzifələrində çalışmışdır. Tezliklə respublika gəncləri arasında böyük hörmət və nüfuz qazanan E.Qafarova Azərbaycan LKGİ-nin birinci katibi seçilmişdir. O, bu vəzifədə 1966-1970-ci illərdə işləmiş, Azərbaycan gənclərinin ictimai həyatda, təhsildə, istehsalatda bilik və bacarıqlarının artırmaları, inkişaf etdirmələri sahəsində xeyli zəhmət çəkmişdir.

E.Qafarova Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin rəhbərliyi altında 1970-1971-ci illərdə Azərbaycan KP MK mədəniyyət şöbəsi müdirinin müavini, 1971-1980-ci illərdə isə Azərbaycan KP Bakı Komitəsinin ideologiya katibi işləmişdir. O, bu vəzifədə Bakı şəhərinin abadlaşdırılması, yaşıllaşdırılması, fəhlələrin, xüsusən, gənc fəhlələrin partiyanın ideoloji işinə cəlb edilməsi sahəsində səylər göstərmişdir.



1980-1983-cü illərdə Azərbaycan SSR maarif naziri vəzifəsində çalışan E.Qafarova Azərbaycanda maarifin inkişafında, məktəb şəbəkələrinin çoxaldılmasında, savadlı, bilikli, təcrübəli müəllimlərlə təmin olunmasında, uşaqların təhsilə cəlb edilməsində yaxından iştirak etmiş, bir sıra məktəb olimpiadalarının əsas təşkilatçısı olmuşdur.

E.Qafarova 1983-1987-ci illərdə Azərbaycan SSR xarici işlər naziri vəzifəsini daşımış, Avropa, Asiya və Afrikanın bir sıra ölkələri ilə siyasi, ictimai və mədəni əlaqələrinin genişləndirilməsi, bir-birinə nümayəndələr göndərməsində, beynəlxalq müşavirə, konfrans və sessiyalarda yaxından iştirak etmişdir. O, 1984-cü ilin oktyabr ayında BMT Baş Məclisinin XXXIX sessiyasının və onun komitələrinin iclaslarında iştirak və çıxış etmişdir. BMT Baş Məclisinin XXXIX sessiyasının üçüncü komitəsinin nümayəndələri irqçilik və irqi ayrı-seçkilik qalıqlarının kökünü kəsmək məsələlərini müzakirə etmişlər. Diskussiyada birinci çıxış edən E.Qafarova irqi ayrıseçkiliyi kəskin tənqid edərək demişdir: "Bütün sahələrdə irqi ayrıseçkiliyi şirnikləşdirənlər hansı demokratiyadan, hansı vətəndaşlıq hüquqlarından, siyasi və ya sosial-iqtisadi hüquqlardan danışa bilərlər".

E.Qafarova üçüncü komitənin "Beynəlxalq gənclər ili: iştirak, inkişaf və sülh" diskussiyasında çıxış edərək demişdir: "Gənclərin işsizliyi və qeyri-hüquqi vəziyyəti problemi bir sıra ölkələrdə ağır problemdir. Çox vaxt gənclər irqçiliyin, aparteidin və irqi ayrıseçkiliyin obyekti olur, onların əsas siyasi və sosial-iqtisadi hüquqları kobud şəkildə tapdalanır... BMT bunların həllinə daim diqqət yetirməlidir".

1987-1989-cu illərdə E.Qafarova Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsində çalışmışdır. O, bu vəzifədə də humanitar sahələrə – elm, mədəniyyət, maarif sahələrinə rəhbərlik etmişdir.

E.Qafarova 1989-1990-cu illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri olmuşdur. O, Rəyasət Heyətinin sədri kimi bir sıra iqtisadi və siyasi əhəmiyyətli sərəncam və qərarlarının verilməsində fəal iştirak etmişdir. 1989-cu il dekabrın 30-da Gəncə şəhərinin adının bərpa olunması və 1990-cı il martın 13-də Azərbaycan xalqının milli bayramı olan Novruz bayramının rəsmən qeyd edilməsi haqqında fərmanları E.Qafarova imzalamışdır.

Azərbaycanın siyasi və ictimai həyatının ağır və gərgin dövründə, erməni silahlı qüvvələrinin torpaqlarımızı işğala başladığı bir zamanda sovet qoşunları 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya soxularaq dinc adamları qətlə yetirdi. Bu vaxt E.Qafarova sovet rəhbərliyinin törətdiyi bu qanlı cinayətə etiraz bəyanatı ilə çıxış etmişdir. Həmin bəyanatda deyilirdi: "SSRİ Ali Soveti Rəyasət Heyəti tərəfindən respublikamızın Bakı şəhərində fövqəladə vəziyyət elan edilməsi ilə əlaqədar olaraq Azərbaycan xalqı, respublikanın bütün vətəndaşları adından qəti etirazımı bildirirəm... Tam məsuliyyət hissi ilə bildirmək istəyirəm ki, Azərbaycan SSR ali dövlət hakimiyyət və idarə orqanları SSRİ Ali Soveti Rəyasət Heyətinin belə bir qərarının qəbul olunmasına razılıq verməmişlər. Tökülən qan üçün bütün məsuliyyət bu qərarı qəbul etmiş və bilavasitə onun icrasını təmin etmiş SSRİ orqanları və onların vəzifəli şəxslərinin üzərinə düşür". Bu bəyanatı ilə kifayətlənməyən E.Qafarova 160 deputatın müraciəti ilə 1990-cı il yanvarın 21-22-də Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasını çağırdı və ona başçılıq etdi. Sessiya yanvarın 22-də E.Qafarovanın imzası ilə "SSRİ Ali Sovetinə, müttəfiq respublikaların Ali Sovetlərinə, Sovet İttifaqı xalqlarına, dünyanın bütün ölkələrinin parlamentlərinə, Birləşmiş Millətlər Təşkilatına Azərbaycan SSR Ali Sovetinin Müraciəti"ni qəbul etmişdir. Müraciətdə deyilirdi: "Bakının və bütün Azərbaycanın dinc əhalisinə qarşı misli görünməmiş dəhşətli cinayət törədilir. Helsinki və Vyana müqavilələrinin sənədlərini imzalayan... hüquqi dövlət yaratmaq iddiasında olan sovet dövləti qanunları tapdalayaraq... SSRİ Ali Sovetinin sanksiyası və respublikanın ali hakimiyyət orqanlarının razılığı olmadan yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycana qarşı təcavüz etmişdir... müxtəlif silah növlərindən (tanklardan, zirehli transportyorlardan, avtomat silahlardan, hərbi aviasiya və donanmadan) istifadə edərək elan olunmadan Bakı şəhərinə,...respublikanın digər rayonlarına hücum edib dinc əhalini, Bakıda fövqəladə vəziyyətin elan olunmasına və şəhərə qoşun hissələrinin girməsinə etiraz edənləri amansızcasına qırmışlar. Yüzlərlə ölən, minlərlə yaralanan və itkin düşənlər var...

Azərbaycan SSR Ali Soveti ölkə və dünya ictimaiyyətinə müraciət edərək onları Azərbaycan torpağında törədilmiş bu milli qırğın aktını pisləməyə çağırır".

1990-cı ilin may ayından respublikada prezident idarəçiliyinə keçildi, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti və onun sədri vəzifəsi ləğv olundu. E.Qafarova deputatlar tərəfindən Azərbaycan SSR Ali Sovetinin sədri seçildi. O, 1990-1992-ci illərdə Azərbaycan Ali Sovetinə sədrlik etmişdir. E.Qafarova yaranmış ağır şəraitə baxmayaraq, Ali Sovetin sessiyalarını müntəzəm çağırır, qoyulan məsələlərin həllinə və respublikanın tam müstəqil olmasına, beynəlxalq aləmdə tanınmasına və nüfuzunun artmasına çalışırdı. E.Qafarova Ali Sovetin sədri olduğu dövrdə Azərbaycan xalqı üçün tarixi əhəmiyyətli qərarlar qəbul olunmuş və hadisələr baş vermişdir. Məsələn, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin elan edilməsi; oktyabrın 29-da onun müstəqilliyinin tanınması haqqında dünya birliyinin üzvü olan dövlətlərin parlament və hökumətlərinə Ali Sovetin müraciəti; 1992-ci il martın 2-də Azərbaycan Respublikasının BMT-də qəbul edilməsi və s.

E.Qafarova dəfələrlə Azərbaycan SSR Ali Sovetinin deputatı, Azərbaycan KP MK və Bakı Komitəsinin üzvlüyünə namizəd və üzvü, ÜİLKGİ MK və ALKGİ MK üzvü olmuşdur. Azərbaycan Ali Sovetinin sessiyalarında, Azərbaycan KP və Bakı Komitəsinin, ÜİLKGİ və ALKGİ-nin plenum, konfrans və qurultaylarında iştirak etmişdir. O, bir ictimai və dövlət xadimi kimi iki dəfə Qırmızı Əmək Bayrağı və Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

E.Qafarova 1993-cü il avqustun 1-də Bakı şəhərində vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

***

– Azərbaycan SSR Ali Sovetinin deputatları. On birinci çağırış. Bakı, 1985.

– Azərbaycan Sovet Sosialist Respublikası Ali Sovetinin məlumatı, № 24, Bakı, 1987; №1-2, №5, Bakı, 1990;

– "525-ci qəzet", 2001, 20 dekabr.

– "Kommunist" qəzeti, 1968, 22 fevral, №44; 1970, 27 fevral, №48; 1984, 10 oktyabr, №234; 25 oktyabr, №246.

– Qafarova E. Amerika görüşləri. Bakı, 1986.

– Qasımlı M. Bəşəriyyətin sağ qalması naminə. Bakı, 1991.

– Qasımlı M. Azərbaycan Respublikası dünya meridianlarında (mədəni əməkdaşlıq). Bakı, 1992.

– Гасымлы М. Азербайджан в международных культурных связях (1946-1990). Тбилиси, 2005.

– Qasımov O. Bizim və sizin Balaxanı. Bakı, 2002.



## Hüseynağa Sadıqov

***23 yanvar 1988 – 29 may 1992***



Azərbaycanın görkəmli diplomatlarından biri Hüseynağa Musa oğlu Sadıqovdur. O, 1940-cı il martın 14-də Bakı şəhərində anadan olmuşdur. 1958-ci ildə Bakı şəhər 132 №-li orta məktəbi bitirmişdir. 1958-1963-cü illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun alman dili şöbəsində təhsil almışdır. 1962-ci ildən "İnturist"də işlər idarəsinin müavini, 1968-ci ildə Moskvada SSRİ Nazirlər Sovetinin nəzdində Ali Xarici Turizm kurslarını bitirmişdir. 1970-ci ildən Azərbaycan KP MK xarici əlaqələr şöbəsində təlimatçı işləmişdir. 1971-ci ildən Azərbaycan SSR Nazirlər Sovetində işləmişdir. 1974-cü ildən diplomatik xidmətdə olmuşdur. 1974-cü ildən Almaniya Demokratik Respublikasının Leypsiq şəhərində SSRİ konsulluğunda vitse-konsul, 1980-ci ildən ADR-in Rostok şəhərində SSRİ konsulluğunda konsul olmuşdur.

1988-ci il yanvarın 23-dən 1992-ci ilin may ayınadək Azərbaycan Respublikasının xarici işlər naziri vəzifələrində işləmişdir. 1989-cu ildə ona SSRİ-nin I dərəcəli fövqəladə və səlahiyyətli elçi müşaviri diplomatik dərəcəsi verilmişdir.

1991-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk xarici işlər naziri vəzifəsinə təyin edilmişdir. Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonrakı ilk yeddi ayda xarici işlər naziri olmuş, onun tanınması, ikitərəfli və çoxtərəfli əlaqələrinin qurulması üçün böyük səylər göstərmişdir.

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra Xarici İşlər Nazirliyi yenidən qurulmağa başladı, yeni idarə və şöbələr

yaradıldı. Azərbaycanın müstəqilliyini de-fakto olaraq bir çox dövlətlər tanımağa başladı. Bir sıra dövlətlər Azərbaycanda, o cümlədən, Azərbaycan Respublikası bir sıra dövlətlərdə səfirlik və konsulluqlarını açdı. Azərbaycan beynəlxalq və regional təşkilatlara üzv olmağa başladı. Azərbaycan Respublikası İslam Konfransı Təşkilatına, BMT-yə və b. üzv oldu.

H.Sadıqov Azərbaycan Respublikasının ATƏM-ə üzv olması üçün geniş diplomatik fəaliyyət göstərmişdir. Bu məqsədlə AFR və digər ölkələrin nümayəndələri ilə danışıqlar aparmışdır. ATƏM iştirakçısı olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 1992-ci ilin yanvar ayında keçirilən iclasında Ermənistanın Azərbaycana təcavüzünü dayandırmaq üçün çağırış etmişdir. O, İran, Türkiyə və b. ölkələrlə bir sıra ikitərəfli müqavilələr imzalamışdır.

1992-ci ildə ona Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli diplomatik dərəcəsi verilmişdir. H.Sadıqov 1992-ci ilin iyun ayında Azərbaycan Respublikasının AFR, İsveçrə, Hollandiya və Lüksemburqda fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir. O, Azərbaycan dövlətinin Avropa ölkələrində ilk səfiri olmuşdur. Azərbaycan ilə həmin ölkələr arasında siyasi, iqtisadi və mədəni əlaqələrin qurulması və inkişafı üçün xeyli səy göstərmişdir. Bir səfir kimi H.Sadıqov Ermənistanın Azərbaycan torpaqlarının işğalına son qoyması məsələlərində, Dağlıq Qarabağ probleminin həllində ölkəmizin ədalətli mövqeyinin Almaniya tərəfindən müdafiə edilməsində səmərəli fəaliyyət göstərmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin AFR-ə səfərinin təşkilində, Almaniya rəhbərliyi və rəsmi dairələri, işgüzar adamları ilə görüşlərinin keçirilməsində, ikitərəfli münasibətlərə dair çoxlu sənədlərin hazırlanması və imzalanmasında yaxından iştirak etmişdir. Almaniyadan Azərbaycana müxtəlif səviyyəli nümayəndə heyətləri səfər etmişdir. İki ölkə arasında işgüzar əlaqələr qurulmuş və inkişaf etdirilmişdir. H.Sadıqov Almaniya, İsveç, Hollandiya və Lüksemburqda Azərbaycan diasporasının formalaşmasına səylər etmişdir.

2004-cü ildən təqaüdə çıxmışdır.



***


– Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1991-1992.

– Azərbaycanda kim kimdir? Sorğu-məlumat kitabı. Bakı, Azərbaycan Ensiklopediyası NPB, 1999.

– Azərbaycan: Kim-kimdir? 2001. Bakı, Biznes aress nəşriyyatı, 2001.

– "Azərbaycan" qəzeti, 1992-2002.

– Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı, 2000.

– Qasımov M. Xarici siyasət: yenidənqurma, problemlər, mülahizələr. – "Azərbaycan gəncləri" qəzeti, 1988, 13 sentyabr.

– Orucov R., Qasımov M. Beynəlxalq həyat və sovet Azərbaycanı. – "Kommunist" qəzeti, 1989, 15 noyabr.

– Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996.

## Tofiq Qasımov

*29 may 1992 - 26 iyun 1993*



Tofiq Məsim oğlu Qasımov 1938-ci il aprelin 10-da Azərbaycan Respublikası Ağdaş rayonunun Ləki kəndində anadan olmuşdur. O, 1955-ci ildə 22 №-li Ağstafa dəmiryol orta məktəbini bitirmişdir. 1955-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuş və 1960-cı ildə oranı nəzəri fizika ixtisası üzrə bitirmiş, təyinat əsasında Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda işə başlamışdır. Orta məktəbdə və universitetdə dərs əlaçısı, universitetdə Stalin təqaüdçüsü olmuşdur. Aspiranturanı Leninqrad şəhərində A.F.İoffe adına Fizika-Texnika İnstitutunda "Bərk cisimlərin nəzəriyyəsi" laboratoriyasında bitirmişdir. 1969-cu ilin aprel ayında Leninqrad şəhərində SSRİ Elmlər Akademiyasının Yarımkeçiricilər İnstitutunda namizədlik dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsini almışdır. Elmi rəhbərliyi altında Fizika İnstitutunda üç namizədlik, bir doktorluq dissertasiyası müdafiə edilmişdir. 25 ümumittifaq və beynəlxalq elmi konfransda elmi məruzələrlə çıxış etmişdir. 100 elmi məqalənin müəllifidir. Onlardan 20-si Azərbaycanda, 80-i isə xarici jurnallarda çap olunmuşdur.

1987-ci ildən siyasi fəaliyyətə başlamışdır. Elmlər Akademiyasının bir qrup əməkdaşı ilə birlikdə əvvəlcə "Bakı Alimlər Klubu"nu yaratmışdır. Klubun və digər qurumların əsasında sonradan Azərbaycan Xalq Cəbhəsi təşkil edilmişdir. AXC-nin Təşəbbüs qrupunun və ilk idarə heyətlərinin üzvü, sədrin xarici əlaqələr üzrə müavini, AXC Məclisinin üzvü olmuşdur. 1989-cu ildən başlayaraq



deputatlarla iş aparmaq üçün dəfələrlə Moskvaya SSRİ Ali Sovetinin sessiyalarına ezam olunmuşdur. Baltik ölkələri xalq cəbhələri, Rusiya, Ukrayna və Belarusiya xalq hərəkatlarının nümayəndələri və xalq deputatları ilə sıx əlaqə saxlamışdır. Müstəqil Litva Ali Məclisinin 1-ci sessiyasında çıxış etmiş və AXC adından müstəqillik gününü təbrik etmişdir. Litva xalq hərəkatı- "Saydis"in qurultayının iştirakçısı olmuşdur.

Moskvada demokratik hərəkat və təşkilatlarının birləşdiyi "Qrajdanskoe deystvie" (Vətəndaş hərəkatı) təşkilatının Ali Şurasına, 1990-cı ilin iyun ayında Praqada "Demokratiya i nezavisimost" (Demokratiya və müstəqillik) beynəlxalq təşkilatının konqresində İdarə Heyətinə üzv seçilmişdir. Moskvada Kremlin "Manej" meydanında keçirilən antikommunist mitinqlərində dəfələrlə iştirak etmiş və nitq söyləmişdir.

1990-cı ilin fevral ayında Moskvaya ezam edilmiş və 100-dən artıq xarici agentlik nümayəndələri və müxbirlərlə görüş keçirərək 20 yanvar qırğını barədə məlumat vermişdir. Azərbaycan Respublikası Ali Sovetində 23 sentyabr 1989-cu ildə qəbul edilmiş Azərbaycan Respublikasının suverenliyi haqqında konstitusiya qanununun müzakirəyə çıxarılmasının təşəbbüskarlarından olmuş, onun hazırlanmasında Xalq Cəbhəsini təmsil etmiş, fəal iştirak etmiş və həmin qanunu Ali Sovetə təqdim etmək də ona tapşırılmışdır.

1991-ci ilin fevral ayında Azərbaycan Respublikası Ali Sovetində yaradılmış "Müstəqil Azərbaycan" deputat blokunun sədrlərindən biri olmuşdur. Əvvəllər Azərbaycan Respublikası Ali Sovetinin dövlət quruculuğu komissiyasının üzvü, sonra isə sədri olmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin yaradılması ilə dövlət quruculuğu və hüquq siyasəti komissiyasının sədri seçilmişdir.

1991-ci ilin avqust ayında "QKÇP" dövründə Rusiya Federasiyası Ali Sovetində və demokratik təşkilatlarla iş aparmaq üçün Moskvaya ezam edilmiş və danışıqlar aparmışdır. AXC-də "QKÇP"-ni qanunsuz dövlət çevrilişi cəhdi kimi pisləyən bəyanatın qəbul edilməsinin təşəbbüskarlarından olmuşdur.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin elan edilməsinin təşəbbüskarlarından və Azərbaycan Respublikasının müstəqilliyi haqqında konstitusiya aktının müəlliflərindən biridir.

1992-ci ilin may ayında xarici işlər naziri təyin edilmiş və 1993-cü il iyunun 26-dək bu vəzifədə çalışmışdır. Bu müddətdə Azərbaycanın 150-yə yaxın xarici ölkə ilə diplomatik əlaqələri qurulmuş, bəzi böyük dövlətlərin Azərbaycanda, Azərbaycanın bu dövlətlərdə səfirlikləri açılmışdır. Diplomatik dərəcələr haqqında qanun qəbul edilmişdir.

1994-cü il mayın 31-dək Milli Məclisin dövlət quruculuğu və hüquq siyasəti komissiyasının sədri vəzifəsini aparmışdır. Mayın 31-də Azərbaycan Respublikası Milli Məclisinin üzvlüyündən azad edilmişdir.

Xarici işlər naziri işlədiyi müddətdə Azərbaycanın MDB-yə daxil olmaması haqqında Milli Məclisin qərar verməsinə, Qəbələ Radiolokasiya Stansiyasının bağlanması haqqında qərar vermək məqsədi ilə komissiya yaradılmasına baxmayaraq, Rusiya ilə normal münasibətlər qurulmasına səylər edilmiş, dövlətlərarası müqavilə imzalanmış və bununla da Rusiya Azərbaycanın müstəqilliyini rəsmi surətdə qəbul etmişdir. 1992-ci il oktyabrın 12-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzalanmışdır. Lakin bu müqavilə ratifikasiya edilməmişdir.

T.Qasımov ABŞ Dövlət Departamentində dəfələrlə, bir dəfə Pentaqonda, bir neçə dəfə Konqresdə görüşlər keçirmiş və danışıqlar aparmışdır. Onun nazir işlədiyi müddətdə Azərbaycan Respublikası İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara dəniz İqtisadi Əməkdaşlığı Təşkilatı, Asiya və Sakit okean Əməkdaşlığı Təşkilatına və digər təşkilatlara üzv olmuşdur.

Azərbaycan bir çox beynəlxalq konvensiyalara, o cümlədən. İnsan haqqları bəyannaməsinə, Cenevrə konvensiyasına, Nüvə silahlarının yayılmaması haqqında konvensiyaya qoşulmuşdur. Kimyəvi və baktereoloji silahların qadağan olunması haqqında konvensiyaya T.Qasımov imza atmışdır.



BMT-nin 47-ci Baş Məclisində iştirak və məruzə etmişdir. BMT baş katibi ilə Azərbaycanda BMT-nin nümayəndəliyinin açılması haqqında sazişi imzalamışdır. Azərbaycan nümayəndə heyətinin başçısı kimi BMT-də əsas dövlətlərin və təşkilatların təmsilçiləri. Baş Məclisdə iştirak edən 25 dövlətin xarici işlər nazirləri və 5 dövlətin prezidentləri ilə ikitərəfli görüşlər keçirmişdir.

1992-ci il noyabr ayında ABŞ-ın əsas sığorta təşkilatı olan OPIC-lə "Azərbaycana sərmayə qoyacaq şirkətlərin və sərmayəçilərin iqtisadi risklərinin sığortalanması" haqqında sazişi imzalamışdır. ABŞ Ticarət Palatasının sədri ilə görüş keçirmişdir. İki ölkə arasında Azərbaycanın bəzi şərtlərini nəzərdə tutan yeni ticarət müqaviləsi imzalamaq təklif olunmuş, bir müddət sonra amerikan tərəfi buna razılıq vermiş və xarici işlər nazirinin ABŞ-a ikinci səfəri zamanı bu müqavilə imzalanmışdır.

1992-ci il mayın 22-25-də Lissabonda Avropa Birliyinin «Yeni yaranmış Müstəqil Dövlətlərə İqtisadi Yardım Proqramı»nın müzakirə edildiyi sammitdə çıxış edərək "bu gün bizə iqtisadi yardımdan daha önəmlisi Avropa Birliyinin bizim əsas problemimiz olan "Ermənistanın Azərbaycana təcavüzü və ərazilərimizin işğal edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpası" probleminin həllində yardım etməsidir" söyləmiş və Avropa Birliyindən bu istiqamətdə dəstək istəmişdir.

Lissabon sammitində iştirak edən ABŞ dövlət katibi Ceyms Beyker ilə görüş zamanı ondan Azərbaycanın haqq işinin ABŞ tərəfindən dəstəklənməsini, ATƏM çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində dayandırılmış danışıqların davam etdirilməsinə yardımçı olmasını, bu münaqişənin Rusiyanın mənafeyinə xidmət etməsi səbəbindən onun səylərinin neytrallaşdırılmasını və problemin həllini ABŞ-ın öz üstünə götürməsini Azərbaycan dövləti adından xahiş etmişdir. C.Beyker ABŞ-ın problemə ciddi yanaşdığını və bu istiqamətdə gərəkli addımlar atılacağını, yalnız Azərbaycan tərəfinin də atəşkəsin saxlanmasına çalışmasını rica etmişdir.

ABŞ-ın təşəbbüsü ilə ATƏM çərçivəsində danışıqlar prosesinə başlanmış və danışıqlar Azərbaycanın maraqlarına və ATƏT-in Minsk qrupunun mandatına uyğun aparılmışdır. ATƏM-in mandatına əsasən münaqişənin tərəfləri Azərbaycan Respublikası və Ermənistan Respublikası, Dağlıq Qarabağın azərbaycanlı əhalisi və erməni icması isə iki maraqlı tərəf kimi göstərilmişdir. İcma nümayəndələrinin işçi qrupların və Minsk qrupunun toplantılarında iştirak etmək və öz fikirlərini söyləmək hüququ olsa da, səsvermə hüququ olmamışdır.

Kəlbəcərin işğalına qədərki danışıqlarda ATƏM-in mandatına uyğun olaraq Minsk qrupunun vəzifələri əsasən aşağıdakılardan ibarət idi: Şuşanı erməni yaraqlılarından təmizləmək, dinc əhalinin daimi yaşayış yerlərinə dönməsini təmin etmək və oraya beynəlxalq nəzarətçilər gətirmək; Laçını erməni silahlı dəstələrindən təmizləmək, dinc əhalinin daimi yaşayış yerlərinə dönməsini təmin etmək və oraya beynəlxalq nəzarətçilər gətirmək; Azərbaycanın ərazi bütövlüyü bərpa edildikdən sonra Minsk konfransını çağırıb Dağlıq Qarabağın statusu məsələsini müzakirə etmək.

1993-cü il fevralın 29-da Romada ATƏM çərçivəsində aparılan danışıqların ikinci mərhələsinin yekunu olaraq ATƏM çərçivəsində bir komissiyanın yaradılaraq "Dağlıq Qarabağda yerləşdirilmiş ağır silahların mənşəyinin araşdırılması və onların yararsız hala gətirilərək məhv edilməsi haqqında" sazişi xarici işlər naziri T.Qasımov və Ermənistan xarici işlər nazirinin birinci müavini J.Libaridyan imzalamışlar. Sonradan danışıqlar İsveçin Cenevrə şəhərində daha iki mərhələdə davam etdirildi. Bu danışıqların nəticəsində Şuşa və Laçının erməni silahlı dəstələrindən təmizlənməsi və dinc əhalinin daimi yaşayış yerlərinə dönməsi şərtləri razılaşdırıldı və yeganə mübahisə obyekti kimi Laçın dəhlizinin statusu məsələsi qaldı. Ermənistan tərəfi bu dəhlizin beynəlxalq nəzarətə verilməsinin, Azərbaycan tərəfi isə bu dəhlizin Azərbaycanın nəzarətində olmasının, dinc erməni vətəndaşlarının və humanitar yardımların sərbəst buraxılması öhdəliyinin qəbul edilməsinin tərəfdarı idi.



Roma və Cenevrədə aparılan danışıqlarda Azərbaycan nümayəndə heyətinə xarici işlər naziri başçılıq etmişdir. Danışıqların üçüncü mərhələsinə başlamaq üçün Cenevrədə olan Azərbaycan nümayəndə heyəti erməni və rus birliklərinin Kəlbəcər rayonunu işğal etdikləri xəbərini aldı.

Azərbaycanın BMT-dəki daimi nümayəndəsi H.Həsənova BMT Təhlükəsizlik Şurasının sədrinə təqdim ediləcək sənəd göndərildi. Ertəsi gün H.Həsənov sənədi Təhlükəsizlik Şurasının sədrinə təqdim etdi. Beləliklə, 1993-cü il aprelin 6-da Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi məsələsi BMT Təhlükəsizlik Şurasının icraatına verilmiş oldu. Məsələ Təhlükəsizlik Şurasına verildikdən sonra aprelin 8-də T.Qasımov Nyu Yorka getmişdir. Həmin gün Təhlükəsizlik Şurasının sədri pakistanlı cənab Makoverlə görüşərək məsələnin Təhlükəsizlik Şurasının növbəti toplantısının gündəliyinə salınmasını rica etmişdir. Təhlükəsizlik Şurasının daimi və keçici üzvləri olan ölkələrin təmsilçiləri ilə görüşlər keçirərək problem barədə ətraflı məlumat verib, onlardan dəstək istəmişdir. BMT baş katibi və BMT yanındakı təşkilatlarının nümayəndələri ilə görüşlər keçirilmişdir.

T.Qasımov 1993-cü il aprelin 27-28-də yenidən Təhlükəsizlik Şurasının bütün üzvləri ilə təkrar görüşlər keçirərək onların razılığını almışdır. Aprelin 29-da Təhlükəsizlik Şurasının toplantısı keçirilmiş və aprelin 30-da BMT Təhlükəsizlik Şurasının 822 №-li qətnaməsi dünyaya bəyan edilmişdir. Qətnamədə erməni silahlı qüvvələrinin Azərbaycanın bütün işğal etmiş ərazilərini dərhal, qeyd-şərtsiz və tamamilə boşaltmaları tələb olunmuşdur.

BMT Təhlükəsizlik Şurasının 822 №-li qətnaməsinin icrası istiqamətində ilk addım olaraq ATƏM çərçivəsində Finlandiya nümayəndəsinin başçılığı ilə 60 nəfərdən ibarət müşahidəçi dəstəsi hazırlandı. Sonra Kəlbəcərin erməni yaraqlılardan təmizlənməsi haqqında saziş imzalandı. Sazişi Ermənistan Prezidenti L.Ter-Petrosyan mayın 8-də, Azərbaycan Prezidenti Əbülfəz Elçibəy isə mayın 12-də imzaladı. Sazişə görə, Kəlbəcər bölgəsi iyunun 14-dən 29-a qədər erməni silahlı dəstələrindən təmizlənməli, dinc əhali daimi

yaşayış yerlərinə dönməli və oraya beynəlxalq müşahidəçilər gəlməli idi. Lakin Gəncədə 4 iyun hadisəsi səbəbindən Azərbaycan tərəfi onların təhlükəsizliyinə təminat verə bilmədiyindən tezləşməsini tövsiyə etdi. Lakin bu istəyə nail olunmadı.

T.Qasımov 1993-cü il iyunun 26-da xarici işlər naziri vəzifəsindən azad edilsə də, Milli Məclisin komissiya sədri kimi çalışmış, bir sıra qanunların hazırlanması və qəbul edilməsində fəaliyyət göstərmişdir. Daha sonra o, siyasi-partiya və elmi fəaliyyətlə məşğul olmuşdur. T.Qasımov Türkiyənin müxtəlif elmi mərkəzlərində, universitetlərində və beynəlxalq proqramlarda çalışmışdır.

T.Qasımov xarici işlər naziri kimi Türkiyə, İran, Rusiya, Böyük Britaniya, ABŞ və s. ölkələrin rəsmi dövlət və hökumət adamları ilə görüşərək ikitərəfli münasibətlərin qurulması və inkişafına dair danışıqlar aparmışdır.

***


– Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1991-1993.

– "Azərbaycan" qəzeti, 1992-1993.

– Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996.

– Qasımlı M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997.




## Həsən Həsənov

***2 sentyabr 1993 – 16 fevral 1998***



Azərbaycanın XX əsr ictimai, dövlət və siyasi xadimlərindən, diplomat və alimlərindən olan Həsən Əziz oğlu Həsənov 1940-cı il oktyabrın 20-də Tiflis şəhərində anadan olmuşdur. 1958-ci ildə Tiflisdə 43 №-li orta məktəbi, 1963-cü ildə isə Azərbaycan Politexnik İnstitutunu bitirmiş və inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir. Bakı Ali Siyasi Məktəbini bitirərək politoloq ixtisası almışdır. Moskvada yuxarı dərəcəli məmurların ali kursunu (1969) və yuxarı dərəcəli siyasi xadimlərin ali kursunu (1981) bitirmişdir.

Müxtəlif siyasi və dövlət strukturlarında çalışmışdır. 1960-cı ilin oktyabrından Azərbaycan Politexnik İnstitutunun komsomol komitəsinin təşkilat məsələləri üzrə katibi və Bakı şəhəri Tələbə Şurasının sədri olmuşdur. 1961-ci ilin dekabrından Bakı şəhəri Oktyabr rayon komsomol komitəsində (indiki Yasamal r-nu) üçüncü katib, 1962-ci ildən Bakı şəhər komsomol komitəsinin təbliğat və təşviqat şöbəsində təlimatçı, Bakı şəhəri Oktyabr rayon komsomol komitəsində ikinci katib, Azərbaycan Komsomolu Mərkəzi Komitəsi texniki peşə məktəblərinin şagirdləri ilə iş üzrə şöbə müdiri, 1966-cı ildə inşaat materialları və konstruksiyası institutunda aspirant, 1969-cu ildə Moskvada komsomolun Mərkəzi Komitəsinin məsul təşkilatçısı, 1971-ci ildən təlimatçı, şöbə müdiri işləmişdir. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan KP MK-nın inşaat məsələləri üzrə şöbə müdirinin müavini, 1975-ci ildən Bakı şəhəri 26 Bakı komissarı rayonu (indiki Səbayil r-nu) partiya komitəsinin birinci katibi, 1978-ci ildən Sumqayıt, Kirovabad (indiki Gəncə) şəhər partiya komitələrinin birinci katibi,

1981-ci ildən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideologiya, inşaat və nəqliyyat, iqtisadiyyat məsələləri üzrə katibi işləmişdir. 1990-1992-ci illlərdə Nazirlər Sovetinin sədri, Azərbaycan Respublikasının baş naziri, 1990-1991-ci illərdə SSRİ Nazirlər Sovetinin üzvü, 1992-1993-cü illərdə Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi olmuşdur.

H.Həsənov Heydər Əliyevin sərəncamı ilə 1993-cü il sentyabrın 2-də Azərbaycan Respublikasının xarici işlər naziri təyin edilmişdir. 1993-cü ildə Azərbaycan Respublikasının ali məsləhətçi orqanı olan Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Şurasının üzvü olmuşdur.

O, 40 ilə yaxın Azərbaycanın dövlət və siyasi işlərində çalışmış, 1981-ci ildən 1992-ci ilə qədər Azərbaycanın ali rəhbərləri sırasına daxil olmuşdur.

1977-ci ildən 2000-ci ilədək Azərbaycan Respublikası Ali Sovetinin deputatı, 1977-1981-ci illərdə Azərbaycan Respublikası Ali Sovetinin komissiya sədri, 1979-1984-cü illərdə SSRİ Ali Sovetinin deputatı, SSRİ Ali Sovetinin inşaat komissiyasının üzvü olmuşdur. 1963-cü ildən 1980-ci ilədək Xalq Deputatları Sovetinin rayon və şəhər üzrə deputatı seçilmişdir. 30 ildən çox müxtəlif dərəcəli deputat olmuşdur. H.Həsənov qarşısına qoyduğu məsələlərin həllinə ciddi yanaşan, məqsədyönlü, gözəl natiq, daim irəli doğru addımlayan uzaqgörən şəxs olmuşdur.

H.Həsənov uşaqlıqda Tiflisdə azərbaycanlıların cəm halda yaşadıqları ərazidə böyümüş, Tiflis azərbaycanlılarının folkloru, adət-ənənələrini dərindən bilmiş, Tiflisin azərbaycanlılar yaşamayan məhəlləsində məktəbə getmiş, orada gürcü adət-ənənələrini də öyrənmişdir. Məktəb illərində gürcü, erməni, rus və yəhudi gəncləri arasında böyüyən H.Həsənov onların milli, dini və mənəvi xüsusiyyətlərini dərindən öyrənmişdir.

Bakıya gələn kimi şəhərdə və institutda gənclərlə qaynayıb qarışmış, tezliklə tələbə qrupuna rəhbər, il yarımdan sonra isə Azərbaycan Politexnik İnstitutunda komsomol komitəsinin katibi və on minlərlə tələbəsi olan Bakı şəhərində Tələbə Şurasının sədri seçilmişdir.



26 Bakı komissarı rayonuna rəhbərlik edən H.Həsənov işə dinamizm gətirmişdir. Topladıqları bilikləri az sonra Sumqayıtda da tətbiq etmişdir. Respublikada əsaslı tikinti işlərinə rəhbərlik edərək onu sistemli şəklə salmış, Nazirlər Sovetinin sədri olaraq, bu vəzifəni ənənəvi təsərrüfat funksiyalarından siyasi sahəyə çevirmişdir.

Tiflisdə müsəlman məscidlərinin dağılmasının şahidi olmuş H.Həsənov Azərbaycan Kommunist Partiyası Kirovabad şəhər komitəsinin birinci katibi işlərkən məscidləri, dini yerləri təmir və bərpa etdirmişdir. Ağır kommunist rejimi şəraitində məscidlərin bərpası və islam dininin qorunmasında xidmətləri olmuşdur. O, Məkkə və Mədinəni ziyarət etmiş ilk kommunist olmuş, müqəddəs Kəbədə dua oxumuş, Məşhəddə İmam Rzanın məzarını ziyarət etmişdir.

H.Həsənov azərbaycanlıların milli özünüdərkinin və milli birliyinin möhkəmləndirilməsinə, tarixi və mədəni irsinin dirçəldilməsinə töhfə vermişdir. Onun şəxsi təşəbbüsü və köməyi ilə "Azərbaycan renessansının problemləri" adlı toplu tərtib edilmiş və işıq üzü görmüşdür. O, Tiflis şəhərində Azərbaycan icmasının yaşadığı ərazidə Mirzə Fətəli Axundovun heykəlinin və ev-muzeyinin açılması istiqamətində səy göstərmişdir.

H.Həsənovun Gəncə şəhərindəki fəaliyyəti şəhər tarixinə renessans dövrü kimi daxil olmuşdur. Şəhərin tarixi imicinin bərpası istiqamətində xüsusi xidmətlərinə görə, onu "Gəncənin bərpasının müəllifi" kimi tanımış, fəal inşaat və tikinti işlərinə görə, xalq arasında məhəbbətlə "kərpic Həsən" adlandırmışlar. H.Həsənov Yeni Gəncə yaşayış məskəninin yaradılması ideyasının müəllifi və təşəbbüskarı, Yeni Gəncədə mərkəzi prospektin, iri memorial parkın və onun memarlıq-landşaft plan quruluşunun və Gənclər sarayı memarlığının, parkda onlarla monumental heykəlin, xüsusilə, Məhsəti, Mirzə Şəfi Vazeh, Üzeyir Hacıbəyov, Bülbül, Səməd Vurğun, Nizami və b.-nın heykəllərinin qoyulmasının təşəbbüsçüsü olmuşdur. Əvvəlcə şəhərin bir hissəsini Yeni Gəncə adlandırmış, bir ildən sonra isə ümumiyyətlə, rayonun adının rəsmi surətdə Gəncə adlandırılmasına nail olmuş və Azərbaycan rəhbəri Heydər Əliyevdən böyük dəstək almışdır. Ağır sovet rejimi şəraitində yüksək vəzi-

fələrdə çalışmasına baxmayaraq, adamların şüurunda böyük azərbaycansevər, millətsevər və qurucu olaraq qalmışdır. Bütün fəaliyyətinin başlıca mənası Azərbaycan xalqına xidmət olmuşdur.

H.Həsənov SSRİ tərkibində Azərbaycanın sonuncu baş naziri və müstəqil Azərbaycanın ilk baş naziri olmuşdur. Onun Türkiyənin baş naziri Məsud Yılmaz, Prezidenti Turqut Özal və parlament çoxluğunun *lideri Süleyman Dəmirəl ilə apardığı danışıqların nəticəsində* 1991-ci il noyabrın 9-da Türkiyə hələ SSRİ-nin mövcud olduğu bir dövrdə Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımışdır.

O, Azərbaycanda cəmiyyətin yenidən qurulması və demokratikləşməsi istiqamətində bir çox qanun, qərar və qətnamələrin işlənib hazırlanması və həyata keçirilməsində iştirak etmişdir. Azərbaycanda çoxpartiyalı sistemin formalaşmasının başlanğıcı olan siyasi təşkilat və cəmiyyətlərin qeydiyyatdan keçirilməsində qərarlar qəbul etmişdir. Azərbaycan Respublikası dövlət quruluşunun postittifaq konsepsiyasının müəlliflərindən biridir. SSRİ-nin rəhbərləri Mixail Qorbaçov və Nikolay Rıjkov ilə çoxsaylı görüşləri olmuşdur.

Azərbaycanın azad bazar iqtisadiyyatına keçirilməsi konsepsiyasının əsasını qoyanlardan və təşəbbüskarlarından biri olmuşdur. Parlamentə onun rəhbərliyi altında qanun layihələrinin toplusu təqdim edilmişdir. Azərbaycanın birbaşa xarici iqtisadi əlaqələrinin əsasını qoymuşdur. Azərbaycanda bazar iqtisadiyyatının və sahibkarlığın ilk tədbiri olan Bakıda 1991-ci ildə keçirilən iri beynəlxalq Biznes konqresin təşəbbüsü və təşkilatçısı olmuşdur. Biznes konqresdə dünyanın 48 ölkəsinin 450 kompaniyasından 750 biznesmen iştirak etmişdir. Türkiyə Prezidenti Turqut Ozal ilə birbaşa danışıqların nəticəsində 1990-cı ilin sentyabr ayında Qara dəniz İqtisadi Əməkdaşlığı təşkilatının təsisçi ölkələri siyahısına Azərbaycanın daxil edilməsi barədə prinsipial razılıq əldə olunmuşdur.

SSRİ tərkibində olmasına baxmayaraq, Azərbaycanın birbaşa beynəlxalq əlaqələrini fəal inkişaf etdirməyin tərəfdarı olmuşdur. Azərbaycan Respublikasının Avstraliya, İtaliya, Türkiyə, İran, Belçika, Yəmən və Səudiyyə Ərəbistanına, SSRİ-nin keçmiş respublikalarına – yeni müstəqil dövlətlərə getmiş hökumət nümayəndə heyətlərinə rəhbərlik etmişdir. O, bu dövlət və hökumətlərin başçıları ilə görüşmüş Azərbaycanın ilk dövlət nümayəndəsi olmuşdur. Mərkəzi Asiya ölkələrinin dövlət başçılarının Daşkənd görüşündə Azərbaycanın nümayəndə heyətinə rəhbərlik etmişdir. H.Həsənova müştərək kommunike imzalamaq səlahiyyəti verilmişdir. Bu səfərlərin gedişində Azərbaycanın müstəqillik tarixində ilk beynəlxalq müqavilələr bağlanmışdır.

1990-cı ilin sentyabrında türk dövlət və hökumət başçıları ilə danışıqlar aparmış, bunların nəticəsi olaraq birbaşa aviasiya, dəniz və avtomobil reyslərinin, telefon əlaqələri və birbaşa televiziya proqramlarının açılması, Naxçıvanda Azərbaycanın Türkiyə ilə sərhədindəki Sədərək avtomobil və dəmiryolu körpüsünün tikilməsi, Naxçıvanın Türkiyədən gələn elektrik enerjisi ilə təmin edilməsi, Bakıda Türkiyənin baş konsulluğunun açılması haqqında, habelə, gələcək birbaşa beynəlxalq əlaqələrin əsasını qoyan bir sıra hökumətlərarası müqavilələri imzalamışdır.

Azərbaycan və İran arasında ilk dəfə vizasız keçid məsələsi məhz onun səyi nəticəsində həll olunmuşdur.1990-cı ilin avqustunda İranda zəlzələ qurbanlarına humanitar yardım göstərilmişdir. 1991-ci ilin iyununda H.Həsənovun İrana səfəri zamanı rəsmi Azərbaycan-İran danışıqları keçirilmiş, geniş əhatəli məsələlərə aid hökumətlərarası müqavilələr imzalanmışdır.

Diplomatiyaya gələn H.Həsənov özü ilə bu sahəyə dinamizm, irəliləyiş və səmimilik gətirmişdir.

H.Həsənov xalqımızın tarixində ilk dəfə olaraq Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəliyinə rəhbərlik etmiş, müstəqil Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri rütbəsini almışdır. Onun gərgin səyi nəticəsində 1993-cü ilin aprelində BMT TŞ-də Azərbaycan-Ermənistan münaqişəsinə dair 822 №-li birinci, iyul ayında isə 853 №-li ikinci qətnamə qəbul olunmuşdur. Bu qətnamələrin üstün cəhəti ondan ibarətdir ki, BMT aydın şəkildə Ermənistanın münaqişədə təqsirkar olduğunu qeyd etmiş, Azərbaycanın ərazi bütövlüyünü, güc tətbiq etməklə sərhədlərin dəyişdirilməsinin yolverilməzliyini, Dağlıq Qarabağın Azərbay-

can Respublikasına məxsusluğunu təsdiq etmiş və bütün işğalçı qüvvələrin Azərbaycan ərazisini tezliklə, qeyd-şərtsiz və tamamilə boşaltmasını tələb etmişdir. H.Həsənovun səyi sayəsində Azərbaycan Respublikası keçmiş SSRİ respublikaları arasında BMT-nin seçkili orqanlarına, xüsusilə, elm və texnika sahəsində və yaşayış məskənləri üzrə komissiyalarına daxil edilmiş ilk ölkə olmuşdur. O, həmçinin Azərbaycan Respublikasının BMT-nin inkişaf proqramına və sənaye inkişafı üzrə proqramına (YUNIDO) daxil olmasının təşəbbüskarıdır.

Azərbaycan Respublikasının xarici işlər naziri olaraq H.Həsənov Fransa, Türkiyə, İran, Çin, Almaniya, Rusiya və Misirə rəsmi səfərlər etmişdir. Səfərlər nəticəsində iqtisadi, siyasi və mədəni sahələrdə Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin dərinləşməsinə dair bir sıra mühüm ikitərəfli sənədlər imzalanmışdır. O, Brüsseldə Şimali Atlantika Şurasının, Romada ATƏM-in Nazirlər Şurasının, Tehranda İqtisadi Əməkdaşlıq Təşkilatı və MDB ölkələri xarici işlər nazirlərinin iclaslarında iştirak etmişdir. Azərbaycan dövləti onun nazir işlədiyi dövrdə NATO ilə "Sülh naminə tərəfdaşlıq" müqaviləsini, Avropada sabitlik paktını imzalamış, Avropa Birliyi İqtisadi Komissiyası ilə diplomatik münasibətlər qurmuşdur.

H.Həsənov Azərbaycan Respublikasının yeni tipli Xarici İşlər Nazirliyinin yaradıcısıdır. Bu baxımdan Xarici İşlər Nazirliyinin tərkibində islahatların aparılmasını xüsusi ilə qeyd etmək lazımdır. Nazirlikdə yeni idarə və şöbələr, Ermənistan-Azərbaycan münaqişəsi və münaqişələrin dinc yolla nizamlanması məsələləri ilə məşğul olan idarə yaradılmışdır. İnformatika şöbəsinin yaradılması XİN-nin tamamilə kompüterləşdirilməsinə və yeni texniki vasitələrlə operativ məlumatların alınmasına imkan vermişdir. XİN-nin ərazi idarələrinin fəaliyyətində mühüm dəyişikliklər baş vermiş, xarici ölkələrin XİN-i və səfirlikləri ilə münasibətlər nizamlanmışdır.

Xarici ölkələrdə Azərbaycan Respublikasının nümayəndəlikləri və səfirliklərində islahatlar aparılmış, onlar real nümayəndəliyə çevrilmiş, bütün bunlar Azərbaycanda və akkreditasiya ölkələrində baş verən hadisələrə operativ olaraq təsirini göstərmişdir. H.Həsənovun nazir olduğu dövrdə Azərbaycan Respublikasının Çin, Fransa, Səudiyyə Ərəbistanı, Misir, Böyük Britaniya, Avstriya və Belçikada səfirlikləri, Cenevrədə Azərbaycanın nümayəndəliyi yaradılmış, Qətər, Mavritaniya, Əlcəzair, Argentina, Braziliya, Mərakeş, Zambiya, Latviya, Sinqapur, Albaniya, Komor adaları ilə diplomatik münasibətlər qurulmuşdur. Bakıda Qazaxıstan, Koreya Respublikası, Norveç, Hindistan, CAR, Kanada, Vatikan, Meksika, Macarıstan, Səudiyyə Ərəbistanı, İordaniya və BƏƏ-nin səfirlikləri açılmış və səfirliklərin ümumi sayını 36-ya çatmışdır. Xarici ölkələrin Bakıdakı səfirlikləri ilə iş yenidən qurulmuşdur.

1992-ci ildə H.Həsənov BMT Baş Məclisinin 47-ci sessiyasında Azərbaycan Respublikası nümayəndəliyinin rəhbər müavini, 1993-1994-cü illərdə BMT Baş Məclisinin 48 və 49-cu sessiyalarında, 1993-cü ildə ATƏM-in Nazirlər Şurasının 4-cü görüşündə, YUNESKO-nun baş sessiyasında Azərbaycan Respublikası nümayəndə heyətlərinin başçısı olmuşdur. 1992-ci ildə Nyu Yorkda və 1993-cü ildə Cenevrədə keçirilən BMT-nin İqtisadi və Sosial Şurasının əsas sessiyalarında Azərbaycan nümayəndə heyətinin rəhbəri olmuşdur. BMT nəzarəti altında yaşayış məskənləri üzrə İkinci Ümümdünya konfransının hazırlıq komitəsinin sədr müavini seçilmişdir. 1994-cü ilin sentyabrında BMT-nin Qahirədə keçirilən əhali yaşayışı və inkişaf üzrə konfransında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyətinin üzvü olmuşdur.

H.Həsənov BMT Təhlükəsizlik Şurasının iclaslarında və Baş Məclisi sessiyalarında, BMT-nin İqtisadi və Sosial komissiyalarında, ATƏT-in xarici işlər nazirlərinin görüşlərində, Avropa Parlamentinin Siyasi komitəsinin, NATO Şurasının, Şimali Atlantika Əməkdaşlığı Şurasının, İqtisadi Əməkdaşlıq Təşkilatının, Ərəb Dövlətləri Cəmiyyətinin iclaslarında, iştirak etmişdir. Azərbaycan Respublikasının Avropa Parlamentində və NATO Şurasında nitq söyləyən ilk dövlət nümayəndəsi olmuşdur.

H.Həsənov Türkiyə prezidentləri və baş nazirləri, İran prezidenti, vitse-prezidenti, Böyük Britaniyanın baş naziri (Azərbaycan

Respublikasının Prezidenti Heydər Əliyevin rəsmi səfəri çərçivəsində), Avstraliyanın baş naziri, Oman sultanı, baş nazirin müavini, Səudiyyə Ərəbistanının aviasiya və müdafiə naziri, Estoniya və Latviyanın baş nazirləri, Litva baş nazirinin müavini, Belçikanın baş naziri, ÇXR rəhbəri (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəsmi səfəri çərçivəsində), ÇXR-in baş naziri – Dövlət Şurasının sədri, ÇXR-in vitse-prezidenti – sədr müavini, İtaliyanın baş naziri, Roma Papası II İohan Pavel, Fransa, Misir Ərəb Respublikasının prezidentləri, Səudiyyə Ərəbistanının kralı (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəsmi səfərləri çərçivəsində), Amerika Birləşmiş Ştatlarının prezidenti (Azərbaycan nümayəndə heyətinin BMT-nin Baş Məclisində iştirakı çərçivəsində), ABŞ-ın vitse-prezidenti, Pakistanın baş naziri (Qahirədə əhali yaşayışı və inkişaf üzrə BMT-nin konfransında Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan nümayəndə heyətinin iştirakı çərçivəsində), Rusiya, Ukrayna, Qazaxıstan, Moldova, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Ermənistan prezidentləri, Gürcüstanın dövlət başçısı, Belarusiya Ali Sovetinin sədri, bütün MDB ölkələrinin xarici işlər nazirləri ilə görüşmüş və danışıqlar aparmışdır.

H.Həsənov həmçinin, dünyanın 40 ölkəsinin – ABŞ-ın dövlət katibi, SSRİ, Fransa, Böyük Britaniya, Rusiya, Türkiyə, İran, Misir, Səudiyyə Ərəbistanı, Pakistan, Almaniya, Oman, İsrail, İsveç, Suriya, Avstriya, Niderland, İtaliya, Yunanıstan, Belçika, Albaniya, Bosniya və Hersoqovina, Makedoniya, Laos, Koreya Respublikası, Norveç, İndoneziya və s. xarici işlər nazirləri, Türkiyə, İran, Rusiya, İtaliya, Fransa, Misir, Oman, Avstraliya, ABŞ, Səudiyyə Ərəbistanı, Liviya, Küveyt, Banqladeş, Pakistan, Böyük Britaniya, Norveç, Çin, MDB ölkələri, Litva, Latviya, Estoniya və s. ölkələrin hökumət nümayəndələri, BMT-nin baş katibi Butros Butros Qali, BMT baş katibinin müavini Marek Quldinq, Vladimir Petrovski, Yan Eliasson (humanitar məsələlər üzrə), Ceyms Con (siyasi məsələlər üzrə), Karl-Auqustos Fleyşauer (mülki məsələlər), Ci Çjaotszı (iqtisadi məsələlər), Euqeniuş Vizner (informasiya məsələləri üzrə) və b., YUNESKO-nun baş direktorları A.M.Bou və F.Mayor, BMT Baş Məclisinin sədrləri Samir Şihabi (Səudiyyə Ərəbistanı) və Stoyan Qanev (Bolqarıstan), BMT TŞ-nın sədrləri, NATO-nun baş katibi Manfred Verner, Qərbi Avropa İttifaqının baş katibi Villem van Ekelon, İKT-nin baş katibi Əl-Qabid, ATƏT-in rəhbərləri İ.Dinstbir, M. af Uqqlas və B.Andreatt, Ərəb Dövlətləri Cəmiyyətinin baş katibi İsmət Əbdül Maqid, Avropa İttifaqının Xarici Əlaqələr Komissiyasının rəhbərləri Villi Van Klaas (Belçika) və Karolos Papulias (Yunanıstan), ATƏT-in Dağlıq Qarabağ məsələsi üzrə Minsk qrupunun sədri Yan Elliasson (İsveç), Lüksemburq parlamentinin sədri, Misir Xalq Məclisinin (parlamentin) sədri Fəthi Surur, Belçika senatının sədri Şarl Notombr, Fransa parlamentinin sədri Rene Monori və Fransa parlamenti sədrinin müavini Jan For, ABŞ senatorları və konqresmenləri ilə görüşmüş və danışıqlar aparmışdır.

O, dövlət quruculuğu, politologiya, diplomatiya, iqtisadiyyat, inşaat, ədəbiyyatşünaslıq və s. məsələlər üzrə əsərlərin müəllifidir. H.Həsənov xarici işlər naziri vəzifəsindən azad edildikdən sonra elmi və bədii yaradıcılıqla məşğul olmuş, Azərbaycan arxivlərində materiallar toplamış, dəyərli əsərlər yazmışdır. Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq görkəmli maarifçi, filosof və dramaturq M.F.Axundovun oğlu Rəşid bəy Axundovla yazışmalarını tədqiq etmişdir. Rəşid bəy Axundovun "Brüsseldən məktublar" toplusunun tərtibatçısıdır. Yazdığı eyni adlı tamaşa Azərbaycan Dövlət Akademik Dram Teatrında uğurla oynanılmışdır. Onun İstanbulda "Müstəqil Azərbaycanın yolları" seçilmiş əsərləri, "ABŞ-da lobbiləşmə və Azərbaycan lobbisinin yaranma problemləri", "Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü" əsərləri, həmçinin, bir sıra xarici elmi nəşrlərdə məqalələri çap olunmuşdur. BMT Təhlükəsizlik Şurasının rəsmi sənədləri timsalında ingilis, fransız, ispan, çin, alman, ərəb və rus dillərində 140-dan çox məktubun müəllifidir. "Azərbaycanın dünya siyasəti sisteminə daxil edilməsi", "Azərbaycanın BMT sisteminə daxil edilməsi", "BMT nəzdində Azərbaycan Respublikasının daimi nümayəndəliyinin fəaliyyət xronikası" əsərlərini və "Nyu York. Üçüncü Avenyu" memuarını yazmış və çapa hazırlamışdır. Onun redaktor-

luğu altında "Ə.Topçubaşovun İstanbulda diplomatik danışıqları (Azərbaycan Respublikasının fövqəladə elçisi və səlahiyyətli nazirinin qeydləri)" kitabı nəşr edilmişdir. "Azərbaycan diplomatiyası" jurnalının baş elmi məsləhətçisi olmuşdur. Görkəmli dövlət və ictimai xadim N.Nərimanovun həyatı, fəaliyyəti və yaşadığı siyasi mühitlə bağlı dərin elmi müqayisə səciyyəsi daşıyan araşdırma aparmış və iri həcmli dəyərli monoqrafiya yazmışdır. Problemə yeni baxışın əsasını qoymuşdur.

H.Həsənov SSRİ-nin bir çox orden və medalları, Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

2004-cü ildə Bakıda "SSRİ-də mili təmayülçü hərəkət " mövzusunda namizədlik, 2006-cı ildə Tiflisdə "Tarixin fəlsəfəsi" mövzusunda tarix elimləri doktoru dissertasiyasını müdafiə etmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə 2004-2010-cu illərdə Azərbaycan Respublikasının Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri işləmiş, 2010-cu il martın 30-da isə Polşada fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir.

***

– Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici ölkələrə səfərlərinə dair materiallar) I-IV cildlər. Bakı, 1996-1999.

– Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1993-1995.

– Azərbaycanda kim kimdir? Sorğu-məlumat kitabı. Bakı, Azərbaycan Ensiklopediyası. NPB, 1999.

– "Azərbaycan" qəzeti, 1992-2002.

– Aggression of the Republic of Armenia against the Azerbaijan Republic. Baku, 1994.

– Выступление премьер-министра Азербайджанской Республики Гасан Гасанова в Европейском Парламенте. Брюссель, 18 февраля 1992 г.

– "Kommunist" qəzeti, 1975-1988.



– Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı, 2000.

– Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996.

– Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997.

– Musayev M. Azərbaycanlı deputatlar SSRİ parlamentində (1938-1988). Bakı, 2000.

– "XXI əsr. Dirçəliş" jurnalı, 1993, №1.

## Tofiq Zülfüqarov

***5 mart 1998 – 26 oktyabr 1999***



Azərbaycanın diplomatlarından söz düşəndə adı hörmətlə çəkilənlərdən biri də Tofiq Nadir oğlu Zülfüqarovdur. O, 1959-cu il noyabrın 1-də Rusiyanın Rostov-Don şəhərində həkim ailəsində anadan olmuşdur. 1961-ci ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüşdür. 1966-1976-cı illərdə Bakı şəhərində 193 saylı orta məktəbdə təhsil almışdır.

1976-cı ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin ərəb dili və ədəbiyyatı şöbəsinə daxil olmuş, 1981-ci ildə ərəb, rus dili və ədəbiyyatı müəllimi ixtisasına yiyələnmişdir. 1981-ci ildə SSRİ Silahlı Qüvvələri sıralarına çağırılmış, Yəmən Xalq Demokratik Respublikasının paytaxtı Ədən şəhərində yerləşən Sakit okean hərbi-dəniz donanmasında xidmətə göndərilmişdir. Ezamiyyət dövründə hərbi-dəniz donanmasının rabitə qərargahının zabiti vəzifəsini yerinə yetirmiş, eyni zamanda 8-ci operativ bölməyə rəhbərlik edən komandanın yanında rabitə zabiti olmuşdur. YXDR hərbi qüvvələrinin medalı ilə təltif olunmuş, komandanlıqdan bir sıra təltiflər almışdır. 1984-cü ildən ehtiyatda olan zabitlər sırasına daxil olmuşdur. Elə həmin ildə Bakı şəhəri Lenin rayonu komsomol komitəsinə işə dəvət olunmuş, bir ildən sonra Azərbaycan Respublikası Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna keçmiş və burada 1990-cı ilə qədər işləmişdir. Sonra isə Azərbaycan EA Tarix İnstitutuna elmi işçi vəzifəsinə keçmişdir. 1988-ci ildə Ermənistanın Azərbaycana təcavüzü başladıqdan sonra digər elmi işçilərlə birlikdə Azərbaycan KP MK-nın



ekspert-analitik qrupuna göndərilmişdir. Bu dövr ərzində DQMV-də separatçı qüvvələrə qarşı təbliğat-təşviqat işini təşkil etmək üçün uzun müddətə Xankəndi, Ağdam, Şuşa və Laçına getmişdir.

1992-ci ildə ATƏM Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini nizamlamağı öz üzərinə götürdükdən sonra T.Zülfüqarov Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə işə göndərilmişdir. 1992-ci ilin may ayından fövqəladə danışıqlar mərhələsində iştirak etmək üçün Romaya gedən nümayəndə heyətinin tərkibinə qatılmışdır. Eyni zamanda münaqişənin Rusiya-Qazaxıstanın, həmçinin, İranın vasitəçilik səyləri altında nizamlanması istiqamətində aparılan danışıqlarda iştirak etmişdir. 1994-cü ilin mart ayında Xarici İşlər Nazirliyində şöbə müdiri işlədiyi bir vaxtda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlarda sülh müqaviləsinin mətninə müxtəsər imza qoymaq səlahiyyətlərini alaraq nümayəndə heyətinə başçı təyin edilmişdir. Bu dövrdə gedən bütün danışıqlarda iştirak etmiş, eyni zamanda Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin və münaqişəli problemlərin həlli üzrə idarənin rəhbəri olmuşdur.

1994-cü ilin iyun ayında Azərbaycan Respublikası xarici işlər nazirinin müavini təyin olunmuşdur. Bu dövrdə dünyanın onlarla ölkəsində keçirilən beynəlxalq tədbir və danışıqlarda numayəndə heyətinə rəhbərlik etmişdir.

1998-ci ilin yanvar ayında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin fərmanı ilə Zülfüqarov Tofiq Nadir oğluna fövqəladə və səlahiyyətli səfir ali diplomatik rütbəsi verilmişdir. 1998-ci il martın 5-də Azərbaycan Respublikasının xarici işlər naziri təyin olunmuşdur. Xarici işlər naziri kimi fəaliyyət göstərən T.Zülfüqarov özünü təşəbbüskar, yüksək hazırlıqlı diplomat və təşkilatçı kimi göstərmişdir. Onun təşəbbüsü, Prezidentin bilavasitə göstərişi və dəstəyi ilə Xarici İşlər Nazirliyi Bakı şəhərinin mərkəzində müstəqil dövlətin aktiv xarici siyasətini yürüdən mühüm dövlət institutuna uyğun olan yeni binaya köçürülmüşdür. Bu dövrdə nazirliyin mərkəzi aparatında, bir sıra səfirlik və nümayəndəliklərdə

struktur və kadr dəyişiklikləri həyata keçirilmişdir. Mərkəzi aparatın və Azərbaycan Respublikası səfirliklərinin tam kompüterləşdirilməsi prosesi başa çatmışdır. T.Zülfüqarov Türkiyə, Rusiya, AFR, Fransa, Gürcüstan və İrana rəsmi səfər edərək, bu dövlətlərlə ikitərəfli əlaqələrin inkişafına töhfə vermişdir. İrana səfər edərkən, ilk dəfə olaraq rəsmi səfəri Təbriz şəhərindən başlamışdır. T.Zülfüqarovun Türkiyə, Rusiya, ABŞ, Belçika, Lüksemburq, Norveç, Danimarka, Böyük Britaniya, Qazaxıstan, Türkmənistan və s. dövlətlərə işgüzar səfərləri olmuşdur.

1995-ci ildə o, ilk dəfə BMT Baş Məclisinin sessiyasında nümayəndə heyətinin üzvləri tərkibində iştirakçı olmuş, 1998-1999-cu illərdə Azərbaycan nümayəndə heyətinə rəhbərlik edərək, BMT Baş Məclisinin sessiyasında nitq söyləmişdir. Sessiyanın gedişində ABŞ, Türkiyə, İran, Qazaxıstan, Gürcüstan, Litva, Türkmənistan və s. ölkələrin xarici işlər nazirləri ilə görüşmüşdür. Sessiyada iştirakından sonra ABŞ-a işgüzar səfər zamanı Vaşinqtonda Konqres, Dövlət Departamenti, Müdafiə Nazirliyi, həmçinin, Strateji Tədqiqatlar Mərkəzi, Hopkins İnstitutu, Stenford İnstitutu kimi elmi mərkəzlərdə çoxsaylı görüşlər keçirmişdir. Bu səfərlərdə ABŞ-ın kütləvi informasiya vasitələri, "Nyu-York Tayms", "Vaşinqton Post", "Amerikanın səsi" ilə iş aparmış, ABŞ-da yəhudi, türk və Ukrayna diasporalarının rəhbərləri ilə görüşmüşdür. Bu görüşlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında əsl həqiqətləri geniş amerikan ictimaiyyətinə çatdırmaq məqsədi ilə əməkdaşlığın forma və üsulları müəyyən edilmişdir.

T.Zülfüqarov Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi Avroatlantik Əməkdaşlığı Şurasının işində iştirak etmişdir. Adı çəkilən tədbirlərdə, həmçinin, xarici dövlətlərin bir sıra nazirləri, o cümlədən, Türkiyə, Böyük Britaniya, Bolqarıstan, GUÖAM ölkələrinin xarici işlər nazirləri ilə də görüşlər keçirmişdir. Bütün tədbirlərdə olduğu kimi, GUÖAM ölkələrinin xarici işlər nazirləri ilə daimi iş koordinasiyasının təşkil edilməsi mühüm məsələ idi. Bu görüşlər BMT, MDB, ATƏT-in baş məclisləri kimi bütün beynəlxalq təşkilatlarda keçirilmiş və daimi xarakter daşımışdır.



1998-ci ilin iyun ayında T.Zülfüqarov İƏT Nazirlər Şurasının sədri seçilmişdir. Nazirlərin görüşü Bakıda keçirilmişdir. 1998-ci ilin oktyabrında sədr vəzifəsini icra edərkən Nyu Yorkda Nazirlər Şurasının sessiyası, həmçinin, İƏT və ASEAN sədrlərinin müştərək iclası keçirilmişdir.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci il 26 oktyabr tarixli 6 №-li fərmanı ilə T.Zülfüqarov yeni hökumətdə xarici işlər naziri vəzifəsini təkrarən tutmuşdur.

O, ATƏT ölkələri xarici işlər nazirlərinin Osloda keçirilən görüşündə iştirak edən nümayəndə heyətinə rəhbərlik etmişdir. Bu görüşün gedişində Polşa, Norveç, Danimarka, Fransa və s. dövlətlərin xarici işlər nazirləri ilə çoxsaylı görüşlər keçirmişdir. Danışıqların əsas məzmununu ikitərəfli münasibətlər, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması problemləri təşkil etmişdir. Bakıda və xaricdə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşlər keçirmişdir.

Nazirliyin əsas işi Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin ABŞ (NATO-nun 50-ci sammiti), Böyük Britaniya, Türkiyə, MDB dövlətləri, Qazaxıstan, Ukrayna, İsveçrə və bir sıra digər ölkələrə rəsmi səfərlərinin təmin edilməsi və təşkilatçılıq məsələlərindən ibarət olmuşdur. Böyük Britaniyaya rəsmi səfər nəticəsində Britaniya-Azərbaycan münasibətləri strateji əməkdaşlıq səviyyəsinə qaldırılmışdır.

11 dövlət və hökumət başçısının, onlarla ölkə və beynəlxalq təşkilatın nümayəndə heyətlərinin iştirakı ilə Azərbaycanda Böyük İpək yolunun qurulmasına dair beynəlxalq konfransın keçirilməsi mühüm hadisə olmuşdur. Digər nazirlik və dövlət orqanları ilə yanaşı Xarici İşlər Nazirliyi bu beynəlxalq tədbirin ən yüksək səviyyədə keçirilməsini təşkil etmişdir. Beynəlxalq ictimaiyyətin müstəqil Azərbaycana marağı bir çox dövlət başçıları və rəsmi nümayəndələrin çoxsaylı səfərlərində özünü göstərmişdir. 1998-1999-cu illərdə Türkiyə, Gürcüstan, Ukrayna, Qazaxıstan, Rumıniya, Bolqarıstan prezidentləri, Belçikanın baş naziri, Yaponiya, İran, Türkmənistan, Hindistan, Ukrayna və s. ölkələrin xarici işlər nazirlərinin

Azərbaycana səfərləri təşkil edilmişdir. Azərbaycanın ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafı üzrə aktiv iş rejiminə baxmayaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc və ədalətli həlli yoluna yönəlmiş xarici siyasət kursunu daha mühüm hesab etmək lazımdır. Bu çoxtərəfli fəaliyyətə Minsk konfransı və Minsk qrupunun müxtəlif səviyyələrdə və ilk növbədə dövlət səviyyəsində həmsədrlərlə danışıqlar daxil olmuşdur. Vasitəçilik rolu oynayan şəxslərlə birbaşa əlaqələrlə paralel olaraq münaqişə haqqında həqiqətlərin düzgün çatdırılması, kütləvi informasiya vasitələrində intensiv təbliğat işini özündə əks etdirən fəal iş getmişdir.

Vəziyyəti gərginləşdirən amil Ermənistanın beynəlxalq hüququn bütün norma və prinsiplərinə zidd olaraq ultimatum verməsi və münaqişənin yalnız iki variantda həllini tələb etməsi olmuşdur. Dağlıq Qarabağın müstəqilliyi və ya Ermənistana birləşməsi variantlarının irəli sürülməsi danışıqlar prosesində böhranlı vəziyyət yaratmışdır. Belə şəraitdə Azərbaycana təzyiqlər güclənmiş və vasitəçilik edən dairələr tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi prinsipi ilə ziddiyyət təşkil edən təkliflər irəli sürülmüşdür. 1999-cu il oktyabr ayının 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Tofiq Zülfüqarov Azərbaycana edilən təzyiqlərə etiraz olaraq istefa vermişdir. Bu istefa Azərbaycan ictimaiyyətinin münaqişənin həllində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini əsas prinsip kimi sarsılmaz surətdə müdafiə etmək qətiyyətini nümayiş etdirən siyasi demarş olmuşdur. Vəziyyətin ciddiliyini sübut edən amil kimi bundan dərhal bir gün sonra Ermənistan parlamentində doqquz erməni yüksək vəzifəli şəxsin qətlə yetirilməsi olmuşdur.

Azərbaycan rəhbərliyi və xalqının suverenlik və ərazi bütövlüyü prinsipindən kənara çıxan istənilən təklifi rədd edəcəyi Minsk qrupunun həmsədr ölkələri tərəfindən dərk edilmişdir. Bu, 18-19 noyabr 1999-cu il tarixlərində İstanbulda keçirilmiş ATƏT sammitində də özünü büruzə vermişdir.

İstefadan sonra T.Zülfüqarov fəal ictimai-siyasi fəaliyyətini davam etdirmişdir. Digər təşəbbüskarlarla yanaşı, onun tərəfindən



də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycanın mövqeyini əks etdirən prinsipləri özündə cəmləşdirən "Ümummilli xartiya"ya dəstək olaraq imzaların toplanması üzrə ictimai hərəkat başlanmışdır. Adı çəkilən xartiyanı bütün siyasi partiyalar, ictimai təşkilatlar, həm Azərbaycanda, həm də xarici ölkələrdə azərbaycanlıları birləşdirən təşkilatlar, görkəmli ictimai-siyasi xadimlər, yaradıcı ittifaqlar dəstəkləmişlər. Bu da Azərbaycan xalqının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə nizamlanmasına nail olmasında qətiyyətliyini nümayiş etdirmişdir. Xartiya Azərbaycan xalqının heç bir zaman dövlət suverenliyini və ərazi bütövlüyünü pozan modelləri qəbul etməyəcəyi istiqamətində xarici və vasitəçi dairələrə bir növ xəbərdarlıq rolunu oynamışdır.

T.Zülfüqarov Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri və ictimai-siyasi xadimlərlə görüşlərini fərdi qaydada davam etdirmişdir. Şimali Kipr Türk Respublikasını rəhbərliyinin dəvəti ilə ziyarət edərək Prezident Rauf Denktaş başda olmaqla bir sıra şəxslərlə görüşmüşdür. Con Hopkins İnstitutunun dəvəti ilə Cənubi Qafqaz dövlətlərində cərəyan edən siyasi proseslərlə bağlı Vaşinqtonda, eləcə də Miçiqan Universitetinin Cənubi Qafqaz ölkələrinin xarici siyasətində üzləşdiyi çağırışlarla bağlı beynəlxalq konfranslarda iştirak etmişdir. Dəfələrlə Ermənistan və Azərbaycanın ictimai xadimlərinin Ketterinq Amerika Fondu və Rusiya Strateji Tədqiqatlar Mərkəzi tərəfindən təşkil olunan görüşlərində iştirak etmişdir. Müntəzəm olaraq yerli və beynəlxalq mətbuat orqanlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan ətrafında baş verən beynəlxalq proseslərlə bağlı müsahibələrlə çıxış etmişdir.

T.Zülfüqarov 2005-ci ildən 2010-cu ilədək Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsində çalışmışdır. O, iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsinə xidmət etmişdir. O, Latviyada səfir olarkən Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Latviyaya (2006-cı il) dövlət səfəri və Latviya Respublikası Prezi-

dentinin Azərbaycana (2005-ci və 2009-cu illər) dövlət səfərləri, Azərbaycan Respublikası Milli Məclisi sədrinin Latviyaya işgüzar səfəri (2006-cı il), eləcə də xarici işlər, daxili işlər, müdafiə, iqtisadi inkişaf və digər nazirlərinin qarşılıqlı səfərləri həyata keçirilmişdir. İki ölkə arasında müqavilə-hüquq bazası yaradılaraq çoxsaylı müxtəlif yönümlü sənəd imzalanmışdır.

T.Zülfüqarov, Latviyada səfir olduğu zaman 2007-ci ildən etibarən iqamətgahı Riqa şəhərində olmaqla Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri də təyin edilmişdir. 2010-cu ilin oktyabr ayında Latviyada səfir vəzifəsindən geri çağırılan T.Zülfüqarov iqamətgahı Tallin şəhərində olmaqla Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir. Bu vəzifədə çalışdığı dövrdə Azərbaycan ilə Estoniya arasında əmədakşlıq və dostluq əlaqələrinin bünövrəsi qoyulmuşdur. T.Zülfüqarovun Estoniyada səfir olduğu müddətdə iki ölkə arasında qarşıqlıqlı olaraq, yüksək səviyyəli səfərlər, o cümlədən, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Estoniya Respublikasına (2010-cu il) və Estoniya Respublikası Prezidentinin Azərbaycan Respublikasına (2009-cu il) dövlət səfərləri, eləcə də Estoniya parlamenti sədrinin Azərbaycana (2012-ci il) rəsmi səfəri, Estoniya baş nazirinin Azərbaycana işgüzar səfəri (2008-ci il), xarici işlər, daxili işlər, müdafiə, iqtisadi inkişaf və digər nazirlərinin qarşılıqlı səfərləri həyata keçirilmişdir. İki ölkə arasında münasibətlərin müqavilə-hüquq bazası yaradılmış, 15-dən çox müxtəlif sənəd imzalanmışdır.

T.Zülfügarov Latviya və Estoniyada çalışdığı dövrdə Azərbaycan ilə bu ölkələr arasında siyasi və iqtisadi əlaqələrinin inkişafına əlavə olaraq, mədəniyyət, təhsil, turizm və biznes istiqamətləri daxil olmaqla insan mübadiləsi artmışdır.

***

– Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları (oktyabr-dekabr 1998-ci il). Bakı, 1999.
– "Azərbaycan" qəzeti, 1992-1999.
– www.mfa.gov.az



## Vilayət Quliyev

***26 oktyabr 1999 – 2 aprel 2004***



Vilayət Quliyev 1999-2004-cü illərdə Azərbaycan Respublikasının xarici işlər naziri vəzifəsində çalışmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 26 oktyabr 1999-cu il tarixli sərəncamı ilə Vilayət Muxtar oğlu Quliyevi xarici işlər naziri vəzifəsinə təyin etmişdir. Prezidentin 8 fevral 2000-ci il tarixli sərəncamı ilə ona fövqəladə və səlahiyyətli səfir xüsusi dərəcəsi verilmişdir.

2003-cü ilin oktyabr ayında ölkədə prezident seçkiləri keçirildikdən sonra Nazirlər Kabinetinin yeni tərkibi formalaşdırılarkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 8 noyabr 2003-cü il tarixli sərəncamı ilə Vilayət Muxtar oğlu Quliyev yenidən xarici işlər naziri vəzifəsinə təyin olunmuşdur.

Vilayət Muxtar oğlu Quliyev 5 noyabr 1952-ci ildə Azərbaycan SSR-nın Ağcabədi rayonunun Ağcabədi qəsəbəsində fəhlə ailəsində doğulmuşdur.

1960-1970-ci illərdə Beyləqan (keçmiş Jdanov) rayonundakı G.Əsədov adına Birinci Şahsevən kənd orta məktəbində təhsil almışdır.

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsinə daxil olmuş, 1975-ci ildə həmin universiteti filoloq, Azərbaycan dili və ədəbiyyatı müəllimi ixtisası üzrə bitirmişdir.

Ali təhsilini başa vurduqdan sonra 1975-1978-ci illərdə Beyləqan rayonundakı İkinci Şahsevən orta məktəbində müəllim, Daş-

burun 8 illik məktəbində direktor müavini – dərs hissə müdiri vəzifələrində çalışmışdır.

1978-ci ildə istehsalatdan ayrılmaqla Azərbaycan SSR EA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuşdur. Aspirantura təhsilini başa vurduqdan sonra 1982-ci ildə akademik M.C.Cəfərovun rəhbərliyi altında "Müasir Azərbaycan nəsrinin üslub müxtəlifliyi (1960-1970-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və SSRİ Ali Attestasiya Komissiyasının qərarına əsasən filologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

1981-1992-ci illərdə o, Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, sektor müdiri, elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmış, tənqidçi və ədəbiyyatşünas alim kimi tanınmışdır. Bu illər ərzində əsərləri Azərbaycan və keçmiş sovet mətbuatında, habelə, bir sıra xarici ölkələrdə çap olunmuş və mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir.

1990-cı ildə Bakı Dövlət Universitetinin İxtisaslaşdırılmış Müdafiə Şurasında "Azərbaycan filoloji fikri və rus elmi-ədəbi mühiti (XIX əsrin birinci yarısı)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Müəllifin Moskva, Leninqrad (Sankt Peterburq), Kazan, Tbilisi, Alma-Ata (Almatı) arxivlərindəki uzun müddətli axtarışlarının nəticəsi olan bu əsər təkcə Azərbaycanda deyil, Sovet İttifaqında maraqla qarşılanmışdır. Əsərdə V.Quliyev ilk dəfə Rusiya şərqşünaslığında "Azərbaycan məktəbinin" mövcudluğunu sübuta yetirmiş və Rusiyada bu elm sahəsinin yaranmasında Azərbaycan alimlərinin fəaliyyətini işıqlandırmışdır. Dissertasiya işi ayrıca kitab şəklində Azərbaycan və rus dillərində çap olunmuş və müəllifə şöhrət gətirmişdir.

1992-1993-cü illərdə Vilayət Quliyev Türkiyə Respublikasının Ərzurum şəhərində yerləşən Atatürk Universitetinin dəvəti ilə burada "Türk xalqları ədəbiyyatı tarix"i fənnindən mühazirələr oxumuşdur. Türkiyədə çalışdığı illərdə o, həm də Ankaranın "Ötükən" nəşriyyatında "Türk ədəbiyyatları antologiya-ensiklopediyası"nın Azərbaycan ədəbiyyatı ilə bağlı təxminən 100 müəllif vərəqi həcmində 2 cildini hazırlamış, Türkiyənin bir sıra tanınmış elm və siyasət adamları ilə əlaqə yaratmış, beynəlxalq simpozium və konfranslarda iştirak edərək mövcud dövrdəki mürəkkəb şəraitdə qarşılıqlı münasibətlərə töhfə verməyə çalışmışdır.

Ermənistanın Azərbaycana əsassız ərazi iddiaları və Dağlıq Qarabağ ətrafında proseslər başlayarkən Vilayət Quliyev bir ziyalı kimi özünün ictimai fəallığı və vətəndaş mövqeyi ilə seçilmişdir. 1988-ci ilin aprel ayında "Nyu-York Tayms" qəzetində onun təqdim etdiyi materiallar əsasında Azərbaycanın mövqeyini obyektiv şəkildə açıqlayan məqalə çap olunmuşdur. Vilayət Quliyev həmin dövrdə Leninqrad şəhərinin əsas mətbu orqanı sayılan "Smena" qəzetində erməni separatçılarının rəhbəri, qondarma DQR-nın və Ermənistan Respublikasının gələcək prezidenti R.Koçaryan ilə siyasi polemika aparmışdır. 1988-1992-ci illərdə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycan və ölkə mətbuatında bir sıra məqalələr dərc etdirmiş, konfranslara qatılmışdır.

1990-cı illərin əvvəllərindən etibarən o, ölkədə cərəyan edən ictimai-siyasi proseslərin fəal iştirakçılarından biri olmuşdur. Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) qurucuları sırasında yer almış, partiyanın siyasi şurasının üzvü seçilmişdir. Bir müddət partiyanın mətbu orqanının – "Millət" qəzetinin baş redaktoru vəzifəsində çalışmışdır. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi ərəfədə V.Quliyev partiyanın bir qrup tanınmış üzvləri ilə birlikdə AMİP sıralarından istefa vermiş, həmin vaxtdan etibarən ardıcıl şəkildə Heydər Əliyev kursunu dəstəkləmişdir.

V.Quliyev 1995-ci ildə müstəqil Azərbaycanın Milli Məclisinə keçirilən seçkilərdə majoritar qaydada iştirak etmişdir. O, seçkilərin 1996-cı ilin fevral ayında keçirilən ikinci turunda 52 saylı Ağcabədi-Füzuli seçki dairəsindən ali qanunverici orqanın tərkibinə seçilmişdir. Parlament fəaliyyətini hüquq siyasəti və dövlət quruculuğu komissiyasında davam etdirmişdir. Eyni zamanda Milli Məclisdə ilk dostluq qruplarından biri kimi fəaliyyətə başlayan Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun sədri olmuş, iki ölkə parlamentləri arasında daha sıx və məhsuldar əlaqələrin yaranmasına səy göstərmişdir.

Parlamentdəki fəaliyyəti dövründə V.Quliyev Azərbaycan Respublikası Milli Məclisinin təmsilçisi kimi MDB Parlament Assambleyasının, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) və NATO Parlament Assambleyalarının işində yaxından iştirak etmişdir. Parlament nümayəndə heyətinin tərkibində bir sıra xarici səfərlərin iştirakçısı olmuşdur.

XX əsr Azərbaycan tarixinə dərin və hərtərəfli bələdliyi nəticəsində o, Milli Məclisin Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə (may, 1998-ci il), Azərbaycan Xalq Cümhuriyyəti Məclisi-Məbusanının (Parlament) 80 illiyinə (dekabr, 1998), azərbaycanlıların soyqırımına (mart, 1999) həsr olunmuş xüsusi sessiyalarında əsas məruzəçi qismində çıxış etmişdir. Azərbaycan və dünya mətbuatında geniş işıqlandırılan bu sessiyalar Ulu öndər Heydər Əliyevin və Azərbaycan hökuməti üzvlərinin iştirakı ilə keçirilmişdir. Milli Məclisin bir sıra mühüm sənədlərinin hazırlanmasında da V.Quliyevin xidməti olmuşdur. 15 iyun Milli qurtuluş günü ilə bağlı keçirilən xüsusi sessiyada o, əsas məruzəçi olmuş, habelə, müvaviq sənədin hazırlanmasında iştirak etmişdir.

Prezident Heydər Əliyevin sərəncamı ilə Vilayət Quliyevin Azərbaycan Respublikasının xarici işlər naziri vəzifəsinə təyin olunması həm respublikamız, həm də region üçün son dərəcə mühüm və taleyüklü məqamda, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar özünün həlledici mərhələsinə daxil olduğu bir vaxtda gerçəkləşmişdir.

Ermənistan parlamentində törədilən qanlı terror aktı, Azərbaycanın bir sıra yüksək vəzifəli dövlət rəsmilərinin istefaya getmələri cəmiyyətdə guya ölkəmizin Dağlıq Qarabağ məsələsində təslimçi sülhə sürüklənməsi ilə bağlı şayiələrin yayılmasına səbəb olmuşdu. Bütün bu proseslər ATƏT-in Minsk qrupunun fəallığının artdığı dövrdə, ATƏT-in 18-19 noyabr 1999-cu il İstanbul sammiti ərəfəsində baş verdiyindən Xarici İşlər Nazirliyinin proseslərdəki roluna, eləcə də yeni nazirin şəxsi keyfiyyətlərinə, intellektual potensialına, siyasi fəaliyyətinə ictimai maraq son dərəcə artmış, onun atdığı addımlar, çıxış və müsahibələri geniş ictimaiyyət, xüsusən də müxalifət dairələri tərəfindən xüsusi həssaslıqla izlənməyə başlamışdı. Belə bir şəraitdə Vilayət Quliyev nazir kimi fəaliyyətə başladığı ilk gündən ictimaiyyət və mətbuatla əlaqələrə xüsusi diqqət yetirmiş, mətbuata açıq olan dövlət adamı kimi tanınmışdır. Bu, onun nazir vəzifəsində çalışmasının sonrakı mərhələləri üçün də səciyyəvi olmuşdur. Təsadüfi deyildir ki, Ulu öndər Heydər Əliyevin "jurnalistlərin dostu" nominasiyasında qalib olduğu 2002-ci ildə Vilayət Quliyev də həmin nominasiya üzrə üçüncü yeri tutmuşdur.

Azərbaycanın müstəqillik dövründəki digər xarici işlər nazirləri kimi V.Quliyevin də fəaliyyətinin əsas istiqamətini Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylər, onun fərdi qaydada və nümayəndə heyətlərinin tərkibində ikitərəfli və çoxtərəfli danışıqlarda iştirakı təşkil etmişdir. Keçirdiyi bütün görüşlərdə, xarici səfərlərində, qatıldığı beynəlxalq miqyaslı tədbirlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü, Dağlıq Qarabağ regionunun işğalı, qaçqın və köçkünlərin taleyi bir xarici işlər naziri kimi V.Quliyev üçün əsas mövzu olaraq qalmışdır. Prezident Heydər Əliyevin rəhbərliyi altında o, Vaşinqton, İstanbul, Moskva, Parisdə, Davos və Naxçıvanda işğalçı Ermənistan tərəfi ilə aparılan danışıqlara qatılmış, habelə, Minsk qrupundakı həmsədr ölkələrin yüksək səviyyədə təmsil edildikləri Ki-Vest (aprel, 2002-ci il) danışıqlarının iştirakçısı olmuşdur.

Nazir kimi çalışdığı dörd il yarım ərzində Vilayət Quliyev dünyanın 50-dən çox ölkəsinə səfər etmiş, öz həmkarları ilə çoxsaylı görüşlər keçirmiş, beynəlxalq konfrans və sessiyaların işinə qatılmışdır. Eyni zamanda o, Avropa və Asiya ölkələrinin 20-dən çox xarici işlər nazirlərinin Azərbaycana səfərlərinin təşkilində, onların təmsil etdikləri ölkələrlə Azərbaycan Respublikası arasında daha sıx siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin qurulmasında səy və bacarığını əsirgəməmişdir.

BMT baş katibi Kofi Annan, ATƏT sədri Ferrera Valdner, Avropa Şurasının baş katibi Valter Şvimmer, AŞPA Prezidenti lord Rassel Consonla, NATO baş katibləri Lord Robertson və Yaap de Hoop Schefferlə keçirdiyi görüş və apardığı danışıqlarda V.Quliyev

Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, Azərbaycanın suverenliyinin və ərazi bütünlüyünün təmin olunması ilə bağlı zəruri addımlar atılmasının vacibliyini bu beynəlxalq qurumların rəhbərlərinin diqqətinə çatdırmışdır.

1990-cı illərin ikinci yarısından etibarən Avropa təşkilatlarına və qurumlarına inteqrasiya Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil etmişdir. Ölkəmiz bu dövrdə Avropa Şurası, Avropa İttifaqı, NATO, QDİƏT və digər panavropa qurumları ilə sıx əməkdaşlıq yolunu tutmuşdur. Ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilən işlər nəticəsində Azərbaycan 2001-ci ilin yanvar ayında nüfuzlu beynəlxalq təşkilatlardan biri sayılan Avropa Şurasının tam hüquqlu üzvü seçildi. Xarici işlər naziri kimi Vilayət Quliyev bu prosesdə fəal iştirak etmişdir. Təkcə 2000-ci il ərzində o, altı dəfə Strasburqda səfərdə olmuş, Avropa Şurası rəhbərliyi ilə çoxsaylı görüşlər keçirmiş, Avropa Şurası Xarici İşlər Nazirlərinin Şurasında, Avropa Şurası Parlament Assambleyasının, müxtəlif komissiya və komitələrin iclaslarında çıxış etmiş, ölkəmizə qarşı yönələn bir sıra əsassız iddia və iradların gündəlikdən çıxarılmasına nail olmuşdur. Bu müzakirə və çıxışlarda ölkəmizin ümumbəşəri ənənələrə və Avropa dəyərlərinə sadiqliyi, sivil dövlətçilik prinsipləri xüsusi vurğulanmışdır. Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzvlüyü ilə bağlı sənədi Vilayət Quliyevin imzalaması yəqin ki, xarici işlər naziri kimi onun fəaliyyətinin yaddaqalan səhifələrindən sayıla bilər.

Prezident Heydər Əliyevin rəhbərliyi altında xüsusi diqqət və həssaslıq tələb edən Şərq siyasətinin işlənib hazırlanması və ardıcıllıqla həyata keçirilməsi də bu dövrdə Xarici İşlər Nazirliyinin əsas fəaliyyət istiqamətlərindən birini təşkil etmişdir. Bir tərəfdən, ənənəvi dostluq əlaqələri, digər tərəfdən isə nazir kimi V.Quliyevin öz şərqli həmkarları ilə qarşılıqlı hörmətə əsaslanan işgüzar münasibətləri İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq qurumların Azərbaycana ardıcıl dəstək vermələrinə təminat yaratmışdır.



Vilayət Quliyevin Xarixi İşlər Nazirliyinə rəhbərlik etdiyi dövrdə nazirlikdə xarici siyasətin planlaşdırılması idarəsi və tərcümə şöbəsi təşkil olunmuşdur. Eyni zamanda onun təşəbbüsü ilə nazirliyin tarixində ilk dövri nəşr sayılan "Diplomatiya aləmi" jurnalı təsis edilmişdir. V.Quliyevin redaktorluğu ilə Azərbaycan, rus və ingilis dillərində ildə dörd sayı çap olunan bu jurnal ölkənin xarici siyasət kursunun prioritet istiqamətlərinə, Dağlıq Qarabağ münaqişəsinə, Azərbaycan diplomatiyasının tarixinə və digər aktual mövzulara dair araşdırmalara səhifələrində geniş yer ayırırdı. Yenə də V.Quliyevin redaktəsi altında 2002-ci ildə ilk dəfə Azərbaycan dilində "Diplomatik terminlər lüğəti" hazırlanaraq çap edilmişdir. Dövlət idarəçiliyinə elmdən gəlməsinin təsiri altında Vilayət Quliyev həm Dağlıq Qarabağ münaqişəsinə, həm də Azərbaycan xarici siyasətinin digər aktual məsələlərinə dair nəşrlərin intensiv xarakter almasına xüsusi diqqət yetirmişdir. Həm də bu tipli məqalə və kitabların yalnız ölkədə deyil, Azərbaycan hüdudlarından kənarda çapına və yayılmasına önəm vermişdir.

Onun Azərbaycan və rus dilində nəşr etdirdiyi "Paris məktubları" (1999), ingilis, fransız və Azərbaycan dillərində "Azərbaycan Respublikasının Paris sülh konfransından tələbləri" (2005) kitabları da diplomatiya tariximizə ciddi töhfə sayıla bilər. Hər iki kitab 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyəti hökumətinin müstəqillik uğrunda diplomatik vasitələrlə mübarizəsini, beynəlxalq əlaqələrini və xarici siyasət kursunu yeni fakt və sənədlər əsasında işıqlandırmaq baxımından qiymətli mənbələrdir.

Nazirlikdə dövlət dili kimi Azərbaycan dilinin geniş ölçüdə tətbiqində də Vilayət Quliyevin mühüm xidmətləri olmuşdur. Nazirlik əməkdaşlarının indi də məmnunluq hissi ilə xatırladıqları kimi, o, müxtəlif instansiyalara göndərilən məktub və sənədlərin yalnız dəqiq informasiya yükünə deyil, həm də aydın dilə və gözəl üsluba malik olmasına xüsusi diqqət yetirir, əksər hallarda onların üzərində zəruri redaktə işləri aparmağa da vaxt tapırdı.

V.Quliyev nazirlik əməkdaşlarının ixtisaslarını artırmalarına, iş və yaşayış şəraitlərini yaxşılaşdırmalarına qayğı ilə yanaşırdı. Eh-

tiyacı olan nazirlik əməkdaşları üçün onun təşəbbüsü ilə 2002-2003-cü illərdə şəhərin mərkəzində 60 mənzildən ibarət kooperativ bina tikilib istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 aprel 2004-cü il tarixli sərəncamı ilə Vilayət Quliyev xarici işlər naziri vəzifəsindən azad edilmişdir. Dörd il yarımlıq fəaliyyətinə görə ona rəhbərliyin təşəkkürü elan olunmuşdur. Eyni zamanda qazandığı bilik və təcrübədən xarici siyasət sahəsində gələcəkdə də istifadə edilməsi diqqətdən qaçırılmamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyun 2004-cü il tarixli sərəncamı ilə o, Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin olunmuşdur.

Polşada Azərbaycanının ilk səfiri kimi çalışdığı altı ilə yaxın müddət ərzində Vilayət Quliyev bu ölkədə Avropa məkanında aktiv fəaliyyəti ilə seçilən səfirliklərimizdən birini qurmuş, eyni zamanda bütün sahələrdə qarşılıqlı əlaqə və əməkdaşlığın genişlənməsinə nail olmuşdur. Təkcə elə bir faktı qeyd etmək kifayətdir ki, 2005-2010-cu illər arasında Polşa Prezidenti Leh Kaçinski beş dəfə ölkəmizdə rəsmi və işgüzar səfərdə olmuşdur. Bu səfərlər zamanı çoxsaylı sənədlər imzalanmış, ciddi siyasi bəyanatlar səsləndirilmişdir. Eyni zamanda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev də Polşaya çoxsaylı səfərlər həyata keçirmişdir. Polşa yeganə Avropa ölkəsi olmuşdur ki, əlaqələrin operativ şəkildə və ən yüksək səviyyədə həyata keçirilməsi məqsədi ilə qarşılıqlı razılıq əsasında dövlət başçılarının rəhbərliyi altında ildə iki dəfə toplanan Prezident Şurası yaradılmışdır.

Polşa hökuməti Vilayət Quliyevin polyak-Azərbaycan münasibətlərinin inkişafındakı xidmətlərini yüksək qiymətləndirərək 2010-cu ildə onu ölkənin yüksək mükafatlarından biri "Polşa Respublikası qarşısındakı xidmətlərə görə" ordeninin Komandor dərəcəsi ilə təltif etmişdir. Polşa kitabxana və arxivlərindən topladığı materiallar əsasında V.Quliyev iki ölkənin siyasi və hərb tarixinin öyrənilməmiş səhifələrinə işıq salan "Polşadakı Azərbaycan siyasi mühacirətinin irsindən" (Torun, 2011, rus dilində) və "Polşa tatarları Azərbaycanda" (Torun-Varşava, 2012, rus və polyak dillərində) kitablarını çap etdirmişdir.



Prezident İlham Əliyevin 30 mart 2010-cu il tarixli sərəncamı ilə Vilayət Muxtar oğlu Quliyev Azərbaycan Respublikasının Polşa Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılaraq Macarıstanda eyni vəzifəyə təyin olunmuşdur.

Vilayət Quliyev tanınmış ədəbiyyatşünas alimdir. Diplomatik fəaliyyəti ilə bir sırada elmi-ədəbi axtarışlarını da davam etdirir. "Ədəbiyyat və incəsənət" qəzetinin, "Azərbaycan" və "Ən yeni ədəbiyyat" (İstanbul) jurnallarının redaksiya heyətlərinin, 150 cildlik Dünya Ədəbiyyatı kitabxanası redaksiya şurasının üzvüdür. İndiyədək onun 20 kitabı, 400-dən çox məqaləsi nəşr olunmuşdur. Azərbaycan, Rusiya, Türkiyə, İran, Polşa və başqa ölkələrdə çap edilmiş əsərlərində XIX-XX əsrlər Azərbaycan ədəbiyyatı və tarixi ilə bağlı bir sıra mühüm problemlər araşdırılmışdır. O, həm də bədii tərcümə sahəsində ardıcıl və məhsuldar fəaliyyəti göstərir. İndiyə qədər dünya klassiklərinin və tanınmış ədəbiyyat xadimlərinin bir sıra əsərlərini ingilis və rus dillərindən azərbaycancaya çevirmişdir. Elmi və ədəbi sahədə qazandığı uğurlara görə Mirzə Fətəli Axundov adına mükafata (1989-cu il), Hacı Zeynalabdin Tağıyev mükafatına (1994-cü il) və Azərbaycan Respublikasının Dövlət Mükafatına (2010-cu il) layiq görülmüşdür.

***

– Azərbaycanda kim kimdir? Sorğu-məlumat kitabı. Bakı, Azərbaycan Ensiklopediyası. NPB, 1999.

– Azərbaycan: Kim kimdir? 2001. Bakı, Biznes aress nəşriyyatı, 2001.

– "Azərbaycan" qəzeti, 1999-2002; 2003, 14 fevral, №35; 4 mart, №50; 5 mart, №51; 26 mart, №66.

– Quliyev V. Mirzə Kazım bəy. Bakı, Yazıçı, 1987.

– Quliyev V. Əlimərdan bəy Topçubaşov. – "Xalq qəzeti", 1997, 30 mart.

– "Diplomatiya aləmi" jurnalı. Bakı, 2002-2004.

## Elmar Məmmədyarov

*2 aprel 2004...*



Azərbaycanın görkəmli diplomatlarından biri Elmar Məhərrəm oğlu Məmmədyarovdur. O, 1960-ci il iyulun 2-də Bakı şəhərində anadan olmuşdur. 1977-1982-ci illərdə T.Şevçenko adına Kiyev Dövlət Universitetinin beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsində təhsil almışdır. Peşəkar diplomatdır. 1982-ci ildə diplomatik fəaliyyətə başlamışdır. 1982-1988-ci illərdə Azərbaycan SSR Xarici İşlər Nazirliyində əvvəlcə 2-ci katib, sonra isə 1-ci katib vəzifələrində işləmişdir. 1988-1991-ci illərdə SSRİ Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasında təhsil almışdır. Beynəlxalq münasibətlər və xarici siyasət məsələləri üzrə tədqiqatlar aparmış, SSRİ-ABŞ münasibətlərinə dair dissertasiya işini müdafiə etmişdir. Tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. 1989-1990-cı illərdə ABŞ-dakı Braun Universitetində xarici siyasətin planlaşdırılması mərkəzində təşkil edilən kurslarda olmuşdur. SSRİ Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasını bitirdikdən sonra 1991-ci ildə Xarici İşlər Nazirliyinin dövlət protokolu şöbəsinin müdiri təyin edilmişdir. Bu vəzifədə 1992-ci ilədək çalışmışdır.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra E.Məmmədyarovun diplomatik fəaliyyətində yeni bir dövr başlamışdır. 1992-ci ilin mart ayında Azərbaycan Respublikası BMT-yə üzv qəbul edildikdən sonra təşkilatın yanında ilk dəfə olaraq daimi nümayəndəlik yaradılmışdır. Nümayəndəliyin tərkibində E.Məmmədyarov da olmuşdur. O, 1992-1995-ci illərdə Azərbaycan Respublikasının BMT yanındakı daimi nümayəndəliyinin 1-ci katibi işləmiş, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin həllinə dair BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinin qəbulu üçün gərgin əmək sərf etmişdir. Həmin qətnamələr münaqişənin həlli üçün hüquqi-siyasi əsas təşkil etmişdir.

E.Məmmədyarov BMT-dən qayıtdıqdan sonra, 1995-ci ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin beynəlxalq təşkilatlar idarəsinin rəisi təyin edilmişdir. O, bu vəzifədə 1998-ci ilədək işləmişdir.

1998-2003-cü illərdə Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyində müşavir vəzifəsində çalışan E.Məmmədyarov Azərbaycan-ABŞ münasibətlərinin inkişafında mühüm rollardan birini oynamışdır. Bu dövrdə iki ölkə arasında tərəfdaşlıq münasibətləri inkişaf etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə E.Məmmədyarova 2003-cü ildə fövqəladə və səlahiyyətli səfir rütbəsi verilmişdir. O, 2003-2004-cü illərdə Azərbaycan Respublikasının İtaliya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsində işləmişdir. Bu illərdə iki ölkə arasında münasibətlər demək olar, bütün sahələrdə qurulmuş və genişlənmişdir. O, Azərbaycan-İtaliya münasibətlərinin inkişafında müstəsna rol oynamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2004-cü il aprelin 2-də E.Məmmədyarov Azərbaycan Respublikasının xarici işlər naziri təyin edilmişdir. Müstəqillik dövrünün sayca 6-cı xarici işlər naziridir. O, ikitərəfli danışıqlarda, beynəlxalq forumlarda, BMT Baş Məclisində, İKT, İƏT, ATƏT, Avropa Şurası, GUAM, NATO toplantılarında Azərbaycanı uğurla təmsil etmişdir. Azərbaycan dövləti 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. 2012-ci ilin may ayında Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasına sədrlik etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının iclasını açmış, sədr kimi nitq söyləyərək dünyanın həllini gözləyən problemlərini və onların həlli yolları barədə dü-

şüncələrini söyləmişdir. Bu, Azərbaycan diplomatiya tarixinin parlaq səhifələrindən biridir.

Bu illərdə Azərbaycan həmçinin, beynəlxalq və regional toplantıların keçirildiyi mərkəzə çevrilmişdir. Dövlətin beynəlxalq mövqeləri güclənmiş və nüfuzu artmışdır. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən beynəlxalq fəaliyyət nəticəsində Azərbaycan dövlətinin xarici ölkələrdəki səfirlik və nümayəndəliklərinin sayı 60-ı ötüb keçmişdir. Xüsusən, Azərbaycan Respublikası Latın Amerikası, Cənubi-Şərqi Asiya regionları, Afrika qitəsi ölkələri ilə əlaqələrini genişləndirmiş, Şərq ölkələri ilə faydalı əlaqələr qurmuşdur. Azərbaycan beynəlxalq kommunikasiyalar mərkəzinə çevrilmiş, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan ölkə olmuşdur.

E.Məmmədyarov Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədi ilə ATƏT-in Minsk qrupunun həmsədrləri, Ermənistanın xarici işlər nazirləri ilə dəfələrlə danışıqlar aparmışdır.

Qarşılıqlı münasibətlərin inkişafında oynadığı rola görə E.Məmmədyarov Polşa, Qazaxıstan, və b. ölkələrin mükafatları ilə təltif edilmişdir.

***


– "Azərbaycan" qəzeti, 2004 -2012.
– Azerbaijan in Global Politics. Crafting Foreign Policy. Baku, 2009.
– "Diplomatiya aləmi" jurnalı, 2004 -2012.
– Vikipediya. Açıq Ensiklopediya.
– www.mfa.gov.az





Musa Qasımlı
*(Musa Cəfər oğlu Qasımlı)*

Elmira Hüseynova
*(Hüseynova Elmira Əli qızı)*


Bakı – Mütərcim – 2013

***Kitab "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap edilmişdir.***

*Nəşriyyatın direktoru* – prof. Telman CƏFƏROV

*Nəşriyyat redaktoru* – Əliş AĞAMİRZƏYEV

*Texniki redaktor* – Gövhər ALLAZOVA

*Üz qabığının dizaynı* – Cavid KİŞİYEV

Çapa imzalanıb: 15.08.2013.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 9 ç.v. Tiraj: 100. Sifariş № 94.
Qiyməti müqavilə ilə.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru

www.mutercim.az